“AccessBank” Qapalı Səhmdar Cəmiyyəti

31 dekabr 2023-cü il tarixinə

Maliyyə Hesabatları və
Müstəqil Auditorun Hesabatı

Mündəricat

Müstəqil Auditorun Hesabatı

Maliyyə hesabatları

Maliyyə vəziyyəti haqqında hesabat 1
Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat 2
Kapitalda dəyişikliklər haqqında hesabat 3
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat 4

Maliyyə hesabatları üzrə qeydlər

1 Əsas fəaliyyət 5
2 Bankın fəaliyyət mühiti 5
3 Mühüm uçot siyasəti prinsipləri 7
4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr 16
5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi 18
6 Yeni uçot qaydaları 19
7 Pul vəsaitləri və onların ekvivalentləri 20
8 Kredit təşkilatlarından alınacaq məbləğlər 22
9 Törəmə maliyyə aktivləri və öhdəlikləri 23
10 Borc qiymətli kağızlara investisiyalar 23
11 Müştərilərə verilmiş kreditlər və maliyyə icarəsi üzrə alınacaq məbləğlər 25
12 Kredit zərərləri üzrə ehtiyatın qaytarılması 41
13 Əmlak və avadanlıqlar 41
14 Qeyri-maddi aktivlər 42
15 İstifadə hüquqlu aktivlər və icarə öhdəlikləri 43
16 Mülkiyyətə keçmiş girov 44
17 Vergilər 44
18 Digər aktivlər və öhdəliklər 46
19 Kredit təşkilatları qarşısında öhdəliklər 46
20 Müştərilər qarşısında öhdəliklər 47
21 Borc öhdəlikləri 47
22 Subordinasiyalı kreditlər 48
23 Buraxılmış borc qiymətli kağızları 49
24 Təxirə salınmış gəlirlər 49
25 Kapital 50
26 Təəhhüdlər və şərti öhdəliklər 50
27 Xalis haqq və komissiya gəlirləri və xərcləri 52
28 Ümumi, inzibati və işçi heyəti üzrə xərclər 52
29 Maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərdə dəyişikliklər 53
30 Seqmentlər üzrə təhlil 54
31 Risklərin idarə edilməsi 58
32 Ədalətli dəyərin ölçülməsi 71
33 Əlaqəli tərəflərə dair açıqlamalar 74
34 Hesabat tarixindən sonra baş vermiş hadisələr 75
35 İxtisarlar 75

Müstəqil Auditorun Hesabatı

"AccessBank" QSC-nin Səhmdarlarına və İdarə Heyətinə:

Rəy

Bizim fikrimizcə, hazırkı maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "AccessBank" QSC-nin ("Bank") 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini BMHS Mühasibat Uçotu Standartlarına ("BMHS") uyğun olaraq düzgün əks etdirir.

Auditin predmeti

Bankın maliyyə hesabatları aşağıdakılardan ibarətdir:

- 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə kapitalda dəyişikliklər haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat; və
- mühüm uçot siyasəti prinsipləri və digər izahedici məlumatlar daxil olmaqla, maliyyə hesabatları üzrə qeydlər.

Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Müstəqillik

Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) (MBESŞ Məcəlləsi) uyğun olaraq Bankdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz MBESŞ Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

Audit yanaşmamız

İcmal

Əhəmiyyətlilik	• Bank üçün ümumi əhəmiyyətlilik dərəcəsi: 2,489 min Azərbaycan manatı (AZN). Bu məbləğ vergidən əvvəlki mənfəətin 5%-ni əks etdirir.
Əsas audit məsələləri	• BMHS 9-a uyğun olaraq, müştərilərə verilmiş kreditlər üzrə gözlənilən kredit zərərləri üçün ehtiyatın qiymətləndirilməsi.

Audit metodologiyamızın bir hissəsi kimi, biz əhəmiyyətlilik dərəcəsini müəyyən etdik və maliyyə hesabatlarında əhəmiyyətli təhrif riskini qiymətləndirdik. Xüsusilə, biz rəhbərliyin (məsələn, ehtimalların irəli sürülməsi və qeyri-müəyyən xarakterli gələcək hadisələrin nəzərdən keçirilməsini özündə ehtiva edən əhəmiyyətli uçot təxminləri) subyektiv mülahizələr tətbiq etdiyi sahələri təhlil etmişik. Bütün audit yoxlamalarımızda olduğu kimi, biz, həmçinin rəhbərlik tərəfindən daxili nəzarət sistemində sui-istifadə riskini nəzərdən keçirmiş, eləcə də, digər məsələlərlə yanaşı, fırıldaqçılıq hallarına görə əhəmiyyətli təhriflərə səbəb olan qeyri-obyektivlik əlamətlərinin olub-olmadığını təhlil etmişik.

Biz audit prosedurlarının həcmini bütövlükdə maliyyə hesabatlarına dair rəy bildirmək məqsədilə kifayət qədər işləri yerinə yetirmək üçün Bankın strukturunu, uçot proseslərini və nəzarət mexanizmlərini, habelə Bankın fəaliyyət göstərdiyi sektorun xüsusiyyətlərini nəzərə alaraq müəyyən etdik.

Əhəmiyyətlilik

Audit prosedurlarının həcmi əhəmiyyətlilik dərəcəsindən asılıdır. Audit maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək üçün nəzərdə tutulur. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Peşəkar mülahizəmizə əsasən biz kəmiyyət baxımından müəyyən əhəmiyyətlilik dərəcəsini, həmçinin aşağıdakı cədvəldə göstərildiyi kimi, bütövlükdə maliyyə hesabatları üzrə Bank üçün ümumi əhəmiyyətliliyi müəyyən etmişik. Bu göstəricilər və keyfiyyət amilləri sayəsində biz auditin həcmini, habelə audit prosedurlarının məzmununu, müddətini və həcmini müəyyən etmiş və mümkün təhriflərin fərdi və ya məcmu olaraq bütövlükdə maliyyə hesabatlarına təsirini qiymətləndirmişik.

Bankın maliyyə hesabatları üçün ümumi əhəmiyyətlilik dərəcəsi	2,489 min AZN
Əhəmiyyətlilik dərəcəsinin müəyyən edilməsi	Vergidən əvvəlki mənfəətin 5%-i
Əhəmiyyətlilik dərəcəsinin müəyyən edilməsində tətbiq olunan meyarın əsaslandırılması	Biz əsas meyar kimi "vergidən əvvəlki mənfəəti" seçmək qərarına gəlmişik. Bizim fikrimizcə bu, Qrupun fəaliyyət nəticələrinin qiymətləndirilməsi üçün istifadəçilər tərəfindən daha çox nəzərdən keçirilən və ümumi qəbul edilmiş meyardır. Biz bu sektorda fəaliyyət göstərən kommersiya təşkilatlarına tətbiq edilən kəmiyyət əhəmiyyətliliyi hədlərinə uyğun olaraq 5%-lik əmsal seçmişik.

Biz audit zamanı 249 min AZN-dən yuxarı məbləğdə aşkar edilmiş təhriflər, habelə fikrimizcə, keyfiyyət amillərinə görə hesabatda əks etdirməyimizə əsas verən bu məbləğdən aşağı olan təhriflər barədə Audit Komitəsinə məlumat verəcəyimizi onlarla razılaşdırdıq

Əsas audit məsələləri

Əsas audit məsələləri bizim peşəkar mülahizəmizə görə cari dövrün maliyyə hesabatlarının auditi zamanı ortaya çıxan ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər bütövlükdə maliyyə hesabatlarının auditi və hazırkı maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılması zamanı nəzərə alınmış və biz bu məsələlərə dair ayrı rəy bildirmirik.

Əsas audit məsələsi	Əsas audit məsələsi ilə bağlı həyata keçirilmiş audit prosedurları
BMHS 9-a uyğun olaraq, müştərilərə verilmiş kreditlər üzrə gözlənilən kredit zərərləri üçün ehtiyatın qiymətləndirilməsi Gözlənilən kredit zərərləri (GKZ) üzrə ehtiyatın qiymətləndirilməsi müvafiq metodologiya, modellər və ilkin məlumatlardan istifadə etməklə aparılan əhəmiyyətli hesablamadır. 31 dekabr 2023-cü il tarixinə Bankın maliyyə hesabatlarında müştərilərə verilmiş kreditlər və maliyyə icarəsi üzrə alınacaq məbləğlərin balans dəyəri 990,282 min AZN olmuşdur ki, bunun da 976,159 min AZN məbləğində hissəsini müştərilərə verilmiş kreditlər təşkil edir. Bu qalıqların maliyyə vəziyyəti haqqında hesabat üçün əhəmiyyətini və GKZ ehtiyatının müəyyən edilməsində əhəmiyyətli mülahizələrin irəli sürülməsini tələb etdiyini nəzərə alaraq, biz bu sahəni əsas audit məsələsi hesab edirik. GKZ üzrə ehtiyat istisna olmaqla, müştərilərə verilmiş kreditlərin ümumi balans dəyəri 1,026,453 min AZN təşkil edir ki, bunun da 38,855 min AZN-lik hissəsi müştərilərə verilmiş kreditlər üzrə GKZ ehtiyatının hesablanması məqsədilə fərdi qaydada, 987,598 min AZN-lik hissəsi isə kollektiv qaydada qiymətləndirilmişdir. GKZ ehtiyatının hesablanmasında mülahizələrin irəli sürüldüyü əsas sahələr aşağıdakılardır: • BMHS 9-a uyğun olaraq, müştərilərə verilmiş kreditlərin mərhələlər üzrə təsnifatı; • Əsas risk parametrlərini - defolt ehtimalı (PD) və defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləği (LGD) qiymətləndirmək üçün istifadə edilən əsas təxminlər və modelləşdirmə fərziyyələri.	Biz Bankda GKZ-nin hesablanması prosesi, həmçinin GKZ-nin hesablanması zamanı Bankın tətbiq etdiyi əhəmiyyətli mülahizələr, belə mülahizələri təsdiqləyən məlumatların qənaətbəxşliyi, eləcə də bu mülahizələr ilə bağlı qeyri-müəyyənlik dərəcəsi barədə məlumat əldə etdik. Biz Bank tərəfindən hazırlanan GKZ üzrə ehtiyatların hesablanması metodologiyası və modellərin BMHS 9-un tələblərinə uyğunluğunu qiymətləndirdik. GKZ ehtiyatının hesablanması prosesi üzrə nəzarət mexanizmləri ilə bağlı kredit zərərlərinə dair məlumatları və onların hesablanması üzrə əsas nəzarət mexanizmlərinin strukturunu və istifadəsinin effektivliyini qiymətləndirdik və seçmə üsulu ilə test etdik. Bu əsas nəzarət mexanizmlərinə kreditin təsdiqlənməsi və müştəri məlumatlarının kredit sisteminə düzgün daxil edilməsi, o cümlədən kredit tarixçəsi məlumatlarında dəyişikliklərə icazə verilməsi, müştərilərdən daxil olan pul vəsaitlərinin müştərilərin müvafiq kredit hesablarına paylanması, gecikdirilmiş kreditlər üzrə vaxtı keçmiş günlərin hesablanması, habelə risk parametrləri və GKZ ehtiyatının avtomatlaşdırılmış şəkildə hesablanması daxildir. Biz, həmçinin sistemləri qiymətləndirdik və GKZ ehtiyatının hesablanmasında Bankın istifadə etdiyi əsas məlumatları seçmə üsulu ilə test etdik. Bundan əlavə, kollektiv qaydada qiymətləndirilən kreditlər üzrə GKZ ehtiyatının hesablanması üçün aşağıdakı prosedurları həyata keçirdik:

Əsas audit məsələsi	Əsas audit məsələsi ilə bağlı həyata keçirilmiş audit prosedurları
Maliyyə hesabatları üzrə Qeyd 3 "Mühüm uçot siyasəti prinsipləri", Qeyd 4 "Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr", Qeyd 11 "Müştərilərə verilmiş kreditlər və maliyyə icarəsi üzrə alınacaq məbləğlər" və Qeyd 31 "Risklərin idarə edilməsi" GKZ ehtiyatının müəyyən edilməsi metodologiyası və əhəmiyyətli mülahizələr haqqında ətraflı məlumat təqdim edir.	• kredit portfelinin seqmentasiyası üzrə Bankın yanaşmasının uyğunluğunu qiymətləndirdik və test etdik; • statistik metodologiyanın uyğunluğunu qiymətləndirdik; • seçmə üsulu ilə kreditlərin ayrı-ayrı "mərhələlərə" təsnifləşdirilməsinin düzgünlüyünü və müəyyən edilmiş restrukturizasiya olunmuş dəyərsizləşmiş kreditlərin tamlığını test etdik; • risk parametrlərini (PD və LGD), proqnoz məlumatları, müvafiq çəki əmsallarını və GKZ üzrə hesablamaları yoxladıq; • PD və LGD kimi risk parametrləri üzrə təxminlər və faktiki zərərlər arasındakı fərqləri qiymətləndirdik və test etdik; Fərdi qaydada qiymətləndirilən kreditlər üzrə GKZ ehtiyatının hesablanması üçün aşağıdakı prosedurları həyata keçirdik: • seçmə üsulu ilə fərqli ssenarilər və əsas fərziyyələr, o cümlədən girovun toplanması vaxtı əsasında Bankın təxmin edilən gələcək pul vəsaitlərinin hərəkətini qiymətləndirdik. İstifadə olunan ssenarilərin uyğunluğunu və onların baş vermə ehtimalını qiymətləndirdik və təxmin edilən gələcək pul vəsaitlərinin cari dəyərini hesabladıq; • seçmə üsulu ilə müstəqil qiymətləndiricilərin hesabatlarını, Bankın daxili hesabatlarını və bazar məlumatlarını nəzərdən keçirərək girovun bazar dəyərini test etdik. Audit prosesində aşağıdakı audit ekspertləri bizə dəstək göstərmişdir: • Bankın GKZ metodologiyasının nəzərdən keçirilməsi üzrə kredit riski ekspertləri; • GKZ-nin qiymətləndirilməsi üçün Bankın tətbiq etdiyi hesablama mexanizmindən əldə olunan nəticələrin yoxlanılması məqsədilə İT riskləri üzrə ekspertlər. Biz, həmçinin maliyyə hesabatlarında müştərilərə verilmiş kreditlər üzrə GKZ ehtiyatına dair məlumat açıqlamalarının BMHS 7-yə uyğunluğunu qiymətləndirdik.

Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının BMHS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Bnakı ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Bankın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslər Bankın maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mülahizə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Bankın daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Bankın fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Bankın fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

Biz, həmçinin korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə müstəqillik ilə bağlı müvafiq etik normalara riayət etdiyimiz barədə bəyanat verir və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün münasibətlər və digər məsələlər, habelə zəruri hallarda təhdidlərin aradan qaldırılması üçün görülən tədbirlər, o cümlədən ehtiyat tədbirləri barədə məlumat veririk.

Korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlər arasında biz cari dövrün maliyyə hesabatlarının auditi üçün ən əhəmiyyətli və bu səbəbdən də əsas audit məsələlərini müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi və ya çox nadir hallarda, məsələ haqqında rəyimizdə açıqlamanın verilməsinin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyi hallar istisna olmaqla, bu məsələni rəyimizdə təsvir edirik.

Audit nəticəsində dərc olunan hazırkı müstəqil auditor hesabatına görə məsul partnyor Aigule Axmetovadır.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

Bakı, Azərbaycan Respublikası

27 may 2024-cü il

	Qeyd	31 dekabr 2023	31 dekabr 2022
AKTİVLƏR			
Pul vəsaitləri və onların ekvivalentləri	7	164,526	118,958
Kredit təşkilatlarından alınacaq məbləğlər	8	65,911	33,260
Borc qiymətli kağızlara investisiyalar	10	93,812	94,247
Müştərilərə verilmiş kreditlər və maliyyə icarəsi üzrə alınacaq məbləğlər	11	990,282	790,773
Digər maliyyə aktivləri	18	14,781	8,733
Digər aktivlər	18	5,547	3,738
Təxirə salınmış mənfəət vergisi aktivləri	17	3,360	10,127
Mülkiyyətə keçmiş girov	16	9,589	16,915
Əmlak və avadanlıqlar	13	31,565	31,413
Qeyri-maddi aktivlər	14	15,733	16,072
İstifadə hüquqlu aktivlər	15	3,528	3,368
CƏMİ AKTİVLƏR		**1,398,634**	**1,127,604**
ÖHDƏLİKLƏR			
Kredit təşkilatları qarşısında öhdəliklər	19	23,541	49,910
Törəmə maliyyə öhdəlikləri	9	1,080	3,804
Müştərilər qarşısında öhdəliklər	20	1,078,873	883,617
Borc öhdəlikləri	21	84,489	29,879
İcarə öhdəlikləri	15	3,661	3,264
Buraxılmış borc qiymətli kağızları	23	8,543	8,543
Digər maliyyə öhdəlikləri	18	9,604	5,007
Digər öhdəliklər	18	6,794	7,527
Təxirə salınmış gəlirlər	24	156	417
Subordinasiyalı kreditlər	22	34,376	31,103
CƏMİ ÖHDƏLİKLƏR		**1,251,117**	**1,023,071**
KAPİTAL			
Səhmdar kapitalı	25	258,718	258,718
Kapital ehtiyatları	22	2,626	4,401
Yığılmış zərər		(113,824)	(158,616)
İnvestisiya qiymətli kağızları üzrə yenidən qiymətləndirmə ehtiyatı		(3)	30
CƏMİ KAPİTAL		**147,517**	**104,533**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL		**1,398,634**	**1,127,604**

27 may 2024-cü il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Azərbaycan Respublikası "Access Bank" QSC

Davit Tsiklauri
İdarə Heyətinin Sədri

Orxan İsmayılov
Baş Maliyyə İnzibatçısı

	Qeyd	2023	2022
Müştərilərə verilmiş kreditlər		177,942	135,449
Borc qiymətli kağızlara investisiyalar		5,021	2,207
Kredit təşkilatlarından alınacaq məbləğlər		2,870	621
Pul vəsaitləri və onların ekvivalentləri		3,562	504
Effektiv faiz metodu ilə hesablanmış faiz gəlirləri		**189,395**	**138,781**
Maliyyə icarəsi üzrə faiz gəlirləri		1,453	698
Digər oxşar gəlirlər		**1,453**	**698**
Müştərilər qarşısında öhdəliklər		(64,129)	(51,178)
Kredit təşkilatları qarşısında öhdəliklər		(4,292)	(1,609)
Borc öhdəlikləri		(2,741)	(1,430)
Subordinasiyalı kreditlər		(3,273)	(2,464)
Buraxılmış borc qiymətli kağızları		(468)	-
İcarə öhdəliyi üzrə faiz xərci		(406)	(346)
Faiz xərcləri		**(75,309)**	**(57,027)**
Xalis faiz gəlirləri və oxşar gəlirlər		**115,539**	**82,452**
Kredit zərərləri üzrə ehtiyatın qaytarılması	12	3,688	9,547
Kredit zərərləri üzrə ehtiyatın yaradılmasından sonra xalis faiz gəliri və oxşar gəlirlər		**119,227**	**91,999**
Haqq və komissiya gəlirləri	27	16,241	15,092
Haqq və komissiya xərcləri	27	(13,421)	(11,570)
Amortizasiya olunmuş dəyərlə ölçülən və tanınmanın dayandırılması ilə nəticələnməyən maliyyə aktivlərinin modifikasiyası üzrə xalis gəlir/(zərər)	11	110	(1,942)
Xarici valyuta ilə əməliyyatlar üzrə zərər çıxılmaqla gəlir		3,925	5,024
Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər çıxılmaqla gəlir		(95)	(141)
İnvestisiya qiymətli kağızlarının satışı üzrə zərər çıxılmaqla gəlir		-	(81)
Törəmə maliyyə alətləri üzrə zərər çıxılmaqla gəlir		(2,494)	(5,868)
Dövlət subsidiyası üzrə gəlir		261	387
Sair gəlir		806	590
İşçi heyəti üzrə xərclər	28	(41,985)	(36,105)
Ümumi və inzibati xərclər	28	(22,368)	(22,379)
Amortizasiya xərcləri	13,14,15	(8,171)	(7,604)
Borcların yığılması xərcləri	3	(2,252)	(3,070)
Mənfəət vergisi xərcindən əvvəlki mənfəət		**49,784**	**24,332**
Mənfəət vergisi xərci	17	(6,767)	(3,837)
İl üzrə mənfəət		**43,017**	**20,495**
İl üzrə sair məcmu gəlir		(33)	-
İl üzrə cəmi məcmu gəlir		**42,984**	**20,495**

(Cədvəllərdəki rəqəmlər min Azərbaycan manatı ilə təqdim edilir)

	Qeyd	Səhmdar kapitalı	Kapital ehtiyatları	Yığılmış zərər	İnvestisiya qiymətli kağızları üzrə yenidən qiymətləndirmə ehtiyatı	Cəmi kapital
1 yanvar 2022-ci il tarixinə qalıq		**258,718**	**-**	**(179,479)**	**30**	**79,269**
Səhmdarlar tərəfindən subordinasiyalı kreditlər üzrə faizlərin dayandırılması və əsas borc öhdəliyinin imtiyazlı səhmlərə çevrilməsinin nəticəsi	22	-	4,769	-	-	4,769
Səhmdarlar tərəfindən subordinasiyalı kreditlər üzrə faizlərin dayandırılması və əsas borc öhdəliyinin imtiyazlı səhmlərə çevrilməsi nəticəsinin amortizasiyası	22	-	(368)	368	-	-
İl üzrə mənfəət		-	-	20,495	-	20,495
İl üzrə cəmi məcmu gəlir		-	-	20,495	-	20,495
31 dekabr 2022-ci il tarixinə qalıq		**258,718**	**4,401**	**(158,616)**	**30**	**104,533**
Kapital ehtiyatının amortizasiyası	22	-	(1,775)	1,775	-	-
İl üzrə mənfəət		-	-	43,017	-	43,017
İl üzrə sair məcmu gəlir		-	-	-	(33)	(33)
İl üzrə cəmi məcmu gəlir		-	-	43,017	(33)	42,984
31 dekabr 2023-cü il tarixinə qalıq		**258,718**	**2,626**	**(113,824)**	**(3)**	**147,517**

(Cədvəllərdəki rəqəmlər min Azərbaycan manatı ilə təqdim edilir)

	Qeyd	2023	2022
Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Alınmış faizlər		179,892	134,576
Ödənilmiş faizlər		(68,911)	(47,090)
Alınmış haqq və komissiya		16,241	13,124
Ödənilmiş haqq və komissiya		(13,421)	(11,570)
Xarici valyutada olan törəmə alətlərlə əməliyyatlar üzrə realizasiya olunmuş zərər		(5,219)	(7,471)
Xarici valyuta ilə əməliyyatlar üzrə zərər çıxılmaqla realizasiya olunmuş gəlir		3,925	5,024
Alınmış digər gəlirlər		806	590
İşçi heyəti üzrə ödənilmiş xərclər		(41,609)	(36,743)
Ödənilmiş digər əməliyyat xərcləri		(21,031)	(22,793)
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə daxil olan pul vəsaitlərinin hərəkəti		**50,673**	**27,647**
Əməliyyat aktivlərində xalis (artım)/azalma			
Kredit təşkilatlarından alınacaq məbləğlər		(32,678)	(23,586)
Müştərilərə verilmiş kreditlər və maliyyə icarəsi üzrə alınacaq məbləğlər		(182,427)	(158,982)
Digər maliyyə aktivləri		(6,059)	(5,433)
Digər aktivlər		(453)	125
Əməliyyat öhdəliklərində xalis artım/(azalma)			
Kredit təşkilatları qarşısında öhdəliklər		(23,038)	35,765
Müştərilər qarşısında öhdəliklər		191,566	171,480
Digər maliyyə öhdəlikləri		4,551	2,467
Digər öhdəliklər		(3,941)	3,048
Əməliyyat fəaliyyəti üzrə (istifadə edilən)/daxil olan xalis pul vəsaitləri		**(1,806)**	**52,531**
İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
İnvestisiya qiymətli kağızlarının alınması		(151,792)	(160,583)
Borc qiymətli kağızlara investisiyalar üzrə alınmış faiz gəlirləri		4,493	2,207
Borc qiymətli kağızlara investisiyaların ödənilməsindən daxilolmalar		152,965	99,147
Əmlak və avadanlıqların alınması		(3,968)	(1,830)
Qeyri-maddi aktivlərin alınması		(3,771)	(5,372)
İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri		**(2,073)**	**(66,431)**
Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Borc öhdəliklərindən daxilolmalar	21,29	69,170	13,807
Borc öhdəliklərinin ödənilməsi	21,29	(16,447)	(21,014)
Borc öhdəlikləri üzrə faizlərin ödənilməsi	21,29	(1,062)	(1,037)
Subordinasiyalı kreditlər üzrə faizlərin ödənilməsi	22,29	-	(827)
İstiqrazların emissiyasından daxilolmalar	23,29	-	8,543
Emissiya edilmiş istiqrazların ödənilməsi	23,29	(468)	-
İcarə öhdəlikləri üzrə borcun ödənilməsi	15,29	(1,670)	(1,687)
Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan/(istifadə edilən) xalis pul vəsaitləri		**49,523**	**(2,215)**
Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri		(76)	(241)
Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)		**45,568**	**(16,356)**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri	7	118,958	135,314
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	7	**164,526**	**118,958**

Pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsini tələb etməyən və pul vəsaitlərinin hərəkəti haqqında hesabata daxil edilməyən investisiya və maliyyələşdirmə əməliyyatları haqqında məlumat Qeyd 7-də açıqlanır.

1 Əsas fəaliyyət

"AccessBank" Qapalı Səhmdar Cəmiyyəti ("Bank") 5 sentyabr 2002-ci il tarixində Azərbaycan Respublikasında təsis edilmişdir. Bank, Azərbaycan Respublikasının Mərkəzi Bankı ("AMB") tərəfindən verilmiş 245 saylı lisenziya əsasında fəaliyyət göstərir.

Bankın əsas fəaliyyəti diqqəti mikro və kiçik işgüzar müştərilərə xidmətlərin göstərilməsinə yönəltməklə, Azərbaycan Respublikasının daxilində kommersiya bank əməliyyatlarının aparılmasından ibarətdir.

31 dekabr 2023-cü il tarixinə Bankın Azərbaycan Respublikasında 33 filialı (31 dekabr 2022: 31 filial) vardır. Bankın hüquqi ünvanı: Azərbaycan, Bakı, AZ1065, Tbilisi prospekti 3.

31 dekabr 2023 və 2022-ci il tarixlərinə Bankın mövcud adi səhmlərinə aşağıdakı səhmdarlar sahib olmuşlar:

	Adi səhmlər		*İmtiyazlı səhmlər*	
Səhmdarlar	***2023 %***	***2022 %***	***2023 %***	***2022 %***
Asiya İnkişaf Bankı (AİB)	19,90	19,90	30,12	30,12
Avropa İnvestisiya Bankı (AİB)	17,39	17,39	26,31	26,31
Beynəlxalq Maliyyə Korporasiyası (BMK)	16,56	16,56		
FMO	9,41	9,41	14,24	14,24
Avstriya İnkişaf Bankı (OeEB)	9,17	9,17	13,87	13,87
İnkişaf etməkdə olan bazarlar üçün İsveçrə İnvestisiya Fondu AG, c/o Obviam DFI AG	8,89	8,89	-	-
ResponsAbility Management Company S.A	7,11	7,11	-	-
ResponsAbility SICAV (Lux)	5,18	5,18	5,14	5,14
Cənub-Şərqi Avropa ölkələri üzrə Avropa Fondu	2,78	2,78	6,30	6,30
Green for Growth Fund, Southeast Europe S.A.	1,77	1,77	4,02	4,02
Fərdi olaraq 3%-dən az paya sahib olan digər səhmdarlar	1,84	1,84	-	-
Cəmi	**100.00**	**100.00**	**100.00**	**100.00**

İmtiyazlı səhmlər haqqında ətraflı məlumat Qeyd 25-də açıqlanır.

2 Bankın fəaliyyət mühiti

2023-cü ildə dünya iqtisadiyyatı geosiyasi gərginliyin davam etməsi (Rusiya-Ukrayna müharibəsi və İsrail-Fələstin münaqişəsi), qlobal iqtisadi aktivliyin zəifləməsi, enerji qiymətlərində volatillik, o cümlədən yüksək inflyasiya təzyiqləri fonunda bir çox problemlərlə üzləşmişdir. Bundan başqa, mərkəzi banklar tərəfindən inflyasiyanın azaldılması üçün monetar siyasətin sərtləşdirməsi nəticəsində qlobal iqtisadiyyat özünəməxsus iqtisadi şoklara qarşı dayanıqlıq nümayiş etdirmişdir.

Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycan iqtisadiyyatı da mənfi şoklara məruz qalmışdır. Buna baxmayaraq, şoklar əsasən inflyasiya təzyiqləri ilə məhdudlaşmışdır. Bununla belə, Mərkəzi Bank tərəfindən həyata keçirilmiş sərt pul siyasəti və proqnozlar nəticəsində inflyasiyanın dinamikasında azalma gözlənilir.

İl ərzində Azərbaycan iqtisadiyyatında artım tempi davam etmişdir. ÜDM-nin real artım tempi əsasən qeyri-neft sektorunda ÜDM artımı hesabına 1.1% təşkil etmişdir. Qeyri-neft sektorunda ÜDM-nin real ifadədə artımı 2023-cü ildə kənd təsərrüfatı və xidmət sahələrində nəzərəçarpacaq artım fonunda 3.7% təşkil etmişdir.

Valyuta ehtiyatlarının uzunmüddətli artım dinamikası davam etmişdir. Bütövlükdə ölkənin valyuta ehtiyatları 7.9% artmışdır, bu da son illərin ən yüksək göstəricisidir. Qlobal geosiyasi və geoiqtisadi vəziyyətlə bağlı qeyri-müəyyənliklər, habelə qlobal inflyasiyanın yüksək səviyyəsi risk olaraq qalsa da, ölkənin müsbət ticarət saldosu və strateji valyuta ehtiyatlarının artması maliyyə sisteminin fəaliyyət göstərdiyi makroiqtisadi mühitin sabitliyini qoruyub saxlamağa imkan verir. Bununla bərabər, həyata keçirilən adekvat monetar və fiskal siyasət makroiqtisadi sabitlik üzrə riskləri azaldır.

2023-cü il ərzində dünya reytinq agentlikləri Azərbaycanın xarici və yerli valyutalarda əvvəlki müsbət suveren kredit reytinqlərini təkrar təsdiqləyiblər.

Siyasi və iqtisadi vəziyyətin mövcud təsirlərini proqnozlaşdırmaq çətindir, lakin bunun Azərbaycan iqtisadiyyatına təsiri daha çox ola bilər. Bankın rəhbərliyi mövcud iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Bankın yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür. Buna baxmayaraq, mövcud iqtisadi vəziyyətin gələcək təsirini qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

2 Bankın fəaliyyət mühiti (davamı)

Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir. Azərbaycan iqtisadiyyatının hazırkı və gələcək inkişaf səviyyəsi və dayanıqlığı dövlətin həyata keçirdiyi fiskal və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neftin qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

2023-cü il ərzində Mərkəzi Bank uçot dərəcəsinin 8.25%-dən 9%-ə, faiz dəhlizinin aşağı həddinin 6.25%-dən 7.5%-ə, faiz dəhlizinin yuxarı həddinin isə 9.25%-dən 10%-ə qaldırılması ilə bağlı qərar qəbul edilmişdir.

Bank 2023-cü il ərzində mikro kreditləşdirmə sahəsində güclü mövqeyini qoruyub saxlaya bilmiş və fərdi bankçılıq biznesini əhəmiyyətli dərəcədə genişləndirmişdir. 2023-cü il ərzində Ağcabədi və Tovuz filialları açılmışdır. Kredit fəaliyyəti ilə yanaşı Bank, rəqəmsallaşdırma sahəsində strateji hədəfinə uyğun olaraq, rəqəmsal kanallar vasitəsilə müştərilərə tam çeşidli xidmətlər təqdim etmək üçün tədbirlər həyata keçirmişdir. Rəqəmsal kanallardan istifadənin genişləndirilməsi tədbirləri mobil bankinq tətbiqinə əlavə xüsusiyyətlərin əlavə olunması və onlayn satışların artırılmasını da nəzərdə tutur.

İqlim dəyişmələri. Bank öz vebsaytında aydın şəkildə ifadə edildiyi kimi, biznesin bütün aspektlərində ekoloji və sosial məsuliyyəti qorumağa sadiqdir. Bank həm daxili, həm də kənar fəaliyyətlərində ekoloji və sosial risklərin mənfi təsirlərinin azaldılmasına önəm verir. Bunu aşağıdakı proaktiv yanaşma sübut edir:

a) Daxili ekoloji və sosial (ES) risklərin idarə edilməsi;
b) Kredit portfeli daxilində ES risklərin idarə edilməsi.

2019-cu ildə Bank Ekoloji və Sosial İdarəetmə Sistemi (ESİS) siyasəti tərtib etmiş və Müşahidə Şurası tərəfindən təsdiqlənmişdir. Bu siyasət təkcə Bankın özünün deyil, həm də maliyyələşdirdiyi bizneslərin fəaliyyətlərinə aid ətraf mühit və sosial siyasət çərçivəsini və risklərin idarə edilməsi strategiyalarını müəyyən etməyə xidmət edir. ESİS aşağıdakı əsas komponentlərdən ibarətdir:

1) Ekoloji və sosial risklərin idarə edilməsi strukturu və vəzifələr: Ekoloji və sosial fəaliyyətə nəzarət, ESİS-in tətbiqi və məqsədlərə nail olunmasına nəzarətə görə İdarə Heyətinin üzvü olan Baş Risk İnzibatçısı məsuliyyət daşıyır. Bundan əlavə, ESİS-in tətbiqi, hesabatların hazırlanması və işçi heyətin dəstəklənməsi işləri hazırda Anderraytinq departamentinin direktoru olan ES İnzibatçısına həvalə olunub. Bu struktur çərçivəsində müxtəlif maraqlı tərəflərin, o cümlədən Müşahidə Şurası, İdarə Heyəti, kredit mütəxəssisləri, hüquq departamenti və kredit komitəsinin vəzifələri aydın şəkildə müəyyən edilir.

2) Bankın fəaliyyətindən irəli gələn ekoloji və sosial risklərin təsirini azaltmaq və bu sahədə nəticələri yaxşılaşdırmaq üçün ES risklərin idarə edilməsi. Bu məqsədlə Bank aşağıdakı əsas prinsipləri müəyyən edir:

   a) səmərəli istehlak;

   b) ayrı-seçkiliyə yol verməmək;

   c) gender bərabərliyi;

   d) keyfiyyətli təhsil.

Bank qeyd olunan prinsiplərə uyğun olaraq bir sıra layihələr həyata keçirmişdir.

3) Kreditləşmə zamanı ekoloji və sosial risklərin idarə edilməsi: Bankın məqsədi kreditləşmə fəaliyyətindən irəli gələn hər hansı faktiki və ya potensial kənar təsirləri azaltmaqdır. Bu, müştərilərin bizneslərı ilə bağlı ekoloji, təhlükəsizlik və sosial risklərin və təsirlərin kompleks qiymətləndirilməsini və monitorinqini nəzərdə tutur. Ekoloji və sosial qiymətləndirmələr biznesin kreditləşdirilməsi ilə bağlı qərarların qəbulu prosesinə inteqrasiya olunur və ekologiyaya və ya cəmiyyətə uzunmüddətli mənfi təsiri olan layihələr qəbul edilmir. Kreditləşmə zamanı ES riskləri və onların təsirlərini idarə etmək üçün Bank aşağıdakı tədbirləri görür:

   a. Kredit müraciətlərinin imtina meyarlarına görə qiymətləndirilməsi: Bütün kredit müraciətləri mədəni irs obyektlərinə, qorunan ərazilərə, bataqlıq ərazilərə və vəhşi təbiətin kritik yaşayış yerlərinə yaxınlıq kimi xüsusi meyarlar əsasında qiymətləndirilir. Bu ərazilərə zərər verə biləcək və ya əhəmiyyətli dərəcədə məcburi yerdəyişmə və ya məhsuldar aktivlərin itkisi ilə nəticələnə bilən layihələr qəbul edilməyə bilər. 2024-cü ilin fevral ayında təhlükəli kimyəvi maddələrlə bağlı yeni bölməni özündə ehtiva edən İstisnalar Siyahısına düzəliş qüvvəyə minmişdir. Nəticədə Bankın ümumi kredit portfelinin 2%-i təhlükəli kimyəvi maddələrlə əlaqəli layihələrlə məhdudlaşmışdır.

2 Bankın fəaliyyət mühiti (davamı)

b. ES sahəsində qanunvericiliyə uyğunluğun yoxlanılması – Yerli qanun və qaydalara, o cümlədən ekoloji və sosial qaydalara, əməyin mühafizəsi, sağlamlıq qaydalarına və tətbiq olunan təhlükəsizlik qaydalarına uyğunluq nəzərdən keçirilir.

c. Kateqoriyalaşdırma – müştərinin maliyyələşdirilən biznes fəaliyyəti müvafiq ekoloji və sosial risk kateqoriyasına uyğun təsnifləşdirilir.

d. Ekoloji və sosial qiymətləndirmə – maliyyələşdirilən biznes fəaliyyətləri ilə bağlı potensial ekoloji və sosial risklərin və təsirlərin qiymətləndirilməsini və monitorinqini nəzərdə tutur.

Kredit portfelinin nəticələri aşağıda təqdim olunur:

2023-cü ilin sonuna ekoloji və sosial risk kateqoriyaları	ümumi balans dəyərinin % nisbəti
Aşağı risk kateqoriyası	65%
Orta risk kateqoriyası	9%
Yüksək risk kateqoriyası	2%
**E&S risklərin kateqoriyalaşdırılması biznes portfel üçün aparılır*	

Portfelin qalan hissəsi əsasən dövlət və özəl sektor üzrə istehlak kreditlərindən ibarətdir.

4) Şikayətlərin həll edilməsi: Müştəri hüquqlarının mühafizəsi Bank üçün mühüm əhəmiyyət kəsb edir. Bankda müştərilərin müraciətlərinə baxılması Qaydaları hazırlanmış və əlçatanlığı təmin edilmişdir. Bu Qaydaların əsas məqsədi müraciətlərə səbəb olan pozuntuları və onların nəticələrini qiymətləndirmək və həll etməkdir.

5) Hesabatlılıq: Bank İdarə Heyətinə və Müşahidə Şurasına ekoloji və sosial, eləcə də müştəri hüquqlarının mühafizəsi üzrə fəaliyyətlərə dair illik hesabatlar təqdim etməklə, şəffaflığı və hesabatlılığı təşviq edir. 2024-cü ildən etibarən bu hesabatların əsas məqamları Bankın rəsmi internet səhifəsində yerləşdirilmişdir. Bu hesabatlarda Sahə 1 və Sahə 2 emissiyaları, həmçinin kredit portfeli daxilində ekoloji və sosial risklərin idarə edilməsi haqqında ətraflı məlumat verilir.

Bu istiqamətdə davam edən layihələr:

- 2023-cü ildə Bank kənar məsləhətçilərlə birgə "Tərəfdaş maliyyə institutu üçün portfel və bazarın qiymətləndirilməsi xidmətləri" adlı layihəyə start vermişdir. Bu layihə etibarlı beynəlxalq tərəfdaşın maliyyə dəstəyi ilə həyata keçirilir. Bu texniki dəstək layihəsinin birinci mərhələsi Bankın hədəf qrupu üçün "yaşıl" kreditləşmə imkanlarının və hesabatlıq tələblərinin qiymətləndirilməsinə yönəlib. Bundan əlavə, layihənin məqsədi mövcud hədəf qrupundan kənarda kreditləşmə üçün yeni sektorları müəyyən etmək və strateji tərəfdaşlıqların formalaşdırılması imkanlarını araşdırmaqdır.
- ES və insan resursları ilə bağlı qaydaların təkmilləşdirilməsinə yönəlmiş ikinci texniki yardım layihəsi eyni beynəlxalq tərəfdaş tərəfindən təsdiqlənmişdir. Hazırda görüləcək işlərin həcmi və tenderlə bağlı sənədlər müzakirə mərhələsindədir.

Ortamüddətli perspektivdə Bank aşağıdakı tədbirləri həyata keçirməyi planlaşdırır:

1. İlk mərhələdə Bankın özü tərəfindən Ekoloji, Sosial və İdarəetmə (ESG) prinsiplərinin qiymətləndirilməsi, daha sonra müstəqil üçüncü tərəf qiymətləndirməsinin aparılması;
2. Müştəri hüquqlarının mühafizəsi proqramına qoşulma;
3. Qlobal Hesabat Təşəbbüsü (GRI) standartlarına uyğun Bankın ilk dayanıqlı inkişaf hesabatının hazırlanması;
4. Səhmdarların, yeni tərəfdaşların və yerli orqanların tələblərini nəzərə alaraq, mövcud ESİS sisteminin nəzərdən keçirilməsi və təkmilləşdirilməsi.

3 Mühüm uçot siyasəti prinsipləri

Maliyyə hesabatlarının tərtibatının əsasları. Hazırkı maliyyə hesabatları maliyyə alətlərini ilkin olaraq ədalətli dəyərlə tanımaqla, eləcə də maliyyə alətlərini mənfəət və ya zərərdə ədalətli dəyərlə əks etdirilən ("FVTPL") və sair məcmu gəlirdə ədalətli dəyərlə əks etdirilən maliyyə aktivləri kateqoriyalarına ("FVOCI") yenidən qiymətləndirməklə, Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS Mühasibat Uçotu Standartları") uyğun olaraq, ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Hazırkı maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən mühüm uçot siyasəti prinsipləri aşağıda göstərilir. Həmin prinsiplər başqa cür göstərilmədiyi hallarda, təqdim edilən bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir. Qeyd 5-ə baxın.

3 Mühüm uçot siyasəti prinsipləri (davamı)

Hazırkı maliyyə hesabatları hesabat verən müəssisəyə borc və ya səhm kapitalı təqdim edən investorlar hesab olunan əsas istifadəçilər üçün nəzərdə tutulur. Bu maliyyə hesabatları əsas istifadəçilərin biznes və maliyyə-təsərrüfat fəaliyyəti haqqında müvafiq anlayışa malik olması və məlumatı diqqətlə nəzərdən keçirib təhlil etməsi ehtimalına əsasən tərtib olunur.

Bu maliyyə hesabatlarının məqsədi yalnız rəhbərliyin əsas istifadəçilər üçün mühüm hesab etdiyi məlumatları açıqlamaqdır. Rəhbərlik mühüm məlumatları təqdim etməklə hazırkı maliyyə hesabatlarının anlaşıqlığını artırmağa çalışır. Bununla əlaqədar olaraq, müvafiq qeydlərdə yalnız mühüm uçot siyasəti məlumatları açıqlanır.

Maliyyə alətlərinin ilkin tanınması. FVTPL kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. Bank əməliyyat tarixini maliyyə alətini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi tarix kimi nəzərə alır.

İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri və sair məcmu gəlirdə ədalətli dəyərlə əks etdirilən (“FVOCI”) borc alətlərinə investisiyalar üzrə GKZ üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: qiymətləndirmə kateqoriyaları. Bank maliyyə aktivlərini aşağıdakı kateqoriyalarda təsnifləşdirir: FVTPL, FVOCI və AC. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə ölçülməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Bankın biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: biznes model. Biznes model Bankın pul axınları əldə etməsi məqsədilə portfelin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Bankın məqsədinin: (i) aktivlərdən yalnız müqavilə üzrə pul axınlarının əldə edilməsi (““müqavilə üzrə pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması”) və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan pul axınlarının əldə edilməsi (“müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması”) olub-olmadığını müəyyən edir. (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri “digər” biznes modellərə aid edilir və FVTPL kateqoriyasında ölçülür.

Biznes model qiymətləndirmə tarixində mövcud olan portfel üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün Bankın həyata keçirməyi planlaşdırdığı fəaliyyətə dair bütün müvafiq sübutlar əsasında aktivlər qrupu (portfel səviyyəsində) üçün müəyyən edilir. Biznes modelin müəyyən edilməsi zamanı Bankın nəzərə aldığı amillərə portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə pul axınlarının əldə edilməsi ilə bağlı keçmiş təcrübə, risklərin qiymətləndirilməsi və idarə edilməsi üzrə yanaşmalar və aktivlər üzrə gəlirliliyin qiymətləndirilməsi üsulları daxildir. Bankın öz maliyyə aktivləri üçün biznes modellərin müəyyən edilməsi zamanı istifadə etdiyi əsas mülahizələr Qeyd 4-də göstərilir.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: pul axınlarının xüsusiyyətləri. Biznes model müqavilə üzrə pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılmasını nəzərdə tutduqda, Bank pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (SPPI testi).

Müqavilə şərtləri əsas kredit sazişinin şərtlərinə uyğun olmayan riskə və ya dəyişkənliyə məruz qalmanı nəzərdə tutduqda, müvafiq maliyyə aktivi FVTPL kateqoriyasında təsnifləşdirilir və qiymətləndirilir. SPPI testi aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir. Bankın öz maliyyə aktivləri üçün SPPI testi həyata keçirdiyi zaman istifadə etdiyi əsas mülahizələr Qeyd 4-də göstərilir.

Maliyyə aktivlərinin dəyərsizləşməsi: GKZ üzrə ehtiyat. Bank amortizasiya olunmuş dəyərlə və FVOCI kateqoriyasında ölçülmüş borc alətləri, eləcə də kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələrindən yaranan risklər üzrə GKZ-ni proqnozlar əsasında qiymətləndirir (Qeyd 31). Bank hər bir hesabat tarixində GKZ-ni qiymətləndirir və kredit zərərləri üzrə ehtiyatı tanıyır. GKZ-nin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat.

Amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri GKZ üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. Kreditlərlə bağlı öhdəliklər və maliyyə zəmanətləri üzrə GKZ üçün maliyyə vəziyyəti haqqında hesabatda öhdəliyin tərkibində ayrıca ehtiyat tanınır.

3 Mühüm uçot siyasəti prinsipləri (davamı)

Bank maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanaraq üç mərhələli dəyərsizləşmə modeli tətbiq edir (defolt və SICR anlayışları Qeyd 31-də açıqlanır). İlkin tanınma zamanı dəyərsizləşməmiş maliyyə aləti 1-ci Mərhələyə təsnifləşdirilir. 1-ci Mərhələdə maliyyə aktivləri üzrə GKZ növbəti 12 ay ərzində və ya müqavilədə nəzərdə tutulan ödəniş tarixinə qədər (12 ay bitənə qədər) baş verə bilən defolt hadisələri nəticəsində yaranmış bütöv müddət üçün GKZ ("12 aylıq gözlənilən kredit zərəri") məbləğində qiymətləndirilir.

Kredit və istifadə olunmamış kredit xəttindən ibarət olan kredit kartları kimi müəyyən maliyyə alətləri üzrə istisna olaraq kredit zərərləri Bankın kredit riskinə məruz qaldığı müddət, yəni belə kredit zərərlərinin kredit riskinin idarə edilməsi tədbirləri vasitəsilə azaldılmasına qədər olan dövr ərzində (bu dövr kredit müqaviləsinin maksimum müddətindən artıq olsa belə) qiymətləndirilir. Bu, kreditin ödənilməsinin tələb edilməsi və istifadə olunmamış kredit xəttinin ləğv edilməsinə görə kredit zərərinə məruz qalan məbləğin müqavilədə nəzərdə tutulan bildiriş müddəti ilə məhdudlaşmaması ilə əlaqədardır.

Maliyyə aktivlərinin silinməsi. Maliyyə aktivlərini bərpa etmək üçün Bnakın bütün praktiki imkanları tükəndikdə və Bank belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Borcların silinməsi tanınmanın dayandırılması hesab edilir. Bank müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər. Yekun məhkəmə qərarı olan işlər İdarə Heyətinin təqdimatına əsasən Müşahidə Şurasının protokolları əsasında məhkəmə qərarı ilə müəyyən edilmiş məbləğ miqdarında balansdankənar hesaba köçürülür. Rəhbərlik, bərpasına dair əsaslandırılmış gözləntiləri olmayan maliyyə aktivləri üzrə aşağıdakı amilləri nəzərdən keçirmişdir:

- Borcalanın likvidasiyası, iflası və ya ölümü. Kreditin tam və ya qismən qaytarılmasını təmin edəcək zaminlər, girov və ya borcalana/zaminlərə məxsus aktivlər olmadıda, maliyyə aktivləri silinmiş hesab edilir;
- Aşağıdakı hallardan biri baş verdikdə kreditlər zərər kimi təsnifləşdirilir və onlar üçün tənzimləyici orqanın müəyyən etdiyi Kredit Zərərləri Ehtiyatına əsasən tam (100%) ehtiyat yaradılır:
    - Kreditin məbləği 50,000 AZN-dən az olduqda və kredit üzrə zərərin tanındığı andan və ya son 12 ay ərzində:
        - Kredit üzrə ödəniş həyata keçirilmədikdə; və ya
        - Kredit üzrə ödənişlər kredit qalığının 5%-dən az olduqda.
    - Kreditin məbləği 50,000 AZN-dən çox olduqda kredit üçün girov alınmır və kredit üzrə zərərin tanındığı andan və ya son 24 ay ərzində:
        - Kredit üzrə ödəniş həyata keçirilmədikdə;
        - Son 12 ay ərzində kredit üzrə ödənişlər kredit qalığının 5%-dən az olduqda; və ya
        - Kreditin qaytarılması üçün real perspektivlər olmadıqda.

Bu səbəbdən, yuxarıdakı meyarlara cavab verən defolt olmuş kreditlərin ümumi balans dəyəri silinir. Əvvəllər silinmiş məbləğlərin sonrakı dövrdə bərpası mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda kredit zərərləri üzrə xərc sətrində qeydə alınır.

Maliyyə aktivlərinin modifikasiyası. Bank bəzən maliyyə aktivləri üzrə müqavilə şərtlərinə yenidən baxır və ya onları dəyişdirir. Bu zaman Bank aşağıdakı amilləri nəzərə alaraq, müqavilə üzrə pul axınlarının modifikasiyasının əhəmiyyətli olduğunu qiymətləndirir: aktivin risk profilinə əhəmiyyətli dərəcədə təsir göstərən hər hansı yeni müqavilə şərtləri (məsələn, mənfəətdə pay və ya kapital üzrə gəlirlilik), faiz dərəcəsindəki əhəmiyyətli dəyişikliklər, valyutada dəyişikliklər, aktivlə bağlı kredit riskinə əhəmiyyətli dərəcədə təsir göstərən yeni və ya əlavə kredit təminatının yaranması və ya borcalanın maliyyə çətinliyi olduqda kreditin müddətinin əhəmiyyətli dərəcədə artırılması.

Yeni şərtlər əhəmiyyətli dərəcədə fərqləndikdə əvvəlki aktiv üzrə pul axınlarını əldə etmək hüququ başa çatdığına görə Bank əvvəlki maliyyə aktivinin tanınmasını dayandırır və yeni aktivi ədalətli dəyərlə tanıyır. Müqavilə şərtlərinə yenidən baxılması tarixi növbəti dəyərsizləşmənin hesablanması, o cümlədən kredit riskinin əhəmiyyətli dərəcədə artması faktının müəyyən edilməsi üçün ilkin tanınma tarixi hesab edilir. Bundan əlavə, Bank yeni kreditin və ya borc alətinin SPPI meyarına uyğunluğunu qiymətləndirir. Tanınması dayandırılmış ilkin aktivin balans dəyəri ilə əhəmiyyətli dərəcədə modifikasiya edilmiş yeni aktivin ədalətli dəyəri arasındakı hər hansı fərq (fərqin mahiyyəti səhmdarlarla həyata keçirilən kapital əməliyyatına aid edilmədiyi təqdirdə) mənfəət və ya zərərdə tanınır.

3 Mühüm uçot siyasəti prinsipləri (davamı)

Müqavilə şərtlərinə qarşı tərəfin maliyyə çətinlikləri və əvvəlcədən razılaşdırılmış ödənişləri həyata keçirə bilməməsi səbəbindən yenidən baxılarsa, Bank aktiv üzrə risklərin və faydaların müqavilə şərtlərinin dəyişdirilməsi nəticəsində əhəmiyyətli dərəcədə fərqləndiyini müəyyən etmək üçün aktivlər üzrə ilkin və düzəliş edilmiş gözlənilən pul axınlarını müqayisə edir. Risklər və faydalar dəyişmədikdə, modifikasiya edilmiş aktiv ilkin aktivdən əhəmiyyətli dərəcədə fərqlənmir və bu modifikasiya tanınmanın dayandırılmasına gətirib çıxarmır.

Bank modifikasiya edilmiş müqavilə üzrə pul axınlarını ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırmaqla, ümumi balans dəyərini yenidən hesablayır və modifikasiya nəticəsində yaranan gəlir və ya zərəri mənfəət və ya zərərdə tanıyır.

Mümkün olduqda Bank girova yiyələnmək əvəzinə kredit şərtlərini dəyişdirməyə çalışır. Buna müqavilə ilə nəzərdə tutulmuş ödəniş müddətlərinin uzadılması və yeni kredit şərtlərinin razılaşdırılması daxildir.

Müştəriyə verilən kreditin tanınmasının dayandırılması baxımından qiymətləndirmə apararkən Bank digər məsələlərlə yanaşı, aşağıdakı amilləri də nəzərə alır:

- Kreditin valyutasında dəyişiklik;
- Qarşı-tərəfin dəyişməsi;
- Dəyişiklik nəticəsində alət artıq SPPI meyarına uyğun olmadıqda.

COVID-19 pandemiyası ilə əlaqədar olaraq Bank tərəfindən verilmiş kredit tətilləri müvafiq kreditlərin təqdim edilməsi üzrə müqavilələlərin modifikasiyası kimi nəzərə alınır. Onların ümumi balans dəyərinə təsiri (modifikasiya zərəri) mənfəət və ya zərərdə “Amortizasiya olunmuş dəyərlə ölçülən və tanınmanın dayandırılması ilə nəticələnməyən maliyyə aktivlərinin modifikasiyası üzrə zərər çıxılmaqla gəlir” sətrində göstərilir (Qeyd 11).

Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları. Maliyyə öhdəlikləri aşağıdakılar istisna olmaqla, sonradan amortizasiya olunmuş dəyərlə təsnifləşdirilir: (i) FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə öhdəlikləri və; (ii) maliyyə zəmanəti müqavilələri və kreditlərlə bağlı öhdəliklər.

Pul vəsaitləri və onların ekvivalentləri. Pul vəsaitləri və onların ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qısamüddətli qoyuluşlardır. Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, məcburi ehtiyatlar istisna olmaqla, Azərbaycan Respublikası Mərkəzi Bankından alınacaq vəsaitlər, müxbir hesablar üzrə məhdudiyyət qoyulmamış vəsaitlər, eləcə də overnayt depozitlər və ilkin ödəniş müddəti üç aydan az olan depozitlər daxildir. Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudiyyət qoyulmuş vəsaitlər maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərlə qeydə alınır.

Kredit təşkilatlarından alınacaq vəsaitlər. Kredit təşkilatlarından alınacaq vəsaitlər Mərkəzi Bankdakı məcburi ehtiyatlardan və digər banklarda və kredit təşkilatlarında yerləşdirilmiş ilkin ödəmə müddəti üç aydan artıq olan depozitlərdən ibarətdir. Mərkəzi Bankdakı məcburi ehtiyatlar Bankın gündəlik əməliyyatlarının maliyyələşdirilməsi üçün nəzərdə tutulmayan faizsiz məcburi ehtiyat depozitlərini əks etdirir və bu səbəbdən pul vəsaitlərinin hərəkəti haqqında hesabatın tərtib edilməsi məqsədilə pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Kredit təşkilatlarından alınacaq vəsaitlər amortizasiya olunmuş dəyərlə qeydə alınır.

Borc qiymətli kağızlara investisiyalar. Biznes modelə və pul axınlarının xüsusiyyətinə əsasən Bank borc qiymətli kağızları AC və FVOCI kateqoriyaları üzrə təsnifləşdirir. Borc qiymətli kağızları müqavilə üzrə pul axınlarını əldə etmək məqsədilə saxlanıldıqda, həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərini əks etdirdikdə və uçot uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaltmaq üçün FVTPL kateqoriyasında qiymətləndirilmədikdə amortizasiya olunmuş dəyərlə uçota alınır. Borc qiymətli kağızları müqavilə üzrə pul axınlarını əldə etmək və satmaq üçün saxlanıldıqda, həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərini əks etdirdikdə və FVTPL kateqoriyasında qiymətləndirilmədikdə FVOCI kateqoriyasında uçota alınır.

Maliyyə zəmanətləri. Maliyyə zəmanətləri müəyyən debitorun borc aləti üzrə ilkin və ya dəyişdirilmiş şərtlərə əsasən ödənişləri vaxtında həyata keçirə bilmədiy halda zəmanət sahibinə dəymiş zərərin əvəzinin ödənilməsini Bankdan tələb edir. Maliyyə zəmanətləri ilkin olaraq adətən alınacaq komissiya məbləğinə bərabər olan ədalətli dəyərlə tanınır. Bu məbləğ zəmanətin müddəti ərzində düz xətt metodu ilə amortizasiya edilir. Hər bir hesabat dövrünün sonunda zəmanətlər aşağıdakı məbləğlərdən daha yüksək olanı ilə qiymətləndirilir: (i) zəmanət üzrə zərər məbləği üçün gözlənilən zərər modeli ilə müəyyən edilən ehtiyat və (ii) ilkin tanınma zamanı amortizasiya olunmamış məbləğin qalığı. Bundan əlavə, maliyyə vəziyyəti haqqında hesabatda aktiv kimi tanınan alınacaq komissiyalar üçün GKZ üzrə ehtiyat tanınır.

3 Mühüm uçot siyasəti prinsipləri (davamı)

Vergilər. Hazırkı maliyyə hesabatlarında mənfəət vergisi qüvvədə olan və ya hesabat dövrünün sonuna qüvvəyə minmiş qanunvericiliyin tələblərinə uyğun olaraq əks etdirilir. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, il üzrə mənfəət və ya zərərdə tanınır. Lakin həmin və ya başqa dövrdə sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınan əməliyyatlara aid olan vergilər sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınır. Cari il üzrə mənfəət vergisi xərci/gəliri Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq hesablanır.

Cari vergilər cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya vergi orqanları tərəfindən geri qaytarılacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və sair əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə keçmiş illərin vergi zərərləri və maliyyə hesabatlarında aktiv və öhdəliklərin vergi bazası və balans dəyəri arasında yaranan müvəqqəti fərqlər üçün hesablanır.

İlkin tanınma zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (müəssisələrin birləşməsi halları istisna olmaqla). Təxirə salınmış mənfəət vergisi aktiv və öhdəlikləri, hesabat tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri və vergi qanunları əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.

Bankın icarəyə götürən qismində çıxış etdiyi müqavilədə yeni icarənin ilkin tanınması zamanı yaranan müvəqqəti fərqlər ümumi məbləğdə tanınır.

Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri vergi tutulan gələcək gəlirlərin yaranması və bu gəlirlər üzrə çıxılmaların istifadə edilməsi ehtimalını nəzərə alaraq tanınır.

Bundan əlavə, Bankın əməliyyatları ilə bağlı Azərbaycanda müxtəlif əməliyyat vergiləri, məsələn ƏDV, əmlak vergisi, mənbədə tutulan vergi və s. tutulur. Bu vergilər digər əməliyyat xərclərinin tərkibinə daxil edilir.

Əmlak və avadanlıqlar. Əmlak və avadanlıqlar gündəlik xidmət xərcləri istisna olmaqla, yığılmış köhnəlməni və hər hansı tanınmış dəyərsizləşmə zərərini çıxmaqla ilkin dəyərlə tanınır. Tanınma meyarına uyğun gələndə, avadanlıqların bir hissəsinin əvəz edilməsi xərcləri yarandığı zaman həmin dəyərə daxil edilir.

Kiçik həcmli təmir və gündəlik xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Əmlak və avadanlıqların əsas hissələrinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Amortizasiya. Aktiv istifadəyə hazır vəziyyətə gətirildikdə onun üçün amortizasiya hesablanır. Amortizasiya aktivlərin balans dəyərini aşağıda göstərilən ehtimal edilən istifadə müddətləri üzrə bərabər hissələrə bölməklə hesablanır:

	Faydalı istifadə müddəti
Binalar	50 il
Mebel və avadanlıqlar	5-10 il
Kompüter avadanlığı	5 il
Nəqliyyat vasitələri	5 il
İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri	İcarə müddəti və faydalı istifadə müddətindən daha qısa olan müddətdə

Aktivlərin qalıq dəyəri, istifadə müddəti və metodlarına hər maliyyə ilinin sonunda yenidən baxılır və lazım olduqda dəyişdirilir.

Təmir və rekonstruksiya xərcləri çəkildiyi zaman xərcə silinir və kapitallaşdırılmalı olduğu hallar istisna olmaqla, digər əməliyyat xərclərinə daxil edilir.

Mülkiyyətə keçmiş girov. Qeyri-maliyyə aktivlərindən ibarət olan girov müəyyən hallarda kreditlərin geri ödənilməməsinə görə Bankın mülkiyyətinə keçir. Bank mülkiyyətə keçmiş girovu satmaq niyyətindədir və buna görə də onu mal-material ehtiyatı ilə eyni qaydada uçota alır.

Mülkiyyətə keçmiş girov ilkin olaraq ədalətli dəyərlə tanınır və sonradan balans dəyəri ilə mümkün xalis satış dəyəri arasında daha aşağı olan dəyələ ölçülür.

3 Mühüm uçot siyasəti prinsipləri (davamı)

Qeyri-maddi aktivlər. Qeyri-maddi aktivlər kompüter proqramlarından və lisenziyalardan ibarətdir. Ayrıca alınmış qeyri-maddi aktivlər ilk olaraq ilkin dəyərlə ilə tanınır. İlkin tanımadan sonra qeyri-maddi aktivlər yığılmış amortizasiya və yığılmış dəyərdən düşmə zərərlərini çıxmaqla ilkin dəyərlə əks etdirilir. Qeyri-maddi aktivlərin istifadə müddətləri məhdud olaraq müəyyən edilmişdir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlərin böyük hissəsi üçün 5-12 illik faydalı istifadə müddəti ərzində amortizasiya hesablanır və həmin qeyri-maddi aktivlər üzrə mümkün dəyərsizləşmə əlamətləri mövcud olduqda dəyərsizləşmə baxımından təhlil edilir.

Bankın icarəyə götürən qismində çıxış etdiyi icarə müqavilələrinin uçotu. Bank ofis binaları və torpaq sahəsi icarəyə götürür. İcarə müqavilələri Bankın icarəyə götürülmüş aktivi istifadə etdiyi tarixə müvafiq öhdəliklə birlikdə istifadə hüquqlu aktivlər kimi tanınır. İlkin dəyərlə tanınan istifadə hüquqlu aktiv onun faydalı istifadə və ya icarə müddəti ərzində (bu müddətlərdən hansı daha tez başa çatarsa) düz xətt metodu ilə amortizasiya edilir.

İcarə müqaviləsi üzrə yaranan öhdəliklər ilkin olaraq cari dəyərlə qiymətləndirilir. İcarə öhdəliklərinə aşağıdakı icarə ödənişlərinin xalis cari dəyəri daxildir:

- icarə üzrə alınacaq həvəsləndirici ödənişlər çıxılmaqla, sabit ödənişlər (mahiyyətcə sabit ödənişlər daxil olmaqla).
- indeks və ya dərəcələrdən asılı olan dəyişkən icarə ödənişləri;
- zəmanətli son qalıq dəyəri üzrə icarəyə götürən tərəfindən ödənilməsi gözlənilən məbləğlər;
- icarəyə götürənin əsaslandırılmış şəkildə əmin olduğu halda alış seçiminin istifadə ediləcəyi qiymət; və
- icarə müddəti ərzində icarəyə götürən icarəni ləğv etmə seçimini istifadə edərsə, icarənin ləğv edilməsi ilə bağlı cərimə ödənişləri.

İcarə ödənişləri icarə müqaviləsində nəzərdə tutulan faiz dərəcəsi ilə diskontlaşdırılır. Bu faiz dərəcəsinin müəyyən edilməsi mümkün olmadıqda icarəyə götürənin borc kapitalı üzrə artan faiz dərəcəsi istifadə edilir. Borc kapitalı üzrə artan faiz dərəcəsi icarəyə götürənin oxşar iqtisadi mühitdə istifadə hüquqlu aktivin dəyərinə oxşar məbləğdə aktiv əldə etməsi üçün eyni müddət və şərtlərlə zəruri olan vəsaitlərin cəlb edilməsi zamanı ödəməli olduğu faiz dərəcəsidir.

İstifadə hüquqlu aktivlər aşağıdakılar nəzərə alınmaqla, ilkin dəyərlə qiymətləndirilir:

- icarə öhdəliyinin ilkin qiymətləndirmə məbləği;
- icarə üzrə həvəsləndirici ödənişlər çıxılmaqla, icarə müqaviləsinin başlanma tarixindən əvvəl aparılmış bütün icarə ödənişləri;
- bütün ilkin birbaşa xərclər; və
- bərpa xərcləri.

İstisna hal kimi, Bank qısamüddətli icarələri və azdəyərli aktivlərin icarəsinin uçotunu icarə ödənişlərini düz xətt metodu ilə əməliyyat xərcləri kimi tanımaqla aparır.

İcarə müddətini müəyyən edərkən Bankın rəhbərliyi icarənin uzadılması və ya icarənin ləğv edilməsi hüquqlarının istifadəsi üçün iqtisadi stimul yaradan bütün fakt və şərtləri nəzərə alır. İcarənin uzadılması hüquqları (və ya icarənin ləğv edilməsi hüququnun istifadəsi müddətindən sonrakı dövrlərin) yalnız müqavilənin müddətinin uzadılacağına (və ya ləğv edilməyəcəyinə) əsaslı şəkildə əminlik olduqda icarə müddətinə daxil edilir.

Qiymətləndirməyə təsir edən mühüm hadisə baş verdikdə və ya şəraitdə əhəmiyyətli dəyişiklik olduqda və belə hallar icarəyə götürənin nəzarəti altında olduqda qiymətləndirmə yenidən nəzərdən keçirilməlidir.

Bankın icarəyə götürən qismində çıxış etdiyi əməliyyat icarəsi müqavilələrinin uçotu. Aktivlər əməliyyat icarəsinə verildikdə alınacaq icarə ödənişləri icarə müddəti ərzində düz xətt metodundan istifadə etməklə icarə gəliri kimi tanınır.

3 Mühüm uçot siyasəti prinsipləri (davamı)

Maliyyə icarəsi üzrə alınacaq məbləğlər. Bank icarəyə verən qismində çıxış etdikdə və icarə obyektlərinin mülkiyyət hüququ ilə bağlı risk və gəlirləri əsas etibarilə icarəyə götürənə ötürdükdə, icarəyə verilmiş aktivlər maliyyə icarəsi üzrə alınacaq məbləğlər kimi göstərilir və gələcək icarə ödənişlərinin cari dəyəri ilə qeydə alınır. Maliyyə icarəsi üzrə alınacaq məbləğlər ilkin olaraq icarə müqaviləsinin bağlanma tarixində (icarə müqaviləsinin bağlanma tarixi icarə müqaviləsinin bağlanma tarixi və ya icarə münasibətləri üzrə iştirakçılar tərəfindən icarənin əsas şərtlərinin təsdiqlənmə tarixidir, bu tarixlərin hansının daha tez baş verməsindən asılı olaraq) müəyyən edilmiş diskont dərəcəsinə əsasən icarə münasibətlərinin yarandığı tarixdə qeydə alınır.

Maliyyə icarəsi üzrə ümumi debitor borclar ilə cari dəyər arasındakı fərq qazanılmamış maliyyə gəlirini əks etdirir. Bu gəlirlər, icarə müqaviləsində nəzərdə tutlan dərəcəni (i) 1-ci və 2-ci mərhələlərdə icarə üzrə debitor borcların ümumi balans dəyərinə və (ii) 3-cü mərhələdə icarə üzrə debitor borcların xalis balans dəyərinə tətbiq etməklə, icarə müddəti ərzində tanınır. İcarə münasibətlərinin təşkil edilməsi ilə birbaşa əlaqəli olan əlavə xərclər maliyyə icarəsi üzrə alınacaq məbləğlərin ilkin məbləğinə daxil edilir və icarə dövründə qeydə alınmış gəlirlərin həcmini azaldır. İcarədən əldə edilmiş maliyyə gəlirləri mənfəət və ya zərərdə tanınır.

Dəyərsizləşmə üzrə ehtiyat ümumi GKZ modelinə uyğun olaraq tanınır. GKZ amortizasiya olunmuş dəyərlə ölçülən kreditlər və avanslar ilə eyni şəkildə müəyyən edilir və maliyyə icarəsi müqavilələrində göstərilən faiz dərəcələrindən istifadə etməklə debitor borcların xalis balans dəyərinin diskontlaşdırılmış gələcək pul axınlarının cari dəyərinə silinməsi üçün ehtiyat hesabında tanınır. Təxmin edilən gələcək pul axınları icarəyə verilən aktivlərin alışı və satışından yarana biləcək pul axınlarını əks etdirir

Müştərilər və kredit təşkilatları qarşısında öhdəliklər. Buraxılmış maliyyə alətləri və ya onların komponentləri o halda öhdəlik kimi təsnif edilir ki, müqavilə razılaşması Bankın üzərinə aşağıdakı öhdəliklərdən birinin qoyulması ilə nəticələnsin: sahibə pul vəsaitləri və ya öhdəliyi müəyyən məbləğdə pul vəsaitinin və ya digər maliyyə aktivinin müəyyən sayda xüsusi kapital alətlərinə mübadilə etməkdən fərqli olan yolla ödəmək. Belə alətlərə müştəri hesabları, eləcə də fiziki və hüquqi şəxslər, dövlət və kredit təşkilatlarının müddətli depozitləri daxildir. Bu məbləğlər qeyri-törəmə öhdəlikləri əks etdirir və amortizasiya olunmuş dəyərlə qeydə alınır.

Buraxılmış borc qiymətli kağızları. Buraxılmış borc qiymətli kağızlarına Bank tərəfindən emissiya edilmiş istiqrazlar daxildir. Borc qiymətli kağızları amortizasiya olunmuş dəyərlə uçota alınır. Bank özünün emissiya edilmiş borc qiymətli kağızlarını satın alırsa, həmin borc qiymətli kağızları maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasındakı fərq mənfəət və ya zərər hesabatında tanınır.

Borc öhdəlikləri. Borc öhdəlikləri beynəlxalq kreditorlar və dövlət təşkilatları, o cümlədən Azərbaycan Respublikasının Mərkəzi Bankı, Sahibkarlığın İnkişafı Fondu və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyindən cəlb edilmiş borclardan ibarətdir. Bu maliyyə alətləri ilkin olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərlə, sonradan isə effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərlə tanınır.

Subordinasiyalı kreditlər. Subordinasiyalı kreditlər amortizasiya olunmuş dəyərlə qeydə alınır.

Törəmə maliyyə alətləri. Törəmə maliyyə alətləri, o cümlədən xarici valyuta müqavilələri, forvard müqavilələri, eləcə də valyuta və faiz svopları ədalətli dəyərlə uçota alınır.

Bank, həmçinin valyuta mübadiləsi məqsədilə kontragent banklarla kreditlərin qarşılıqlı şəkildə əvəzləşdirilməsinə dair müqavilələr bağlayır. Hüquqi cəhətdən belə kreditlər ayrıca alətlər olsalar da, aşağıdakı hallarda birləşdirilir və vahid törəmə maliyyə aləti (valyuta svopu) kimi xalis şəkildə uçota alınır: (i) belə kreditlər eyni vaxtda və qarşılıqlı şərtlərlə verildikdə və qəbul edildikdə (ii) eyni kontragentlə bağlandıqda (iii) eyni riskə aid olduqda və (iv) bir əməliyyat ilə həyata keçirilməsi mümkün olmayan əməliyyatların ayrıca strukturlaşdırılması üçün aydın biznes məqsədləri olmadıqda.

Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda göstərilən “törəmə maliyyə alətləri üzrə zərər çıxılmaqla gəlirlərə” depozit svopu müqaviləsi üzrə faiz xərcləri daxildir.

Müsbət ədalətli dəyəri olan törəmə alətlər aktivlərin, mənfi ədalətli dəyəri olanlar isə öhdəliklərin tərkibində göstərilir. Törəmə alətlərin ədalətli dəyərindəki dəyişikliklər il üzrə mənfəət və ya zərər hesabatında “törəmə maliyyə alətləri üzrə zərər çıxılmaqla gəlir” kimi əks etdirilir. Ədalətli dəyər bazar kotirovkaları və ya müvafiq alətin cari bazar və müqavilə qiymətlərini, eləcə də digər amilləri nəzərə alan qiymətləndirmə modelləri əsasında müəyyən edilir.

3 Mühüm uçot siyasəti prinsipləri (davamı)

Səhmdar kapitalı. Adi səhmlər kapital kimi təsnifləşdirilir. Müəssisələrin birləşməsi istisna olmaqla, yeni səhmlərin buraxılması ilə birbaşa əlaqəli olan əlavə xərclər kapitalda həmin emissiya nəticəsində əldə edilmiş məbləğin azalması kimi əks etdirilir. Əldə edilmiş vəsaitlərin ədalətli dəyərinin buraxılmış səhmlərin nominal dəyərindən artıq olan hissəsi kapital artımı kimi tanınır.

İmtiyazlı səhmlər. Məcburi kupon dərəcəsi olan və ya müəyyən edilmiş tarixdə və ya səhmdarın seçimindən asılı olaraq ödənilən imtiyazlı səhmlər maliyyə öhdəlikləri kimi təsnifləşdirilir və subordinasiyalı kreditlərin tərkibində göstərilir. Həmin imtiyazlı səhmlər üzrə dividendlər effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyər əsasında faiz xərci kimi uçota alınır.

***Adi səhmlər üzrə dividendlər*.** Adi səhmlər üzrə dividendlər elan olunub təsdiqləndiyi dövrdə kapitalda qeydə alınır. Hesabat dövründən sonra, lakin maliyyə hesabatlarının təsdiqlənməsindən əvvəl elan edilmiş dividendlər haqqında məlumat "hesabat tarixindən sonrakı hadisələr" qeydində açıqlanır. Mənfəətdən dividendlər və digər ödənişlər Bankın yerli qanunvericiliyə uyğun hazırlanmış maliyyə hesabatlarına əsasən həyata keçirilir.

Kapital ehtiyatları. 2022-ci il ərzində subordinasiya borc öhdəlikləri üzrə faizlərin hesablanması kreditorlar tərəfindən təxirə salınmışdır. Kreditorlar Bankın səhmdarı qismində çıxış etdiyinə görə bu qərarın təsiri Bank tərəfindən kapitalda əks etdirilir və sonradan borc alətinin istifadə müddəti ərzində bölüşdürülməmiş mənfəətə yenidən təsnifləşdirilir.

Şərti öhdəliklər. Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onların ödənilməsi üçün ehtiyatların xərclənməsi ehtimalı az olanda, maliyyə hesabatlarında açıqlanır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onlarla bağlı iqtisadi faydaların daxil olması ehtimal ediləndə maliyyə hesabatlarında açıqlanır.

Gəlir və xərclərin tanınması. Gəlirlər Bank tərəfindən iqtisadi səmərənin əldə edilməsi ehtimal edildikdə və xərclər etibarlı şəkildə ölçülə bildikdə tanınır.

Faiz və oxşar gəlir və xərclər. FVTPL kateqoriyasına aid olan maliyyə alətləri istisna olmaqla, bütün borc alətləri üzrə faiz gəlirləri və xərcləri effektiv faiz metoduna əsasən hesablama metodu ilə qeydə alınır. Bu metoda əsasən faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, əməliyyat xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və əməliyyat sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar alınmış və ya ödənilmiş komissiya haqları daxildir. Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Bank tərəfindən alınmış komissiya haqları, Bankın xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Bank kreditlərin verilməsi üzrə öhdəlikləri FVTPL kateqoriyasına aid olunan maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.

Faiz gəlirləri dəyərsizləşmiş maliyyə aktivləri (3-cü Mərhələ) istisna olmaqla, maliyyə aktivlərinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsi tətbiq etməklə hesablanır. Belə aktivlər üzrə faiz gəlirini hesablayarkən dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aktivin amortizasiya olunmuş dəyərinə effektiv faiz dərəcəsi tətbiq edilir.

3-cü Mərhələyə aid edilmiş maliyyə aktivi üzrə kredit riski sonradan aktivin dəyərsizləşmədiyi təqdirdə azalarsa və bu azalma obyektiv olaraq aktivin dəyərsizləşmiş kimi müəyyən edilməsindən sonra baş verən hadisə (yəni, aktivin bərpa edilməsi) ilə əlaqələndirilərsə, həmin aktiv 3-cü Mərhələdən yenidən təsnifləşdirilir (karantin qaydalarına uyğun olaraq) və faiz gəliri ümumi balans dəyərinə effektiv faiz dərəcəsi tərbiq etməklə hesablanır. Aktivin 3-cü Mərhələyə aid edilməsinə görə əvvəllər mənfəət və ya zərərdə tanınmayan, lakin aktivin bərpa edilməsindən sonra əldə edilməsi gözlənilən əlavə faiz gəliri dəyərsizləşmənin azalması kimi tanınır.

Haqq və komissiya gəlirləri*.* Bank haqq və komissiya gəlirlərini müştərilərə göstərdiyi xidmətlərdən əldə edir. Haqlardan əldə edilən gəlir aşağıdakı iki kateqoriyaya bölünə bilər:

3 Mühüm uçot siyasəti prinsipləri (davamı)

- *Müəyyən zaman anında göstərilmiş xidmətlərdən komissiya gəliri*

  Haqq və komissiya gəlirləri müştərinin Bankın göstərdiyi xidmətləri qəbul və istifadə etdiyi müəyyən dövr ərzində düz xətt metodu ilə tanınır. Belə gəlirlərə plastik kart xidmətləri, hesablaşma və nağd pul əməliyyatları üzrə haqq və komissiya gəlirləri daxildir (Qeyd 27). Kredit öhdəliyi üzrə kredit vəsaitlərinin istifadəsi gözlənilmədikdə, kredit öhdəliyi ilə bağlı komisyon haqları öhdəliyin müddəti ərzində düz xətt metodu ilə, əks təqdirdə isə kredit üzrə effektiv faiz dərəcəsinə düzəliş kimi tanınır.

- *Əməliyyat xidmətlərinin göstərilməsindən komissiya gəliri*

  Haqq və komissiya gəlirləri Bank öz icra öhdəliyini yerinə yetirdiyi anda, adətən müvafiq əməliyyatı həyata keçirdikdən sonra tanınır. Alınmış və ya alınacaq haqq və komissiya məbləği fərqli icra öhdəlikləri kimi müəyyən edilmiş xidmətlər üzrə əməliyyat qiymətini əks etdirir. Üçüncü tərəf adından hər hansı əməliyyat və ya danışıqlarda iştirak müvafiq əməliyyat başa çatdıqdan sonra tanınır. Müəyyən gəlirlilik göstəriciləri ilə bağlı olan haqlar və ya haqqın komponentləri müvafiq meyarlar yerinə yetirildikdən sonra tanınır.

Xarici valyutaların alqı-satqısı və konvertasiyası. Bank xarici valyutaların alqı-satqısı və mübadiləsi üzrə əməliyyatları kassa və bank hesabları vasitəsilə həyata keçirir. Əməliyyatlar Bank tərəfindən müəyyən edilən və əməliyyat tarixlərində rəsmi məzənnədən fərqli olan məzənnə ilə aparılır. Rəsmi məzənnə ilə Bankın müəyyən etdiyi məzənnə arasındakı fərqlər müəyyən icra öhdəliyi yerinə yetirildiyi anda xarici valyuta əməliyyatları üzrə zərər çıxılmaqla gəlir kimi tanınır.

Xarici valyutanın çevrilməsi. Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Bankın əməliyyat və təqdimat valyutası olan Azərbaycan manatı ilə ("AZN") təqdim edilir. Xarici valyutada aparılan əməliyyatlar ilk öncə əməliyyat tarixində qüvvədə olan valyuta məzənnəsindən istifadə etməklə funksional valyutada qeydə alınır. Xarici valyuta ilə olan monetar aktivlər və öhdəliklər hesabat tarixinə qüvvədə olan məzənnədən istifadə etməklə funksional valyutaya yenidən çevrilir. Xarici valyutada olan əməliyyatların çevrilməsindən yaranan bütün gəlirlər və zərərlər mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda "xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər çıxılmaqla gəlir" sətrində tanınır. Xarici valyuta ilə olan və maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr ilkin əməliyyatların tarixlərinə mövcud olan məzənnə ilə çevrilir. Xarici valyutada olan və ədalətli dəyərlə ölçülən qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnə ilə çevrilir.

Xarici valyuta ilə aparılan əməliyyatın müqavilə üzrə valyuta məzənnəsi ilə Mərkəzi Bankın əməliyyat tarixində qüvvədə olan məzənnəsi arasındakı fərqlər "xarici valyuta əməliyyatları üzrə zərər çıxılmaqla gəlir" sətrində göstərilir.

31 dekabr tarixinə Bank hazırkı maliyyə hesabatlarının hazırlanması üçün aşağıdakı rəsmi xarici valyuta məzənnələrindən istifadə etmişdir:

	2023	2022
1 ABŞ dolları	AZN 1.7000	AZN 1.7000
1 Avro	AZN 1.8766	AZN 1.8114

İşçi heyəti üzrə xərclər və müvafiq ayırmalar. Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Bankın işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır. Hesablanmış bonuslar idarəedici heyətin uzunmüddətli mükafatlandırma planını ehtiva edir. Bank rəhbər işçilərin fəaliyyət nəticələrinə görə mükafatlandırılması üçün kapital əsaslı illik uzunmüddətli mükafatlandırma siyasəti hazırlamışdır. Bankın yerli qanunvericiliyə uyğun müəyyən edilmiş haqlar üzrə ödənişlərdən başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

Maliyyə vəziyyəti haqqında hesabatdakı maddələrin likvidlik ardıcıllığı ilə təqdim edilməsi. Bankın dəqiq müəyyən edilə bilən əməliyyat dövrü olmadığına görə o, qısamüddətli və uzunmüddətli aktiv və öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatda ayrıca təqdim etmir. Bunun əvəzində, aktivlər və öhdəliklər likvidlik ardıcıllığı ilə təqdim edilir. Maliyyə alətlərinin gözlənilən ödəmə müddətləri üzrə təhlili Qeyd 31-də göstərilir. Aşağıdakı cədvəldə Qeyd 31-də təqdim olunan təhlilə daxil edilməyən maddələr üzrə hesabat dövrü başa çatdıqdan sonra 12 ay ərzində və sonra bərpası və ya ödənilməsi gözlənilən məbləğlər haqqında məlumat əks etdirilir.

3 Mühüm uçot siyasəti prinsipləri (davamı)

	31 dekabr 2023			31 dekabr 2022		
	Ödənilməsi və ya bərpası gözlənilən məbləğlər			Ödənilməsi və ya bərpası gözlənilən məbləğlər		
	Hesabat dövrünün bitməsindən sonra 12 ay ərzində	Hesabat dövrünün bitməsindən 12 ay sonra	Cəmi	Hesabat dövrünün bitməsindən sonra 12 ay ərzində	Hesabat dövrünün bitməsindən 12 ay sonra	Cəmi
AKTİVLƏR						
Əmlak və avadanlıqlar	-	31,565	**31,565**	-	31,413	**31,413**
Qeyri-maddi aktivlər	-	15,733	**15,733**	-	16,072	**16,072**
Təxirə salınmış mənfəət vergisi aktivi	-	3,360	**3,360**	-	10,127	**10,127**
Digər qeyri-maliyyə aktivləri	5,547	-	**5,547**	3,738	-	**3,738**
Mülkiyyətə keçmiş girov	9,589	-	**9,589**	16,915		**16,915**
İstifadə hüquqlu aktivlər	-	3,528	**3,528**	-	3,368	**3,368**
ÖHDƏLİKLƏR						
Digər qeyri-maliyyə öhdəlikləri	6,794	-	**6,794**	7,527	-	**7,527**

Borcların yığılması xərcəri. Bu xərclər, bəzi kiçik və orta sahibkarlarla bağlı məhkəmə qərarlarının icrasında borcların yığılmasına dəstək müqabilində kollektor agentliyinə ödənişləri və borcların yığılması üzrə daxili xərcləri əks etdirir.

4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Bank maliyyə hesabatlarında uçota alınan məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar ehtimallar və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

GKZ-nin qiymətləndirilməsi. GKZ-nin qiymətləndirilməsi müvafiq metodologiya, modellər və ilkin məlumatlardan istifadə etməklə aparılan əhəmiyyətli hesablamadır. GKZ-nin qiymətləndirilməsi metodologiyasına dair ətraflı məlumat Qeyd 31-də təqdim edilir. Aşağıdakı komponentlər kredit zərərləri üzrə ehtiyata əhəmiyyətli dərəcədə təsir göstərir: defoltun tərifi, kredit riskinin əhəmiyyətli dərəcədə artması (SICR) və onun qiymətləndirilməsi meyarı, defolt ehtimalı (PD), defolta məruz qalan dəyər (EAD), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (LGD), eləcə də makroiqtisadi ssenarilər, GKZ-nin qiymətləndirilməsi məqsədilə maliyyə aktivlərinin seqmentasiyası, GKZ məbləğinin fərdi və ya kollektiv şəkildə qiymətləndirilməsi səviyyəsinin müəyyən edilməsi. Bank, GKZ üzrə ehtimallar və faktiki kredit zərərləri arasındakı fərqlərin azaldılması məqsədilə modelləri və modellər üzrə məlumatları müntəzəm olaraq təhlil edir və təsdiqləyir.

GKZ-nin qiymətləndirilməsi məqsədilə Bank proqnozlaşdırılmış məlumatlardan, əsasən də özünün proqnoz makroiqtisadi modelinin nəticələrindən istifadə etmişdir. 31 dekabr 2023-cü il tarixinə GKZ səviyyəsinə uyğun olan ən əhəmiyyətli proqnoz fərziyyələri və onların çəki əmsalları aşağıda göstərilir:

4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)

Dəyişənlər	Ssenarilər	Çəki əmsalları	2024	2025	2026
Qeyri-neft sektoru üzrə ÜDM-nin artım tempi	Baza	50%	3.6%	3.5%	3.5%
	Artım	25%	4.8%	5%	5.1%
	Azalma	25%	0%	0%	0%
Neftin qiyməti (Brent) ABŞ dolları ilə	Baza	50%	70-85	60-80	75-110
	Artım	25%	95-105	110-130	120-140
	Azalma	25%	65-75	45-55	30-40
İstehlak Qiymətləri İndeksi	Baza	50%	4.7%	5%	4.5%
	Artım	25%	4.5%	3.7%	3.6%
	Azalma	25%	5.5%	5.6%	5.6%

31 dekabr 2022-ci il tarixinə fərziyyələr və çəki əmsalları aşağıdakı kimi olmuşdur:

Dəyişənlər	Ssenarilər	Çəki əmsalları	2023	2024	2025
Qeyri-neft sektoru üzrə ÜDM-nin artım tempi	Baza	50%	4.5%	4.8%	5.0%
	Artım	25%	5-10%	5-10%	5-10%
	Azalma	25%	0-1%	0-1%%	0-1%
Neftin qiyməti (Brent) ABŞ dolları ilə	Baza	50%	90-95	85-90	85-90
	Artım	25%	105-110	105-110	105-110
	Azalma	25%	65-70	55-65	55-65
ÜDM-nin artım tempi	Baza	50%	2.7%	4.1%	3.7%
	Artım	25%	6.0%	7.0%	8.0%
	Azalma	25%	0.0%	0.0%	0.0%

Azalma ssenarisindəki çəki əmsalının 10% artması, eləcə də baza və artım ssenariləri üzrə çəki əmsalının müvafiq olaraq 5% azalması 31 dekabr 2023-cü il tarixinə kollektiv şəkildə qiymətləndirilən kreditlər üzrə GKZ-nin 863 min AZN (31 dekabr 2022: 542 min AZN) çox olmasına gətirib çıxarardı.

LGD təxminlərinin 10% artması və ya azalması 31 dekabr 2023-cü il tarixinə GKZ üzrə ümumi ehtiyatın 2,752 min AZN çox və ya az olmasına (31 dekabr 2022: 3,251 min AZN çox və ya az olmasına) gətirib çıxarardı.

Mikro kredilər seqmenti üzrə LGD təxminlərinin 10% artması və ya azalması 31 dekabr 2023-cü il tarixinə GKZ üzrə ümumi ehtiyatın 1,570 min AZN çox və ya az olmasına (31 dekabr 2022: 1,758 min AZN çox və ya az olmasına) gətirib çıxarardı.

Kiçik və orta sahibkarlara verilmiş kredilər seqmenti üzrə LGD təxminlərinin 10% artması və ya azalması 31 dekabr 2023-cü il tarixinə GKZ üzrə ümumi ehtiyatın 641 min AZN çox və ya az olmasına (31 dekabr 2022: 1,045 min AZN çox və ya az olmasına) gətirib çıxarardı.

İstehlak və işçilərə verilmiş kredilər seqmenti üzrə LGD təxminlərinin 10% artması və ya azalması 31 dekabr 2023-cü il tarixinə GKZ üzrə ümumi ehtiyatın 541 min AZN çox və ya az olmasına (31 dekabr 2022: 448 min AZN çox və ya az olmasına) gətirib çıxarardı.

Kredit riskinin əhəmiyyətli dərəcədə artması. Kredit riskinin əhəmiyyətli dərəcədə artması ilə bağlı qiymətləndirmə aparmaq üçün Bank hesabat və ilkin tanınma tarixlərinə maliyyə aktivi üzrə hesablanmış müvafiq defolt risklərini müqayisə edir. Qiymətləndirmə zamanı hesabat tarixinə kredit riskinin müəyyən səviyyəsi deyil, kredit riskinin nisbətən artması nəzərdən keçirilir (ətraflı məlumat üçün Qeyd 31-ə baxın). Bank əldə olunması əlavə xərc tələb etməyən dəstəkləyici və əsaslandırılmış proqnozlaşdırılan məlumatları, o cümlədən müəyyən müştəri portfellərinin davranış aspektləri daxil olmaqla, bir sıra amilləri nəzərə alır. Bank defolt anına qədər kredit riskinin artması ilə bağlı davranış əlamətlərini müəyyən müəyyən edir və müvafiq proqnozlaşdırılan məlumatlarını fərdi maliyyə aləti və ya portfel səviyyəsində kredit riskinin qiymətləndirilməsində istifadə edir (Qeyd 31).

Müştərilərə verilmiş kreditlər üzrə GKZ bütöv müddət üçün GKZ kimi qiymətləndirilsəydi (hazırda 1-ci Mərhələyə aid olan və 12 aylıq GKZ modeli ilə qiymətləndirilən zərərlər daxil olmaqla), 31 dekabr 2023-cü il tarixinə GKZ üzrə ehtiyat 4,756 min AZN artardı (31 dekabr 2022: 4,249 min AZN artardı).

4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)

Təminatın dəyərinin müəyyən edilməsi. Rəhbərlik təminatın bazar dəyərini müntəzəm olaraq nəzərdən keçirir. Rəhbərlik təminatın ədalətli dəyərini cari vəziyyətə uyğunlaşdırmaq üçün öz mülahizəsindən və ya müstəqil rəydən istifadə edir. Tələb edilən təminat məbləği və ya girov kontragentin kredit riskinin qiymətləndirməsindən asılıdır (Qeyd 11).

Əlaqəli tərəflərlə əməliyyatların ilkin tanınması. Bank adi fəaliyyəti zamanı əlaqəli tərəflərlə əməliyyatlar aparır. BMHS 9-a uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınmalıdır. Lakin həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir. Əlaqəli tərəflərlə əməliyyatların şərtləri haqqında məlumat Qeyd 33-də açıqlanır.

İcarə müddətinin müəyyən edilməsi. Bank üçüncü tərəflərdən ofis binaları və torpaq sahəsi icarəyə götürür. İcarə müqavilələri müddətsiz bağlanır və müqaviləyə xitam verilməsi ilə bağlı bir tərəfin digərinə 2 ay əvvəl bildiriş göndərməyəcəyi halda avtomatik olaraq yenilənir. Bank belə müqavilələr üzrə ləğv etmə seçimi olmayan icarə müddətini müəyyən edərkən müqavilələrə xitam veriləcəyi halda tətbiq ediləcək cərimələri, o cümlədən icarəyə götürülmüş əmlakın əsaslı təmiri, yerdəyişmə xərcləri və ya binaların Bankın fəaliyyəti üçün əhəmiyyəti kimi iqtisadi antistimulları nəzərə alır. Beləliklə, dəyəri əhəmiyyətli olan ofis binalarının icarə müddəti 3-5 il, torpaq sahəsinin icarə müddəti isə 40 il müəyyən edilmişdir (Qeyd 15).

5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Aşağıdakı yenidən işlənmiş standartlar 1 yanvar 2023-cü il tarixindən qüvvəyə minmişdir:

BMHS 17 "Sığorta müqavilələri" (18 may 2017-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).

BMHS 17 və BMHS 4-ə dəyişikliklər (25 iyun 2020-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir). Dəyişikliklər BMHS 17-nin tətbiqini asanlaşdırmaq, həmçinin standart və ona keçidlə bağlı müəyyən tələbləri sadələşdirmək üçün bəzi izahlardan ibarətdir. Bu dəyişikliklər BMHS 17-nin səkkiz sahəsini əhatə edir və standartın əsas prinsiplərinin dəyişdirilməsini nəzərdə tutmur. BMHS 17-də aşağıdakı sahələrə dəyişikliklər edilmişdir:

- *Qüvvəyə minmə tarixi*.
- *Sığorta müqaviləsinin əldə edilməsi zamanı pul axınlarının gözlənilən bərpası*.
- *İnvestisiya xidmətləri ilə əlaqəli müqavilə üzrə xidmət marjası*.
- *Saxlanılan təkrarsığortaya müqavilələri - zərərlərin ödənilməsi*.
- *Digər dəyişikliklər:* Digər dəyişikliklərə aşağıdakılar daxildir: bəzi kredit kartı (və ya oxşar) müqavilələri və bəzi kredit müqavilələrində tətbiq sahəsi ilə bağlı istisnalar; sığorta müqavilələri üzrə aktiv və öhdəliklərin maliyyə vəziyyəti hesabatında qruplar əvəzinə portfellər üzrə təqdim edilməsi; saxlanılan təkrarsığorta müqavilələrindən və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərə aid olunan qeyri-törəmə maliyyə alətlərindən istifadə edərək maliyyə risklərini azaltmaq üçün risklərin azaldılması imkanının tətbiqi; BMHS 17-ni tətbiq edərkən əvvəlki aralıq maliyyə hesabatlarındakı uçot təxminlərinə dəyişikliklər etmək üçün uçot siyasəti seçimi; sığorta müqaviləsinin şərtlərinə əsasən müəyyən sığortalıya aid edilən mənfəət vergisi ödənişlərinin və daxilolmaların müqavilələrin icrası üzrə pul axınlarına daxil edilməsi; keçid dövründə tələblərdən seçim əsasında azadolmalar və digər kiçik dəyişikliklər.

BMHS 17-yə dəyişikliklər – BMHS 17-nin tətbiqi zamanı sığortaçılar üçün keçid imkanı (9 dekabr 2021-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Dəyişiklik yalnız sığortaçıların BMHS 17-yə keçidinə aiddir və BMHS-in hər hansı digər tələblərinə təsir göstərmir. BMHS 17 və BMHS 9-da keçid tələbləri müxtəlif tarixlərdə tətbiq ediləcək və BMHS 17-nin ilkin tətbiqi zamanı təqdim olunan müqayisəli məlumatların təsnifatında aşağıdakı birdəfəlik fərqlərlə nəticələnəcək.

5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

BMS 1 və BMHS-in tətbiqi üzrə 2 nömrəli praktiki tövsiyələrə dəyişikliklər: Uçot siyasəti haqqında açıqlamalar (12 fevral 2021-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). BMS 1-ə dəyişikliklər müəssisələrdən əhəmiyyətli uçot siyasəti deyil, mühüm uçot siyasəti məlumatlarının açıqlanmasını tələb edir. Bu dəyişikliyi dəstəkləmək məqsədilə, uçot siyasətindəki açıqlamalara əhəmiyyətlilik konsepsiyasının tətbiqi ilə bağlı təlimat əlavə etmək üçün BMHS-in tətbiqi üzrə 2 nömrəli tövsiyələrə ("Əhəmiyyətliliklə bağlı mülahizələrin yürüdülməsi") dəyişiklik edilmişdir. Bu dəyişikliklər mühüm hesab edilməyən uçot siyasətini maliyyə hesabatlarında əks etdirməməklə, onların təqdimatında dəyişikliklərə gətirib çıxarmışdır.

BMS 8-ə dəyişikliklər: Uçot təxminlərinin müəyyən edilməsi (12 fevral 2021-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). BMS 8-ə edilmiş dəyişiklik müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu izah edir. Hazırda Bank bu dəyişikliklərin onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

BMS 12-yə dəyişiklik - Vahid əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər (7 may 2021-ci ildə dərc edilib və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). BMS 12-yə dəyişikliklər icarə və istismardan çıxarma öhdəlikləri kimi əməliyyatlar üzrə təxirə salınmış vergilərin uçota alınması qaydasını izah edir. Müəyyən hallarda müəssisələr aktiv və ya öhdəliklərin ilk dəfə uçota alınması zamanı təxirə salınmış verginin tanınması öhdəliyindən azad edilir. Bu dəyişikliklər müəssisələrdən ilkin tanınma zamanı vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlar üzrə təxirə salınmış vergini tanımağı tələb edir.

BMS 12-yə "Mənfəət vergisi" dəyişikliklər: Beynəlxalq vergi islahatı – Pillar II model qaydaları (23 may 2023-cü ildə dərc olunub). Bu dəyişikliklər İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) beynəlxalq vergi islahatları çərçivəsində dərc etdiyi Pillar II model qaydalarını tətbiq edən qüvvədə olan və ya mahiyyətcə qüvvəyə minmiş vergi qanunvericiliyindən irəli gələn təxirə salınmış vergilərin tanınması və açıqlanması tələbi üzrə müvəqqəti istisnanı nəzərdə tutur. Müəssisələr bu istisnanı dərhal tətbiq edə bilər, lakin məlumatların açıqlanması tələbləri 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün tələb olunur.

Bu dəyişikliklərin tətbiqi Bankın maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməmişdir.

6 Yeni uçot qaydaları

1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburi xarakter daşıyan və Bank tərəfindən vaxtından əvvəl tətbiq edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur.

BMHS 16-ya ("İcarələr") dəyişikliklər - Satış və geriyə icarə öhdəliyi (22 sentyabr 2022-ci ildə dərc olunub və 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Dəyişikliklər BMHS 15-in tələblərinə uyğun olaraq satış kimi uçota alınmalı olan satış və geriyə icarə əməliyyatlarına aiddir.

BMS 1-ə dəyişikliklər – Öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirilməsi (ilkin olaraq 23 yanvar 2020-ci ildə dərc olunub və sonradan 15 iyul 2020-ci il və 31 oktyabr 2022-ci il tarixlərində dəyişikliklər edilmiş, yekun olaraq 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklər hesabat dövrünün sonunda mövcud olan hüquqlardan asılı olaraq, öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirildiyini izah edir. Əgər müəssisə hesabat dövrünün sonunda öhdəliklərin icrasını ən azı on iki ay müddətinə təxirə salmaq üçün əsaslı hüquqa malikdirsə, o zaman öhdəliklər uzunmüddətli kimi təsnifləşdirilir. Yeni dəyişikliklər belə hüququn qeyri-şərtsiz olmasını artıq tələb etmir. 'Ödəmə' dedikdə öhdəliyin nağd pul, özündə iqtisadi səmərəni təcəssüm etdirən digər resurslar və ya müəssisənin öz pay alətləri ilə ödənilməsi nəzərdə tutulur. Bu dəyişikliklər kapitala konvertasiya oluna bilən alətlər üçün istisnanı nəzərdə tutur, lakin bu istisna yalnız kombinə edilmiş maliyyə alətinin ayrıca komponenti şəklində pay aləti kimi təsnifləşdirilən konvertasiya seçiminin nəzərdə tutulduğu maliyyə alətlərinə aiddir.

6 Yeni uçot qaydaları (davamı)

BMS 7 "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" və BMHS 7-yə "Maliyyə alətləri: Açıqlamalar: Təchizatçıların maliyyələşdirmə razılaşmaları" dəyişikliklər (25 may 2023-cü ildə dərc olunub). BMS 7 və BMHS 7-yə dəyişikliklər müəssisələrdən təchizatçıların maliyyələşdirmə razılaşmaları (SFA) haqqında məlumatların açıqlanmasını tələb edir. Bu dəyişikliklər maliyyə hesabatlarının istifadəçilərinə həmin razılaşmaların müəssisənin öhdəliklərinə və pul axınlarına, eləcə də likvidlik riskinə məruz qalmasının təsirini qiymətləndirməyə imkan verəcək təchizatçının maliyyələşdirilməsi razılaşmaları haqqında məlumatın açıqlanmasını tələb edir. Yeni açıqlama tələbləri 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minəcək.

BMS 21-ə "Konvertasiya qabiliyyətinin olmaması" dəyişikliklər (15 avqust 2023-cü ildə dərc olunub). Bu dəyişikliklər qiymətləndirmə tarixində müəyyən məqsəd üçün başqa valyutaya konvertasiya edilə bilməyən xarici valyutada əməliyyat həyata keçirən müəssisələrə təsir edir.

BMHS 18 "Maliyyə hesabatlarında məlumatların təqdimatı və açıqlanması (9 aprel 2024-cü ildə dərc olunub və 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). 2024-cü ilin aprel ayında BMUSŞ maliyyə hesabatlarında məlumatların təqdimatı və açıqlanması, xüsusilə mənfəət və ya zərər hesabatında dəyişikliklərə yönəlmiş yeni standard olan BMHS 18-i dərc etmişdir. BMHS 18 aşağıdakılarla bağlı əsas yeni anlayışlar təqdim edir:

- mənfəət və ya zərər haqqında hesabatın strukturu;
- maliyyə hesabatlarından kənarda təqdim olunan müəyyən mənfəət və ya zərər göstəriciləri (yəni, rəhbərlik tərəfindən müəyyən edilmiş fəaliyyət göstəriciləri) üçün tələb olunan açıqlamalar; və
- ümumilikdə ilkin maliyyə hesabatlarına və qeydlərə tətbiq edilən aqreqasiya və disaqreqasiya üzrə təkmilləşdirmə prinsipləri.

BMHS 18 məhdud dəyişikliklərlə bir çox mövcud prinsipləri saxlayaraq, BMS 1-i əvəz edəcək. Bu standart maliyyə hesabatlarında maddələrin tanınmasına və ya ölçülməsinə təsir etməyəcək, lakin müəssisələrin hesabatda göstərdiyi "əməliyyat mənfəəti və ya zərəri" maddəsini dəyişdirə bilər. Yeni standart 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün qüvvəyə minir və müqayisəli dövrün məlumatlarına da tətbiq ediləcək. Bank bu dəyişikliyin yeni dərc olunduğunu nəzərə alaraq, onun maliyyə hesabatlarına təsirinin qiymətləndirilməsinin hələ erkən olduğunu hesab edir və müvafiq qiymətləndirməni daha sonra həyata keçirəcək.

Yuxarıda başqa cür nəzərdə tutulmadığı hallarda, yeni standartlar və şərhlərin Bankın maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

7 Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

	2023	2022
Kassa	44,684	43,622
AMB-dəki cari hesablar	5,908	38,563
Digər banklardakı cari hesablar	17,760	11,764
Kredit təşkilatlarında müddəti 90 günədək olan müddətli depozitlər	96,174	25,009
Pul vəsaitləri və onların ekvivalentləri	**164,526**	**118,958**

31 dekabr 2023-cü il tarixinə digər banklardakı cari hesablar rezident və qeyri-rezident banklarda müvafiq olaraq yerləşdirilmiş 1,904 min AZN (2022: 359 min AZN) və 15,856 min AZN (2022: 11,405 min AZN) məbləğində müxbir hesablar üzrə qalıqlardan ibarətdir.

31 dekabr 2022-ci il tarixinə kredit təşkilatlarında müddəti 90 günədək olan müddətli depozitlərə AMB-də yerləşdirilmiş 9,014 min AZN (2022: 25,009 min AZN), yerli bankda 2024-cü ilin yanvar ayınadək 7% dərəcəsi ilə yerləşdirilmiş 28,000 AZN və xarici bankda 2024-cü ilin yanvar ayınadək 3% dərəcəsi ilə yerləşdirilmiş 34,800 min ABŞ dolları (59,160 min AZN) məbləğində qısamüddətli depozitlər daxildir (2022: yerli və xarici banklarda müddəti 90 günədək olan müddətli depozitlər yerləşdirilməmişdir).

7 Pul vəsaitləri və onların ekvivalentləri (davamı)

31 dekabr 2023-cü il tarixinə ödəmə qabiliyyəti dərəcələri əsasında pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

	Məcburi ehtiyatlar çıxılmaqla, AMB-dəki qalıqlar	Müxbir hesablar və overnayt depozitlər	Kredit təşkilatlarında müddəti 90 günədək olan müddətli depozitlər	Cəmi
- Ən yüksək dərəcə	-	13,954	59,160	73,114
- Yüksək dərəcə	5,908	3,456	37,014	46,378
- Orta dərəcə	-	350	-	350
Cəmi pul vəsaitləri və onların ekvivalentləri, kassa istisna olmaqla	**5,908**	**17,760**	**96,174**	**119,842**

31 dekabr 2022-ci il tarixinə ödəmə qabiliyyəti dərəcələri əsasında pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

	Məcburi ehtiyatlar çıxılmaqla, AMB-dəki qalıqlar	Müxbir hesablar və overnayt depozitlər	Kredit təşkilatlarında müddəti 90 günədək olan müddətli depozitlər	Cəmi
- Ən yüksək dərəcə	-	10,845	-	10,845
- Yüksək dərəcə	38,563	884	25,009	64,456
- Orta dərəcə	-	35	-	35
Cəmi pul vəsaitləri və onların ekvivalentləri, kassa istisna olmaqla	**38,563**	**11,764**	**25,009**	**75,336**

GKZ-nin qiymətləndirilməsi məqsədilə pul vəsaitləri və onların ekvivalentləri üzrə qalıqlar 1-ci Mərhələyə aid edilmişdir. Bu qalıqlar üzrə GKZ məbləği əhəmiyyətli olmadığına görə Bank pul vəsaitləri və onların ekvivalentləri üzrə kredit zərərləri üçün ehtiyat yaratmamışdır. GKZ-nin qiymətləndirilməsi yanaşması Qeyd 31-də göstərilir.

Pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsini tələb etməyən və pul vəsaitlərinin hərəkəti haqqında hesabata daxil edilməyən maliyyələşdirmə əməliyyatları haqqında məlumat aşağıdakı cədvəldə təqdim edilir:

	2023	2022
Maliyyələşdirmə fəaliyyəti üzrə qeyri-nağd əməliyyatlar		
Digər borc öhdəlikləri müqabilində buraxılmış imtiyazlı səhmlər	-	11,782
Səhmdarlar tərəfindən subordinasiyalı kreditlər üzrə faizlərin dayandırılması və əsas borc öhdəliyinin imtiyazlı səhmlərə çevrilməsi nəticəsində kapital qoyuluşları (kapital ehtiyatları)	-	4,769
Maliyyələşdirmə fəaliyyəti üzrə qeyri-nağd əməliyyatlar	**-**	**16,551**

Qeyri-nağd əməliyyatlar haqqında ətraflı məlumat 21, 22 və 25-ci Qeydlərdə təqdim olunur.

8 Kredit təşkilatlarından alınacaq məbləğlər

Kredit təşkilatlarından alınacaq məbləğlər aşağıdakılardan ibarətdir:

	2023	2022
AMB-dəki məcburi ehtiyatlar	49,221	32,628
Müddəti 90 gündən artıq olan əks repo razılaşmaları	13,000	-
Kredit təşkilatlarında bloklaşdırılmış cari hesablar	3,670	586
Qısamüddətli kreditlər	20	46
Kredit təşkilatlarından alınacaq məbləğlər	**65,911**	**33,260**

Bank AMB-də müştərilərdən müvafiq olaraq milli və xarici valyutada cəlb edilmiş depozitlərin əvvəlki ay üzrə orta qalığının 5% və 6% (2022: 4% və 5%) səviyyəsində faiz hesablanmayan pul depoziti (məcburi ehtiyatlar) saxlamalıdır.

31 dekabr 2023-cü il tarixinə kredit təşkilatlarında bloklaşdırılmış cari hesablar törəmə maliyyə alətləri üzrə girov kimi qoyulmuş depozitləri əks etdirir.

Aşağıdakı cədvəllərdə 31 dekabr 2023 və 31 dekabr 2022-ci il tarixlərinə ödəmə qabiliyyəti dərəcələri əsasında kredit təşkilatlarından alınacaq vəsaitlərin kredit keyfiyyətinə görə təhlili göstərilir. Bank tərəfindən istifadə edilən kredit riskinin təsnifatı sistemi və GKZ-nin qiymətləndirilməsi yanaşması, o cümlədən digər banklardan alınacaq vəsaitlərə tətbiq edilən defolt və kredit riskinin əhəmiyyətli dərəcədə artması (SICR) anlayışları haqqında məlumat Qeyd 30-da açıqlanır. 31 dekabr 2023-cü il tarixinə kredit təşkilatlarından alınacaq vəsaitlərin balans dəyəri, həmçinin bu aktivlər üzrə Bankın məruz qaldığı kredit riskinin maksimal səviyyəsini əks etdirir:

	1-ci Mərhələ (12 aylıq GKZ)	Cəmi
Digər banklardakı depozitlər		
- Ən yüksək dərəcə	3,670	3,670
- Yüksək dərəcə	49,241	49,241
Balans dəyəri	**52,911**	**52,911**

	1-ci Mərhələ (12 aylıq GKZ)	Cəmi
Əks repo razılaşmaları		
- Yüksək dərəcə	13,000	13,000
Balans dəyəri	**13,000**	**13,000**

31 dekabr 2022-ci il tarixinə kredit təşkilatlarından alınacaq vəsaitlərin balans dəyəri, həmçinin bu aktivlər üzrə Bankın məruz qaldığı kredit riskinin maksimal səviyyəsini əks etdirir:

	1-ci Mərhələ (12 aylıq GKZ)	Cəmi
Digər banklardakı depozitlər		
- Ən yüksək dərəcə	586	586
- Yüksək dərəcə	32,674	32,674
Balans dəyəri	**33,260**	**33,260**

9 Törəmə maliyyə aktivləri və öhdəlikləri

Bank hedcinq məqsədləri (valyuta riskinin hedcinqi) üçün törəmə maliyyə alətlərindən istifadə edir, lakin hedcinq uçotu aparmır. Aşağıdakı cədvəl aktivlər və ya öhdəliklər kimi qeydə alınmış törəmə maliyyə alətlərinin ədalətli dəyərlərini şərti məbləğləri ilə birlikdə göstərir. Şərti məbləğ ümumi göstərilməklə törəmə alətin aid olduğu müvafiq aktivin məbləği, istinad dərəcəsi və ya göstəricisidir və törəmələ alətlərinin dəyərində dəyişiklikləri ölçmək üçün əsas kimi çıxış edir. Şərti məbləğlər ilin sonuna başa çatmamış əməliyyatların həcmini göstərir və kredit riskini əks etdirmir.

	2023			2022		
	Şərti məbləğ	*Ədalətli dəyər*		*Şərti məbləğ*	*Ədalətli dəyər*	
		Aktiv	*Öhdəlik*		*Aktiv*	*Öhdəlik*
Xarici valyuta üzrə müqavilələr						
Forvardlar və svoplar – xarici kontragent	46,232	-	(1,080)	-	-	-
Forvardlar və svoplar – yerli kontragent	-	-	-	51,234	-	(3,804)
Cəmi törəmə öhdəliklər	**46,232**	**-**	**(1,080)**	**51,234**	**-**	**(3,804)**

31 dekabr 2023 və 2022-ci il tarixlərinə mülkiyyətə keçmiş girov müvafiq olaraq 9,589 min AZN və 16,915 min AZN məbləğində Bankın mülkiyyətinə keçmiş və satış üçün nəzərdə tutulan daşınmaz əmlakdan (mənzillər, torpaq və qeyri-yaşayış sahəsi) ibarət olmuşdur.

17 Vergilər

(a) Mənfəət vergisi xərcinin komponentləri

Mənfəət vergisi xərci aşağıdakılardan ibarətdir:

	2023	2022
Cari vergilər	-	-
Təxirə salınmış vergilər	(6,767)	(3,837)
İl üzrə mənfəət vergisi xərci	**(6,767)**	**(3,837)**

(b) Mənfəət vergisi xərci ilə mənfəət və ya zərərin qanunvericiliklə müəyyən edilmiş müvafiq vergi dərəcəsinə olan hasilinin üzləşməsi

2023-cü il ərzində Banka tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% (2022: 20%) təşkil etmişdir. Gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin üzləşməsi aşağıda göstərilir:

	2023	2022
Vergidən əvvəlki mənfəət	**49,784**	**24,332**
Qanunvericiliklə müəyyən edilmiş dərəcə ilə hesablanmalı olan mənfəət vergisi xərci (2023: 20%; 2022: 20%)	(9,957)	(4,867)
Vergi məqsədləri üçün çıxılmayan xərclərin vergi effekti:		
- Gəlirdən çıxılmayan xərclər	(261)	(612)
- Əvvəlki illərin tanınmamış vergi zərərlərinin istifadəsi	3,451	2,687
- Vergi qaydasının qəbul edilməsi nəticəsində ehtiyatların vergitutma məqsədləri üçün gəlirdən çıxılmasına təsiri	-	(1,045)
İl üzrə mənfəət vergisi xərci	**(6,767)**	**(3,837)**

(c) Keçmiş illərin vergi zərəri

Beş ilədək davam edən gələcək dövrə ötürülə bilən keçmiş illərin vergi zərəri ilə bağlı Bank təxirə salınmış vergi aktivləri tanımışdır. 31 dekabr 2023 və 31 dekabr 2022-ci il tarixlərinə keçmiş illərin vergi zərərinin hərəkəti aşağıdakı kimi olmuşdur:

17 Vergilər (davamı)

31 dekabr 2023

İllər	2019	Cəmi
2024	14,905	14,905
Mənfəət hesabına kompensasiya edilə bilən	**14,905**	**14,905**
Gəlcək dövrlərə keçirilmiş vergi zərərləri	**14,905**	**14,905**

31 dekabr 2022

İllər	2018	2019	Cəmi
2023	23,610	-	23,610
2024	-	30,115	30,115
Mənfəət hesabına kompensasiya edilə bilən	**23,610**	**30,115**	**53,725**
Gəlcək dövrlərə keçirilmiş vergi zərərləri	**40,865**	**30,115**	**70,980**
Mənfəət hesabına kompensasiya edilə bilməyən / istifadə müddəti başa çatmış	**(17,255)**	**-**	**(17,255)**

(d) Müvəqqəti fərqlərin növləri üzrə təxirə salınmış vergilərin təhlili

BMHS Mühasibat Uçotu Standartları və Azərbaycanın yerli vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə aktiv və öhdəliklərin balans dəyəri arasında müvəqqəti fərqlər əmələ gəlir. Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

	31 dekabr 2021	Mənfəət və ya zərərdə gəlir/(xərc) kimi tanınmışdır	31 dekabr 2022	Mənfəət və ya zərərdə gəlir/(xərc) kimi tanınmışdır	31 dekabr 2023
Müştərilərə verilmiş kreditlər üzrə zərər üçün ehtiyat	1,763	(137)	1,626	(1,137)	489
Pul vəsaitləri və onların ekvivalentləri	(325)	306	(19)	19	-
Qiymətli kağızların FVOCI kateqoriyasında ədalətli dəyərlə yenidən qiymətləndirilməsi	(7)	53	46	(41)	5
Köhnəlmə xərci və kapitallaşdırma meyarı	-	(758)	(758)	404	(354)
Amortizasiya xərci və kapitallaşdırma meyarı	-	(996)	(996)	1,116	120
İstifadə hüquqlu aktivlər	(810)	136	(674)	(32)	(706)
İcarə öhdəliyi	803	(150)	653	79	732
Digər borc öhdəlikləri	(81)	2	(79)	374	295
Subordinasiya borc öhdəliyi	82	-	82	106	188
İşçi heyəti üzrə xərclər və digər öhdəliklər	268	(425)	(157)	595	438
Törəmə maliyyə öhdəlikləri	310	(136)	174	(810)	(636)
Gələcək vergi tutulan gəlirlə əvəzləşdirmək üçün mövcud olan zərərlər	11,350	(605)	10,745	(7,764)	2,981
Digər	611	(1,127)	(516)	324	(192)
Təxirə salınmış vergi aktivi	**13,964**	**(3,837)**	**10,127**	**(6,767)**	**3,360**
Tanınmış təxirə salınmış vergi aktivi	15,187	(1,861)	13,106	(7,858)	5,248
Tanınmış təxirə salınmış vergi öhdəliyi	(1,223)	(1,976)	(2,979)	1,091	(1,888)
Təxirə salınmış xalis vergi aktivi	**13,964**	**(3,837)**	**10,127**	**(6,767)**	**3,360**

18 Digər aktivlər və öhdəliklər

	2023	2022
Digər maliyyə aktivləri		
Ödəmə terminalları vasitəsilə hesablaşmalar	7,798	3,897
Pul köçürmələri və plastik kartlar üzrə hesablaşmalar	5,540	3,465
Təminat depozitləri	1,375	1,325
Digər	68	46
Cəmi maliyyə aktivləri	**14,781**	**8,733**
Digər qeyri-maliyyə aktivləri		
Təxirə salınmış xərclər	2,887	2,201
Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlərin alınması üçün verilmiş avanslar	1,925	667
Digər	735	870
Cəmi qeyri-maliyyə aktivləri	**5,547**	**3,738**

	2023	2022
Digər maliyyə öhdəlikləri		
Pul köçürmələri üzrə hesablaşmalar	6,693	3,396
Peşəkar xidmətlər üçün ödəniləcək məbləğlər	2,911	1,611
Cəmi maliyyə öhdəlikləri	**9,604**	**5,007**
Digər qeyri-maliyyə öhdəlikləri		
İşçilərə ödəniləcək məbləğlər	2,602	2,930
Mənfəət vergisindən başqa digər vergilər	3,283	1,784
Digər	909	2,813
Cəmi qeyri-maliyyə öhdəlikləri	**6,794**	**7,527**

Digər qeyri-maliyyə öhdəliklərinin 68 min AZN (2022: 178 min AZN) məbləğində hissəsini zəmanətlər və kreditlərlə bağlı öhdəliklər üzrə ehtiyat təşkil edir.

19 Kredit təşkilatları qarşısında öhdəliklər

Kredit təşkilatları qarşısında öhdəliklər aşağıdakılardan ibarətdir:

	2023	2022
Müddətli depozitlər	23,541	31,872
Digər banklarla repo əməliyyatları	-	18,038
Kredit təşkilatları qarşısında öhdəliklər	**23,541**	**49,910**

31 dekabr 2022-ci il tarixinə Azərbaycanın dövlət istiqrazları repo müqavilələri üzrə təminat kimi girov qoyulmuşdur. Həmin istiqrazlar Milli Depozit Mərkəzi tərəfindən bloklaşdırılır və onlar üzərində mülkiyyət hüququ Banka məxsusdur. Bu qiymətli kağızlar 31 dekabr 2022-ci il tarixinə Qeyd 10-da "Azərbaycanın dövlət istiqrazları və notları" sətirində göstərilir.

20 Müştərilər qarşısında öhdəliklər

Müştərilər qarşısında öhdəliklərə aşağıdakılar daxildir:

	2023	2022
Fiziki şəxslər		
- Cari hesablar	130,338	124,268
- Müddətli depozitlər	726,766	606,749
Digər hüquqi şəxslər		
- Cari hesablar	133,428	94,245
- Müddətli depozitlər	24,669	13,894
Sahibkarlar		
- Cari hesablar	63,672	44,461
Cari hesablar	327,438	262,974
Müddətli depozitlər	751,435	620,643
Cəmi müştərilər qarşısında öhdəliklər	**1,078,873**	**883,617**
Zəmanətlər üçün qoyulmuş girov (Qeyd 26)	1,668	822

31 dekabr 2023-cü il tarixinə müştərilər qarşısında öhdəliklərin 93,139 min AZN məbləğində hissəsi və ya müştəri portfelinin 9%-i (2022: 42,100 min AZN və ya 5%) 10 ən iri müştəri qarşısında öhdəliklərdən ibarətdir. 31 dekabr 2023-cü il tarixinə müştərilər qarşısında öhdəliklərin 19%-i (2022: 21%) xarici valyutalarda olmuşdur.

Bank *"Əmanətlərinin sığortalanması"* haqqında 29 dekabr 2006-cı il tarixli Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan əmanətlərin dövlət sığortası proqramında iştirak edir. Milli valyutada 100 min AZN-dək yerləşdirilən illik faiz dərəcəsi 12% (2022: 12%), habelə xarici valyutada 100 min AZN ekvivalentinədək yerləşdirilən illik faiz dərəcəsi 2.5% (2022: 2.5%) təşkil edən əmanətlər üç il müddətində Əmanətlərin Sığortalanması Fondu tərəfindən tam sığortalanır.

Müştəri hesablarının iqtisadi sektorlar üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:

	2023	%	2022	%
Fiziki şəxslər	857,104	79	731,017	83
Fərdi sahibkarlar	61,889	6	43,748	5
Ticarət və xidmət	47,475	4	42,170	5
Sığorta	19,341	2	14,723	2
Sair	93,064	9	51,959	5
Müştərilər qarşısında öhdəliklər	**1,078,873**	**100**	**883,617**	100

21 Borc öhdəlikləri

	2023	2022
Amortizasiya olunmuş dəyərlə ölçülən borc öhdəlikləri		
Dövlət fondlarından cəlb edilmiş borclar	30,670	26,015
Əsas borc öhdəlikləri	51,826	-
AMB-dən cəlb edilmiş müddətli borclar	1,993	3,864
Cəmi amortizasiya olunmuş dəyərlə ölçülən borc öhdəlikləri	**84,489**	**29,879**
Cəmi borc öhdəlikləri	**84,489**	**29,879**

21 Borc öhdəlikləri (davamı)

Əsas borc öhdəlikləri

2022-ci ilin aprel ayında əsas borc öhdəliklərinin kreditorlarına 5,107 min AZN ödənilmişdir. Borc öhdəliyi üzrə 11,782 min AZN məbləğində qalıq məbləğin tanınması dayandırılmış və səhmdarlar qismində çıxış edən bütün kreditorlar tərəfindən 2018-ci ilin noyabr ayında imzalanmış və 2022-ci ilin aprel ayında düzəliş edilmiş səhmdarlar müqaviləsinə uyğun olaraq bir səhmin nominal dəyəri 1 AZN olan 11,389 min ədəd imtiyazlı səhmə çevrilmişdir. Nəticədə 11,782 min AZN məbləğində yeni öhdəlik maliyyə vəziyyəti haqqında hesabatda subordinasiya krediti kimi tanınmışdır. Daha ətraflı məlumat üçün Qeyd 22-yə baxın.

31 dekabr 2023-cü il tarixinə balans dəyəri yuxarıdakı cədvəldə açıqlandığı kimi, Bank 2023-cü il ərzində bir neçə xarici kredit təşkilatından yeni borc vəsaiti cəlb etmişdir. Cəlb edilmiş borc vəsaitlərinin ümumi məbləği 30,000 min ABŞ dollarının ("ABŞ dolları ilkin əsas məbləğ") AZN ekvivalentini təşkil edir. Həmin borc vəsaitləri üzrə faiz dərəcəsi 10,95% – 13,29% təşkil edir, ödəmə müddəti isə 2026-cı ilin aprel - 2028-ci ilin dekabr aylarında başa çatır.

Bank xarici kredit təşkilatlarından cəlb edilmiş borc vəsaitləri üzrə xüsusi maliyyə şərtlərinə riayət etməlidir. Bu şərtlərə kapitalın adekvatlıq əmsalı, portfelin keyfiyyəti, açıq valyuta mövqeyi, açıq kredit mövqeyi və digər maliyyə əmsalları daxildir. Bankın bu xüsusi maliyyə şərtlərinə riayət etməsi haqqında məlumat Qeyd 26-da açıqlanır.

AMB-dən cəlb edilmiş müddətli borclar

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 fevral tarixli Fərmanına uyğun olaraq AMB-dən cəlb edilmiş müddətli kreditlərin ödəmə müddəti 5 il, müqavilə üzrə illik faiz dərəcəsi isə 0.1% təşkil edir. Dövlətdən bazar faiz dərəcəsindən aşağı faizlə cəlb edilmiş borclar BMHS 9-a uyğun olaraq tanınır və qiymətləndirilir. Bazar faiz dərəcəsindən aşağı faizlə cəlb edilmiş borclar üzrə gəlir BMHS 9-a əsasən müəyyən edilmiş kreditin balans dəyəri ilə BMS 20-yə uyğun olaraq belə kreditlərdən əldə olunan gəlir arasında fərq kimi tanınır (Qeyd 24). Məbləğlər arasındakı fərq BMS 20-yə uyğun olaraq dövlət subsidiyası kimi tanınmışdır. Ətraflı məlumat üçün Qeyd 24-ə baxın.

Dövlət fondlarından cəlb edilmiş borclar

31 dekabr 2023-cü il tarixinə Bank Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondundan və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyindən müvafiq olaraq 19,137 min AZN və 5,750 min AZN məbləğində (2022: 13,916 min AZN və 7,908 min AZN) borc vəsaitləri cəlb etmişdir. Bu borc vəsaitləri üzrə illik faiz dərəcəsi müvafiq olaraq 1% və 2% (2022: illik 1% və 2%) olmaqla, müddəti 2026-cı ilin dekabr-iyun aylarında (2022: 2026-cı il, dekabr-iyun ayları) başa çatır.

Borc öhdəliklərinin valyuta və likvidlik riskləri üzrə təhlili Qeyd 31-də təqdim edilir. Borc öhdəliklərinin ədalətli dəyəri haqqında məlumat üçün Qeyd 32-yə baxın. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat Qeyd 33-də açıqlanır.

22 Subordinasiyalı kreditlər

	2023	2022
Amortizasiya olunmuş dəyərlə ölçülən subordinasiyalı kreditlər		
Müddətli kreditlər	24,163	22,222
İmtiyazlı səhmlər	10,213	8,881
Cəmi amortizasiya olunmuş dəyərlə ölçülən subordinasiyalı kreditlər	**34,376**	**31,103**
Cəmi subordinasiyalı kreditlər	**34,376**	**31,103**

Müddətli kreditlər

Müddətli kreditlər Bankın səhmdarları olan doqquz maliyyə institutundan cəlb edilmiş və müddəti 31 mart 2029-cu il tarixində başa çatan subordinasiyalı borc öhdəliklərindən ibarətdir.

22 Subordinasiyalı kreditlər (davamı)

İmtiyazlı səhmlər

2022-ci ilin aprel ayında 2018-ci il noyabr tarixli səhmdarlar müqaviləsinə dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən subordinasiyalı kredit üzrə faizlərin hesablanması 31 mart 2024-cü il tarixinədək təxirə salınmışdır. Yeni dəyişiklik kreditlərinin balans dəyəri ümumi kredit məbləğinin 10%-ni təşkil edən iki səhmdar istisna olmaqla, subordinasiya borcu verən bütün kreditorlara şamil edilir. Restrukturizasiya müqaviləsinə dəyişiklik zamanı hesablanması təxirə salınmış faizlərin effekti 1,709 min AZN təşkil etmiş və 2022-ci il üzrə kapitalda dəyişikliklər haqqında hesabatda "kapital ehtiyatları" kimi tanınmışdır. 2023-cü ildə kapital ehtiyatlarının amortizasiyası 244 min AZN təşkil etmiş və kapitalda dəyişikliklər haqqında hesabatda müvafiq olaraq göstərilmişdir.

Səhmdar qismində çıxış edən bütün kreditorlar tərəfindən imzalanan dəyişiklik edilmiş səhmdarlar müqaviləsinə uyğun olaraq, əvvəllər əsas borc öhdəliyi kimi təsnifləşdirilmiş və balans dəyəri 16,889 min AZN olan kreditin 5,107 min AZN məbləğində hissəsi qismən ödənilmişdir. Əsas borc öhdəliyinin 11,782 min AZN məbləğində qalan hissəsi bir səhmin nominal dəyəri 1 AZN olan 11,389 min ədəd imtiyazlı səhmə çevrilmiş və səhmdarlar müqaviləsinin şərtlərinə əsasən maliyyə vəziyyəti haqqında hesabatda subordinasiyalı kreditlər kimi təsnifləşdirilmişdir. Həmin səhmlər Bankın prudensial hesabatında kapital aləti (I dərəcəli kapital) kimi tanınmışdır. İmtiyazlı səhmlər adlı, qeyri-kumulyativ və müddətsiz səhmlərdir. Səhmlərin geri alınması və dividendlərin ödənilməsi zamanı kapitalın minimum adekvatlıq əmsalı üzrə müəyyən edilmiş hədlərə riayət olunmalıdır. Əsas borc öhdəliyinin "tanınmasının dayandırılması nəticəsində yaranmış 3,060 min AZN məbləğində gəlir" 2022-ci il üzrə kapitalda dəyişikliklər haqqında hesabatda kapital ehtiyatı kimi tanınmışdır. 2023-cü ildə kapital ehtiyatlarının amortizasiyası 1,531 min AZN təşkil etmiş və müvafiq olaraq kapitalda dəyişikliklər haqqında hesabatda göstərilmişdir.

Subordinasiyalı kreditlərin ədalətli dəyəri haqqında məlumat üçün Qeyd 32-yə baxın. Subordinasiyalı kreditlərin valyuta və likvidlik riskləri üzrə təhlili Qeyd 31-də təqdim edilir. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat Qeyd 33-də açıqlanır.

23 Buraxılmış borc qiymətli kağızları

2022-ci ilin noyabr ayında Bank "Bakı Fond Birjası" vasitəsilə nominal dəyəri 1,000 ABŞ dolları olmaqla, 18 ay müddətinə 5,000 ədəd faizli istiqrazlar buraxmışdır. Qeyd edilən istiqrazlar kütləvi təklif üsulu ilə yerləşdirilmiş və müxtəlif investorlar tərəfindən tam alınmışdır. İstiqrazlar üzrə illik faiz dərəcəsi 5.5%, faiz ödəniş dövrü isə hər üç təqvim ayından bir təşkil edir.

	2023	2022
Yerli bazarda emissiya edilmiş istiqrazlar	8,543	8,543
Cəmi buraxılmış borc qiymətli kağızları	**8,543**	**8,543**

24 Təxirə salınmış gəlirlər

	2023	2022
1 yanvar tarixinə təxirə salınmış gəlirlər	**417**	**804**
Alınmış yeni subsidiyalar	-	-
Təxirə salınmış gəlirin amortizasiyası	(261)	(387)
31 dekabr tarixinə təxirə salınmış gəlirlər	**156**	**417**

2019-cu ilin noyabr ayında Bank "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 fevral tarixli Fərmanına uyğun olaraq, AMB tərəfindən Banka bazar faiz dərəcəsindən aşağı faizlə kredit verilmişdir. AMB tərəfindən verilmiş birinci kredit xəttinin məbləği 4,968 min AZN təşkil etmişdir. Kreditin verildiyi tarixdə onun balans dəyəri 3,859 min AZN olmuşdur. Qalan 1,108 min AZN dövlət subsidiyası kimi uçota alınmışdır.

24 Təxirə salınmış gəlirlər (davamı)

AMB tərəfindən 28 yanvar 2020-ci il tarixində verilmiş sonuncu kredit xətti 3,553 min AZN təşkil etmişdir. Kreditin verildiyi tarixdə onun balans dəyəri 2,840 min AZN olmuşdur ki, bu da effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış gələcək pul axınlarını əks etdirir. Kreditin müqavilə və balans dəyəri arasındakı 713 min AZN məbləğində fərq 2020-ci ildə təxirə salınmış gəlir kimi uçota alınmışdır. Bu məbləğ kreditin beş illik ödəmə müddəti başa çatana qədər faiz xərc ilə amortizasiya ediləcəkdir. Bank 2023 və 2022-ci illər ərzində AMB-dən yeni borc vəsaitləri cəlb etməmişdir.

25 Kapital

Bankın buraxılmış nizamnamə kapitalının qeydə alınmış nominal dəyəri 258,718 min AZN təşkil edir (2022: 258,718 min AZN) təşkil edir.

31 dekabr 2023-cü il tarixinə buraxılmasına icazə verilmiş, buraxılmış və tam ödənilmiş adi səhmlərin sayı bir səhmin nominal dəyəri 4.25 AZN olmaqla, 60,875 min ədəd (2022: 60,875 min ədəd) təşkil etmişdir. Emissiya edilmiş bütün adi səhmlər tam ödənilmişdir. Hər bir adi səhm üzrə səhmdara bir səs hüququ verilir. Hər bir adi səhmin mülkiyyətçisi vaxtaşırı olaraq səhmdarların ümumi yığıncağı tərəfindən elan edilən mənfəətdə iştirak etmək və dividend almaq və müəssisənin ləğvindən sonra onun xalis aktivlərinin bir hissəsini əldə etmək üçün bərabər hüquqa malikdir.

Kapitalda dəyişikliklər haqqında hesabatda göstərilən kapital ehtiyatları subordinasiyalı kreditlər üzrə dayandırılmış faizləri və 2022-ci ildə subordinasiyalı kredit kimi təsnifləşdirilən imtiyazlı səhmlərə çevrilmiş əsas borc öhdəliyini əks etdirir.

26 Təəhhüdlər və şərti öhdəliklər

Hüquqi məsələlər. Adi fəaliyyəti zamanı Bank məhkəmə iddiaları və şikayətlərinin obyekti olur. Rəhbərlik hesab edir ki, belə iddia və ya şikayətlərdən irəli gələn öhdəlik (əgər olarsa) Bankın maliyyə vəziyyəti və ya gələcək əməliyyat nəticələrinə mühüm mənfi təsir göstərməyəcəkdir.

Vergilər. Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez edilən dəyişikliklərə məruz qalır. Bundan əlavə, Bankın əməliyyatları və fəaliyyətinə tətbiq edilən vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərh edilməsi rəhbərliyin şərhi ilə üst-üstə düşməyə bilər. Azərbaycan Respublikasında son zamanlar baş vermiş hadisələr göstərir ki, vergi orqanları qanunvericiliyin şərh edilməsi və vergi hesablamalarının yoxlanılmasında daha sərt mövqe tuta bilərlər, buna görə də vergi orqanları Bankın əməliyyat və fəaliyyət növləri ilə bağlı əvvəl irəli sürmədikləri iddiaları irəli sürə bilərlər. Nəticə etibarilə müvafiq orqanlar tərəfindən əlavə iri vergi, cərimə və faiz hesablana bilər. Vergi yoxlamaları yoxlamanın keçirildiyi il də daxil olmaqla, vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyətini əhatə edə bilər.

Rəhbərlik hesab edir ki, 31 dekabr 2023-cü il tarixinə onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, valyuta və gömrük qanunvericiliyi ilə bağlı Bankın mövqeləri dəyişilməyəcəkdir.

Azərbaycan Respublikasının Mərkəzi Bankının prudensial normativlərinə riayət edilməsi

Bank, fəaliyyəti ilə bağlı riskləri qarşılamaq üçün aktiv idarə olunan kapital bazası saxlayır. Bankın kapital adekvatlığına AMB tərəfindən müəyyən edilmiş əmsallar tətbiq edilməklə, AMB tərəfindən nəzarət edilir. Kapitalın idarə olunmasında əsas məqsəd Bankın kənar orqanların müəyəyn etdiyi kapital normativlərinə uyğunluğunu, eləcə də Bankın fəaliyyətini dəstəkləmək və səhmdarlar üçün gəlirlilik səviyyəsini artırmaq üçün yüksək kredit reytinqləri və sabit kapital göstəricilərinin qorunub saxlanmasını təmin etməkdir. Bank, kapital strukturunu idarə edir və iqtisadi şəraitdəki dəyişiklikləri və fəaliyyəti ilə bağlı risklərin xüsusiyyətlərini nəzərə alaraq, ona düzəlişlər edir. Kapital strukturunu saxlamaq və ya dəyişdirmək məqsədilə Bank səhmdarlara ödənilmiş dividendlərin məbləğini dəyişdirə, kapitalı səhmdarlara geri qaytara və ya kapital qiymətli kağızlar emissiya edə bilər. Əvvəlki illər üzrə hədəflər, siyasət və proseslərdə heç bir dəyişiklik baş verməmişdir.

Xüsusi maliyyə şərtlərinə riayət edilməsi. Bank müxtəlif maliyyələşdirmə və oxşar müqavilələr üzrə müəyyən xüsusi maliyyə və biznes şərtlərinə riayət etmək öhdəliyi götürmüşdür. 31 dekabr 2023-cü il tarixinə Bank ümumi qalığı 51,826 min AZN (31 dekabr 2022: sıfır) olan dörd maliyyələşdirmə müqaviləsi üzrə müəyyən xüsusi maliyyə şərtlərinə riayət etmişdir.

26 Təəhhüdlər və şərti öhdəliklər (davamı)

AMB-nin kapital adekvatlığı əmsalı

AMB-nin tələblərinə əsasən banklar 1-ci dərəcəli kapital və məcmu kapitalın minimum adekvatlıq əmsalını müvafiq olaraq 5% (2022: 5%) və 10% (2022: 10%) həcmində saxlamalıdır.

AMB-yə təqdim edilən prudensial hesabatlara və daxili idarəetmə hesabatlarına əsasən 31 dekabr 2023 və 2022-ci il tarixlərinə Bankın kapitalı və onun adekvatlığı əmsalı aşağıdakı kimi olmuşdur:

	2023	2022
1-ci dərəcəli kapital	71,766	56,261
2-ci dərəcəli kapital	71,739	44,908
Məcmu kapital	**143,505**	**101,169**
Risk dərəcəsi üzrə ölçülmüş aktivlər	**1,065,503**	**854,137**
1-ci dərəcəli kapitalın adekvatlıq əmsalı	6.7%	6.6%
Məcmu kapitalın adekvatlıq əmsalı	13.5%	11.8%

AMB-yə təqdim edilən prudensial hesabatlara və daxili idarəetmə hesabatlarına əsasən Bank 2023-cü il ərzində kapital adekvatlığı əmsalına riayət etmişdir.

Kreditlərlə bağlı öhdəliklər. Bu alətlərin əsas məqsədi lazım olduqda müştəriləri vəsaitlərə təmin etməkdir. Zəmanətlər və rezervli akkreditivlər müştəri üçüncü tərəflər qarşısında öhdəliklərini yerinə yetirə bilmədikdə Bankın ödənişlər edəcəyi ilə bağlı geri çağırılmayan öhdəlikləri əks etdirir və kreditlər ilə eyni risk səviyyəsi daşıyır. Sənədli akkreditivlər və kommersiya akkreditivləri, Banka müəyyən edilmiş məbləğə qədər və xüsusi şərtlərlə tələb təqdim etmək hüququnu üçüncü tərəfə verən, Bankın müştəri adından üzərinə götürdüyü yazılı öhdəlik olaraq, aid olduqları malların çatdırılması və ya pul depozitləri ilə təmin edilir və beləliklə də birbaşa borcla müqayisədə daha aşağı riskə məruz qoyur.

Kreditlərin təqdim edilməsi üzrə öhdəliklərə kreditlər, zəmanətlər və ya akkreditivlər formasında kreditlərin verilməsi üçün rəhbərlik tərəfindən təsdiqlənməmiş məbləğlərin istifadə edilməyən hissəsi daxildir. Kreditlərin verilməsi üzrə öhdəliklər ilə əlaqədar Bank istifadə edilməmiş məbləğlərin istifadə edilməli olduğu halda, potensial olaraq istifadə edilməmiş öhdəliklərin ümumi məbləğinə bərabər məbləğdə zərərin yaranması riskinə məruz qalır. Lakin, kreditlərin verilməsi üzrə öhdəliklərin böyük hissəsi müştərilərin ödəmə qabiliyyəti ilə bağlı müəyyən tələblərə əməl etməsindən asılı olduğuna görə, ehtimal edilən zərərlərin məbləği istifadə edilməmiş öhdəliklərin ümumi məbləğindən azdır. Adətən uzunmüddətli öhdəliklər qısamüddətli öhdəliklər ilə müqayisədə daha yüksək kredit riskinə malik olduğu üçün Bank kreditlərlə bağlı öhdəliklərin ödəmə müddətinə qədər qalan müddətə nəzarət edir.

Kreditlərlə bağlı öhdəliklər aşağıdakı kimi olmuşdur:

	2023	2022
Kreditlərlə bağlı öhdəliklər		
Təqdim edilmiş zəmanətlər	9,094	9,892
İstifadə olunmamış kredit xətləri üzrə öhdəliklər	17,177	14,195
Cəmi kreditlərlə bağlı öhdəliklər, ehtiyat ayırmasından əvvəl	**26,271**	**24,087**
Çıxılsın: kreditllərlə bağlı öhdəliklər üzrə ehtiyatlar (Qeyd 18)	(68)	(178)
Cəmi kreditlərlə bağlı öhdəliklər, ehtiyat çıxılmaqla	**26,203**	**23,909**
Çıxılsın: zəmanətlər üzrə girov qoyulmuş depozitlər	(1,668)	(822)
Cəmi kreditlərlə bağlı öhdəliklər, GKZ üzrə ehtiyat və təminat kimi saxlanılan depozitlər çıxılmaqla	**24,535**	**23,087**

27 Xalis haqq və komissiya gəlirləri və xərcləri

Xalis haqq və komissiya gəlirləri aşağıdakılardan ibarətdir:

	2023	2022
Haqq və komissiya gəlirləri		
Plastik kart əməliyyatları	7,775	6,630
Hesablaşma əməliyyatları	6,357	6,545
Kassa əməliyyatları	1,817	1,683
Digər	292	234
Cəmi haqq və komissiya gəlirləri	**16,241**	**15,092**
Haqq və komissiya xərcləri		
Plastik kart əməliyyatları	(8,795)	(6,877)
Kassa əməliyyatları	(2,681)	(2,076)
Mərkəzləşdirilmiş Kredit Reyestrindən istifadə haqqı	(440)	(411)
Hesablaşma əməliyyatları	(414)	(255)
Digər	(1,091)	(1,951)
Cəmi haqq və komissiya xərcləri	**(13,421)**	**(11,570)**
Xalis haqq və komissiya gəlirləri	**2,820**	**3,522**

Kassa əməliyyatlarının 1,580 min AZN (2022: 1,692 min AZN) məbləğində hissəsini üçüncü tərəf təchizatçıların ödəmə terminalları vasitəsilə aparılmış əməliyyatlar üzrə komissiya xərcləri təşkil edir. "Digər" sətrinə daxil olan 1,054 min AZN (2022: 1,796 min AZN) məbləğində komisyon haqları kənar təchizatçı tərəfindən məlumatların emalı mərkəzi üzrə göstərilmiş xidmətləri əks etdirir.

28 Ümumi, inzibati və işçi heyəti üzrə xərclər

İşçi heyəti üzrə xərclər aşağıdakılardan ibarətdir:

	2023	2022
Əmək haqları	36,816	31,595
Sosial sığorta xərcləri	4,995	4,404
İşçilərlə bağlı digər xərclər	174	106
İşçi heyəti üzrə xərclər	**41,985**	**36,105**

Ümumi və inzibati xərclər aşağıdakılardan ibarətdir:

	2023	2022
Əmanətlərin sığortalanması haqqı	5,801	4,760
Konslatinq və digər peşəkar xidmət haqları	4,796	3,551
Məlumatların emalı xərcləri	2,986	2,636
Reklam və marketinq xərcləri	1,478	1,443
Dəftərxana və ofis ləvazimatları	1,387	1,095
Mühafizə xidməti ilə bağlı xərclər	1,036	952
Təmir və texniki xidmət xərcləri	883	969
Rabitə xərcləri	834	788
Mənfəət vergisindən başqa digər vergilər	829	977
Mülkiyyətə keçmiş girovun reallaşması üzrə xərclər	812	3,638
Ofis və icarə haqqı	186	33
Ezamiyyə xərcləri	120	225
Digər	1,220	1,312
Cəmi ümumi və inzibati xərclər	**22,368**	**22,379**

2023-cü il üzrə Bankın maliyyə hesabatlarının kənar audit yoxlaması ilə bağlı illik xidmət haqqı ƏDV çıxılmaqla 176 min AZN təşkil edir.

29 Maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərdə dəyişikliklər

Aşağıdakı cədvəldə təqdim olunan hər bir dövr üzrə Bankın maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərinin hərəkəti göstərilir. Bu öhdəliklər pul vəsaitlərinin hərəkəti haqqında hesabatda maliyyələşdirmə fəaliyyətinin tərkibində qeydə alınır:

	Maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər				
	Borc öhdəlikləri	**Subordinasiyalı kreditlər**	**Buraxılmış borc qiymətli kağızları**	**İcarə öhdəlikləri**	**Cəmi**
1 yanvar 2022-ci il tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər	**48,377**	**23,105**	**-**	**4,013**	**75,495**
Nağd hərəkətlər					
İl ərzində cəlb edilmiş borclar	13,807	-	8,543	-	22,350
Ödənilmiş əsas borclar	(21,014)	-	-		(21,014)
Ödənilmiş faizlər	(1,037)	(827)	-	-	(1,864)
Ödənilmiş icarə öhdəlikləri				(1,687)	(1,687)
Qeyri-nağd hərəkətlər					
İl ərzində cəlb edilmiş borclar	-	-	-	531	531
Əsas borc öhdəliyinin imtiyazlı səhmlərə çevrilməsi	(11,782)	11,782	-	-	-
Səhmdarlar tərəfindən subordinasiyalı kreditlər üzrə faizlərin dayandırılması və əsas borc öhdəliyinin imtiyazlı səhmlərə çevrilməsinin nəticəsi	-	(4,769)	-	-	(4,769)
Faiz xərclərinin amortizasiyası	1,430	2,464	-	346	4,240
Məzənnə fərqi	-	(33)	-	-	(33)
Digər hərəkətlər	98	(619)	-	61	(460)
31 dekabr 2022-ci il tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər	**29,879**	**31,103**	**8,543**	**3,264**	**72,789**
Nağd hərəkətlər					
İl ərzində cəlb edilmiş borclar	69,170	-	-	-	69,170
Ödənilmiş əsas borclar	(16,447)	-	-		(16,447)
Ödənilmiş faizlər	(1,062)	-	(468)	-	(1,530)
Ödənilmiş icarə öhdəlikləri	-	-	-	(1,670)	(1,670)
Qeyri-nağd hərəkətlər					
İl ərzində cəlb edilmiş borclar	-	-	-	120	120
Faiz xərclərinin amortizasiyası	2,741	3,273	468	406	6,888
Borc öhdəliklərinin modifikasiyası	-	-	-	1,541	1,541
Digər hərəkətlər	208	-	-	-	208
31 dekabr 2023-cü il tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər	**84,489**	**34,376**	**8,543**	**3,661**	**131,069**

30 Seqmentlər üzrə təhlil

Fəaliyyət seqmentləri – bankın biznes fəaliyyəti zamanı mənfəət əldə edə bildiyi və ya xərc çəkdiyi, əməliyyat nəticələrinin müvafiq İcraçı Direktor (Biznes və fərdi) və Maliyyə Direktoru (Xəzinədarlıq) tərəfindən mütəmadi olaraq nəzərdən keçirildiyi və haqqında ayrıca maliyyə məlumatlarının mövcud olduğu komponentlərdir. İcraçı Direktor və Maliyyə Direktoru resursların bölüşdürülməsini və Bankın fəaliyyətinin qiymətləndirilməsini təmin edir. İcraçı Direktorun funksiyaları İdarə Heyətinin üzvləri tərəfindən icra edilir.

a) Hesabat seqmentinin gəlir mənbəyi olan məhsul və xidmətlərin təsviri

Bankın fəaliyyəti üç əsas biznes seqmenti üzərində qurulmuşdur:

- Korporativ bankçılıq – kreditlər və digər kredit əməliyyatlarının həyata keçirilməsi, cari hesabların açılması, depozitlərin cəlb edilməsi, Mikro və Aqro müştərilər, KOB və Korporativ Bankçılıq departamentlərinin məsul şəxsləri tərəfindən idarə olunan biznes müştəriləri üçün overdraft şəklində kredit vəsaitlərinin təqdim edilməsi. Bu seqmentin müştəriləri hüquqi şəxslər və sahibkarlardır;
- Pərakəndə bankçılıq – fiziki şəxslərə bank xidmətlərinin göstərilməsi, fiziki şəxslər üçün cari hesabların açılması, əmanətlərin qəbulu, depozitlərin cəlb edilməsi, kredit və debet kartlarının açılması, istehlak və ipoteka kreditlərinin verilməsi. Bu hesablar Fərdi Bankçılıq Departamentinin məsul şəxsləri tərəfindən idarə olunur;
- Xəzinədarlıq – banklararası kreditlərin və borcların verilməsi, investisiya və qiymətli kağızların ticarəti, valyuta xidmətləri, istiqrazların emissiyası və digər xəzinə funksiyaları.

(b) Hesabat seqmentlərinin müəyyən edilməsində rəhbərliyin istifadə etdiyi amillər

Bankın seqmentləri müxtəlif müştərilərlə işləyən strateji biznes bölmələrindən ibarətdir. Hər bir strateji biznes bölməsi üçün fərqli satış və marketinq strategiyası, eləcə də fərqli təcrübə tələb olunduğuna görə onlar fərdi qaydada idarə olunur.

İdarə Heyəti tərəfindən təhlil edilən seqmentlər üzrə maliyyə məlumatlarına Bankın əməliyyat nəticələri və maliyyə vəziyyəti haqqında hesabat daxildir.

Beləliklə, rəhbərlik qismən uyğun gələn maliyyə məlumatlarının hansı komponentlərinin fəaliyyət seqmentlərinin əsasını təşkil etməsinə dair qərar verərkən BMHS 8, Fəaliyyət Seqmentləri standartının əsas prinsipini tətbiq etmişdir.

(c) Fəaliyyət seqmentləri üzrə mənfəət və ya zərərin, aktiv və öhdəliklərin qiymətləndirilməsi

İcraçı Direktor BMHS Mühasibat Uçotu Standartlarına uyğun şəkildə hazırlanmış maliyyə məlumatlarını nəzərdən keçirir. Belə maliyyə məlumatlarının müəyyən aspektləri aşağıda göstərilir:

(i) mənfəət vergisi seqmentlər üzrə bölüşdürülmür;

(ii) risklərin hedcinqi daxil olmaqla likvidliyin idarə edilməsi "xəzinədarlıq" seqmentinə daxil edilir.

Yuxarıda qeyd edildiyi kimi, fərqlər qiymətləndirməyə görə deyil, seqmentlər üzrə paylanma ilə əlaqədar yaranır. İcraçı Direktor hər bir seqment üzrə fəaliyyət nəticələrini seqmentin öhdəliklərinə birbaşa aid edilən fəaliyyətdən yaranan xalis seqment nəticəsi əsasında qiymətləndirir.

30 Seqmentlər üzrə təhlil (davamı)

(d) Hesabat seqmenti üzrə mənfəət və ya zərər, aktiv və öhdəliklər haqqında məlumat

31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə hesabat seqmentləri haqqında məlumat aşağıda təqdim edilir:

2023	Korporativ bankçılıq	Fərdi bankçılıq	Xəzinədarlıq	Cəmi
Faiz gəlirləri	136,602	41,593	11,200	189,395
Haqq və komissiya gəlirləri	9,580	6,661	-	16,241
Maliyyə icarəsi üzrə faiz gəlirləri	1,453	-	-	1,453
Cəmi gəlirlər	**147,635**	**48,254**	**11,200**	**207,089**
Faiz xərcləri	(3,214)	(61,287)	(10,808)	(75,309)
Haqq və komissiya xərcləri	(7,916)	(5,505)	-	(13,421)
Əməliyyat xərcləri	(49,699)	(22,500)	(325)	(72,524)
Amortizasiya olunmuş dəyərlə ölçülən və tanınmanın dayandırılması ilə nəticələnməyən maliyyə aktivlərinin modifikasiyası üzrə zərər çıxılmaqla gəlir	110	-	-	110
Xarici valyuta əməliyyatları üzrə xalis gəlir	2,250	1,675	-	3,925
Məzənnə fərqi üzrə zərər çıxılmaqla gəlir	-	-	(95)	(95)
İnvestisiya qiymətli kağızlarının satışı üzrə zərər çıxılmaqla gəlir	-	-	-	-
Törəmə maliyyə alətləri üzrə zərər çıxılmaqla gəlir	-	-	(2,494)	(2,494)
Kredit zərərinin bərpası	3,213	475	-	3,688
Borcların yığılması xərcləri	(1,963)	(289)	-	(2,252)
Seqment üzrə xalis nəticə	**90,416**	**(39,177)**	**(2,522)**	**48,717**

Seqment üzrə xalis nəticə	**48,717**
Dövlət subsidiyası üzrə gəlir	261
Sair gəlir	806
Mənfəət vergisi xərci	(6,767)
İl üzrə mənfəət	**43,017**

30 Seqmentlər üzrə təhlil (davamı)

31 dekabr 2022-ci il tarixində başa çatan il üzrə hesabat seqmentləri haqqında məlumat aşağıda təqdim edilir:

2022	Korporativ bankçılıq	Fərdi bankçılıq	Xəzinədarlıq	Cəmi
Faiz gəlirləri	111,065	24,385	3,331	138,781
Haqq və komissiya gəlirləri	11,155	3,937	-	15,092
Maliyyə icarəsi üzrə faiz gəlirləri	698	-	-	698
Cəmi gəlirlər	**122,918**	**28,322**	**3,331**	**154,571**
Faiz xərcləri	(5,923)	(47,233)	(3,871)	(57,027)
Haqq və komissiya xərcləri	(8,491)	(3,079)	-	(11,570)
Əməliyyat xərcləri	(49,806)	(15,942)	(340)	(66,088)
Amortizasiya olunmuş dəyərlə ölçülən və tanınmanın dayandırılması ilə nəticələnməyən maliyyə aktivlərinin modifikasiyası üzrə zərər çıxılmaqla gəlir	(1,942)	-	-	(1,942)
Xarici valyuta əməliyyatları üzrə xalis gəlir	4,048	976	-	5,024
Məzənnə fərqi üzrə zərər çıxılmaqla gəlir	-	-	(141)	(141)
İnvestisiya qiymətli kağızlarının satışı üzrə zərər çıxılmaqla gəlir	-	-	(81)	(81)
Törəmə maliyyə alətləri üzrə zərər çıxılmaqla gəlir	-	-	(5,868)	(5,868)
Kredit zərərinin bərpası	8,936	611	-	9,547
Borcların yığılması xərcləri	(2,837)	(233)	-	(3,070)
Seqment üzrə xalis nəticə	**66,903**	**(36,578)**	**(6,970)**	**23,355**

Seqment üzrə xalis nəticə	**23,355**
Dövlət subsidiyası üzrə gəlir	387
Sair gəlir	590
Mənfəət vergisi xərci	(3,837)
İl üzrə mənfəət	**20,495**

30 Seqmentlər üzrə təhlil (davamı)

Seqment aktivləri:

2023	Seqment aktivləri	Korporativ bankçılıq	Fərdi bankçılıq	Xəzinədarlıq
Pul vəsaitləri və onların ekvivalentləri	164,526	32,905	131,621	-
Kredit təşkilatlarından alınacaq məbləğlər	65,911	-	-	65,911
Müştərilərə verilmiş kreditlər	990,282	770,322	219,960	-
İnvestisiya qiymətli kağızları	93,812	-	-	93,812
Mülkiyyətə keçmiş girov	9,589	9,589	-	-
Cəmi seqment aktivləri	**1,324,120**	**812,816**	**351,581**	**159,723**
Əmlak və avadanlıqlar	31,565			
Qeyri-maddi aktivlər	15,733			
Təxirə salınmış mənfəət vergisi aktivləri	3,360			
İstifadə hüquqlu aktivlər	3,528			
Digər maliyyə aktivləri	14,781			
Digər aktivlər	5,547			
Maliyyə hesabatları üzrə cəmi aktivlər	**1,398,634**			

2022	Seqment aktivləri	Korporativ bankçılıq	Fərdi bankçılıq	Xəzinədarlıq
Kredit təşkilatlarından alınacaq məbləğlər	1,957	-	-	1,957
Müştərilərə verilmiş kreditlər	790,773	649,486	141,287	-
İnvestisiya qiymətli kağızları	94,247	-	-	94,247
Mülkiyyətə keçmiş girov	16,915	16,915	-	-
Cəmi seqment aktivləri	**903,892**	**666,401**	**141,287**	**96,204**
Kredit təşkilatlarından alınacaq məbləğlər	31,303			
Pul vəsaitləri və onların ekvivalentləri	118,958			
Əmlak və avadanlıqlar	31,413			
Qeyri-maddi aktivlər	16,072			
Təxirə salınmış mənfəət vergisi aktivləri	10,127			
İstifadə hüquqlu aktivlər	3,368			
Digər maliyyə aktivləri	8,733			
Digər aktivlər	3,738			
Maliyyə hesabatları üzrə cəmi aktivlər	**1,127,604**			

30 Seqmentlər üzrə təhlil (davamı)

Seqment öhdəlikləri:

2023	Seqment öhdəlikləri	Korporativ bankçılıq	Fərdi bankçılıq	Xəzinədarlıq
Müştərilər qarşısında öhdəliklər	1,078,873	220,989	857,884	-
Kredit təşkilatları qarşısında öhdəliklər	23,541	1,497	444	21,600
Buraxılmış borc qiymətli kağızları	8,543	-	-	8,543
Borc öhdəlikləri	84,489	26,334	5,923	52,232
Subordinasiyalı kreditlər	34,376	26,505	7,871	-
Törəmə maliyyə öhdəlikləri	1,080	-	-	1,080
Cəmi seqment öhdəlikləri	**1,230,902**	**275,325**	**872,122**	**83,455**
İcarə öhdəlikləri	3,661			
Təxirə salınmış gəlirlər	156			
Digər maliyyə öhdəlikləri	9,604			
Digər öhdəliklər	6,794			
Maliyyə hesabatları üzrə cəmi öhdəliklər	**1,251,117**			

2022	Seqment öhdəlikləri	Korporativ bankçılıq	Fərdi bankçılıq	Xəzinədarlıq
Müştərilər qarşısında öhdəliklər	883,617	152,600	731,017	-
Kredit təşkilatları qarşısında öhdəliklər	49,910	-	-	49,910
Buraxılmış borc qiymətli kağızları	8,543	-	-	8,543
Borc öhdəlikləri	29,879	24,773	5,106	-
Subordinasiyalı kreditlər	31,103	23,696	7,407	-
Törəmə maliyyə öhdəlikləri	3,804	-	-	3,804
Cəmi seqment öhdəlikləri	**1,006,856**	**201,069**	**743,530**	**62,257**
İcarə öhdəlikləri	3,264			
Təxirə salınmış gəlirlər	417			
Digər maliyyə öhdəlikləri	5,007			
Digər öhdəliklər	7,527			
Maliyyə hesabatları üzrə cəmi öhdəliklər	**1,023,071**			

(e) Gəlirlərin məhsul və xidmətlər üzrə təhlili

Bankın gəlirləri mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda (faiz gəliri) və Qeyd 27-də (haqq və komissiya gəlirləri) məhsul və xidmətlər üzrə təhlil edilir.

31 Risklərin idarə edilməsi

Bank maliyyə və əməliyyat risklərinə məruz qalır. Risklərə məruz qalma Bankın işgüzar fəaliyyətinin ayrılmaz hissəsidir. Bankın risklərin idarə edilməsi funksiyasının məqsədi risk və gəlir arasında müvafiq balans yaratmaq və Bankın maliyyə nəticələrinə potensial mənfi təsirləri minimuma endirməkdir.

Risklərin idarə edilməsi sistemi

İdarə Heyəti Bankda risklərin idarə edilməsi funksiyasına görə məsuliyyət daşıyan əsas orqandır. Risklərin idarə edilməsi funksiyası maliyyə riskləri və əməliyyat riskləri ilə bağlı həyata keçirilir. Maliyyə risklərinə bazar riski (o cümlədən, valyuta riski, faiz dərəcəsi riski və digər qiymət riski), kredit riski və likvidlik riski daxildir. İdarə Heyətinin maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədlərinə daxildir: (i) Bankın fəaliyyətində xüsusi risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi, (ii) risk limitlərinin müəyyən edilməsi və (iii) risklərin bu limitlər çərçivəsində qalmasının təmin edilməsi. Həmçinin, İdarə Heyəti Bankın maliyyə nəticələrinə bütün potensial mənfi təsirləri minimuma endirməklə risk və gəlir arasında müvafiq balansın təmin edilməsinə görə məsuliyyət daşıyır. Risklərin idarə edilməsi funksiyaları əməliyyat və hüquqi risklərin minimuma endirilməsi məqsədilə daxili qayda və prosedurların düzgün işləməsi üçün nəzərdə tutulur.

31 Risklərin idarə edilməsi (davamı)

Bankın risklərin idarə edilməsi metodologiyası, qaydaları və qiymətləndirmə proseduraları Bankın qarşılaşdığı riskləri müəyyən etmək, təhlil etmək, təsirini azaltmaq və idarə etmək üçün nəzərdə tutulur. Bunu etmək üçün münasib risk limitləri və nəzarət vasitələri təyin edilir və eyni zamanda risk səviyyələri üzrə müvafiq monitorinq və limitlərə və prosedurlara daim riayət olunması təmin edilir. Risklərin idarə edilməsi qaydaları və prosedurları bazardakı dəyişiklikləri və yeni məhsul və xidmətləri xüsusiyyətlərini nəzərə almaq məqsədilə mütəmadi olaraq təhlil olunur. Bu Bankda "qabaqcıl təcrübə"nin tətbiq edilməsini təmin etmək üçün edilir.

Risklərin idarə edilməsi orqanları və idarəetmə

Risklərin qiymətləndirilməsi, təsdiqi, monitorinqi və nəzarətinə aid olan risklərin idarə edilməsi qaydaları və prosesləri müvafiq Azərbaycan qanunları, AMB-nin normaları və qabaqcıl təcrübələrin tələblərinə müvafiq olaraq Bankın daxilində bir sıra ixtisaslaşmış orqanlar, o cümlədən komitələr və departamentlər tərəfindən həyata keçirilir.

Müşahidə Şurası risklərin idarə edilməsi sistemi üzrə nəzarətə görə ümumi məsuliyyət daşıyır. Bura risklərin idarə edilməsi qaydalarının və iri risklər kimi əsas risk limitlərinin, iqtisadi və məhsul sektorunun limitlərinin analizi və təsdiqi ilə yanaşı əsas risklərin idarə edilməsi daxildir. Həmçinin, Müşahidə Şurası risklərə nəzarətlə bağlı müəyyən səlahiyyətləri İdarə Heyəti, Risk Komitəsi və APİK arasında bölüşdürür. Risklərin idarə edilməsi strukturunda ümumi vəzifə və səlahiyyətlər aşağıdakı kimiidr:

Səlahiyyət	Qərar qəbul edən orqan	İcraçı rəhbərlik
Strateji və təşkilati risk	Müşahidə Şurası	İdarə Heyəti
Kredit riski	İdarə Heyəti / Risk Komitəsi	Biznes bankçılığı / Risk Departamenti
Bazar və likvidlik riski	Risk Komitəsi, APİK	Maliyyə/Xəzinədarlıq
Əməliyyat riskləri	İdarə Heyəti	Daxili Audit / Risk Departamenti

Kredit riski

Kredit riski – Bankın sifarişçiləri, müştəriləri və ya biznes tərəfdaşlarının müqavilə öhdəliklərini yerinə yetirməmələrinə görə Bankın zərər çəkməsi riskidir. Bank fərdi kreditə və ya əməliyyatlara aid olan riski, eləcə də ümumi portfel üzrə riski müəyyən edir, ölçür, monitorinqini həyata keçirir və nəzarət edir. Bank ayrı-ayrı biznes tərəfdaşları və sektor, region və məhsullar üzrə konsentrasiyalarla əlaqədar Bankın qəbul etməyə hazır olduğu risk həcminin limitlərini müəyyən edir və həmin limitlərə riayət edilməsinin monitorinqini aparır.

Bank kredit keyfiyyətinin yoxlanılması prosesini təsis etmişdir ki, girovun müntəzəm qaydada yenidən baxılması da daxil olmaqla biznes tərəfdaşlarının krediti ödəmək qabiliyyətlərində mümkün dəyişikliklərin tez müəyyən edilməsi təmin edilsin. Biznes tərəfdaşları üzrə limitlər kredit riskinin təsnifləşdirilməsi sistemindən istifadə etməklə müəyyən edilir. Risk reytinqləri müntəzəm şəkildə yenidən nəzərdən keçirilir. Kredit keyfiyyətinin yenidən baxılması prosesi Banka məruz qaldığı risklər nəticəsində potensial zərəri qiymətləndirmək, lazımi tədbirləri görmək və məruz qaldığı kredit riski üzrə adekvat kapital ayırmaq imkanını yaradır.

Kreditlə bağlı təəhhüd riskləri

Bankın müştərilərə verdiyi zəmanətlər əsasında Bank tərəfindən onların adından ödənişlər aparmaq zərurəti yarana bilər. Bu cür ödənişlər akkreditivin şərtləri əsasında müştərilərdən toplanılır. Onlar Bankı kredit risklərinə oxşar risklərə məruz qoyur, bunlar da eyni nəzarət prosesləri və qaydaları ilə azaldılır.

Maliyyə vəziyyəti haqqında hesabatın komponentləri üzrə maksimal kredit riskinin həcmi, qarşılıqlı hesablaşma haqqında əsas razılaşmaların və girov razılaşmalarının istifadə edilməsi nəticəsində riskin azalmasını nəzərə almadan, daha yaxşı onların balans dəyərləri ilə təmsil olunur.

Maliyyə alətləri ədalətli dəyərlə qeydə alınanda aşağıda göstərilən məbləğlər dəyərin dəyişməsi nəticəsində gələcəkdə yarana bilən maksimal riskin həcmini deyil, cari kredit riskinin həcmini əks etdirir.

Maliyyə alətlərinin hər bir sinfi üzrə kredit riskinin maksimal həcmi haqqında daha ətraflı məlumat xüsusi qeydlərdə açıqlanır. Girovun və riskləri kompensasiya edən digər üsulların effekti Qeyd 9-da göstərilir.

Dəyərsizləşmənin qiymətləndirilməsi

BMHS 9-un dəyərsizləşmə tələbləri amortizasiya olunmuş dəyərlə ölçülən bütün borc alətlərinə, eləcə də overdraftlar, kredit kartları, kredit xətləri və maliyyə zəmanətləri (bundan sonra "maliyyə aktivləri") kimi balansdankənar kredit öhdəliklərinə tətbiq edilmişdir.

31 Risklərin idarə edilməsi (davamı)

Ehtiyatlar ilkin tanınma vaxtı GKZ əsasında maliyyə aktivinin ilkin tanınmasından sonra uçota alınır. Ən son hesabat tarixinə 3-cü Mərhələdə olan borcalanın kredit qalığı, eləcə də maliyyə alətləri və qiymətli kağızlar kimi fərdi qaydada əhəmiyyətli kredit qalıqları üçün GKZ fərdi şəkildə qiymətləndirilir. Fərdi şəkildə əhəmiyyətli olmayan, həmçinin dəyərsizləşməsinə dair obyektiv dəlil olmayan əhəmiyyətli kredit qalıqları üçün GKZ məbləği kollektiv şəkildə qiymətləndirilir.

Bank ilkin tanınma vaxtı və hər bir hesabat tarixinə maliyyə aktivlərinin dəyərsizləşməsini qiymətləndirmək üçün BMHS 9-da nəzərdə tutulan üç mərhələli yanaşma tətbiq edir:

- **1-ci Mərhələ**: Bank maliyyə aktivləri üzrə 12 aylıq GKZ tanıyır. Bu ehtiyatlar ilkin tanınma vaxtından etibarən kredit riski əhəmiyyətli dərəcədə artmayan maliyyə aktivləri üçün hesablanır və həmin maliyyə aktivləri üçün 12 ay ərzində baş verə biləcək potensial defolt hadisələri üzrə GKZ-ni əks etdirir.
- **2-ci Mərhələ**: Bank ilkin tanınmadan sonra kredit riski əhəmiyyətli dərəcədə artan maliyyə aktivləri üçün bütöv müddət üzrə GKZ tanıyır. Bu, bütöv müddət üzrə defolt ehtimalı əsasında GKZ-nin hesablanmasını tələb edir (yəni, maliyyə aktivinin qalan bütöv müddəti ərzində baş verən defolt ehtimalı).
- **3-cü Mərhələ**: Bank dəyərsizləşmiş maliyyə aktivləri üçün 100% defolt ehtimalını əks etdirən bütöv müddət üzrə GKZ tanıyır.

Kredit risklərinin modelləşdirilməsi məqsədilə Bank maliyyə aktivlərinin dəyərsizləşməsinə 3 mərhələli yanaşma tətbiq etmişdir. İlkin tanınma zamanı maliyyə aktivləri (POCI aktivlər istisna olmaqla) 1-ci Mərhələyə aid edilir. Kontaminaysiya konsepsiyasına (istisnalar daxil olmaqla) əsasən kredit riskində əhəmiyyətli dərəcədə artım olarsa, maliyyə aktivləri borcalanın defolt statusuna əsasən 2-ci Mərhələyə və 3-cü Mərhələyə köçürülür. POCI aktivlər yarandığı zaman 3-cü Mərhələyə aid edilir.

Kredit riskinin əhəmiyyətli dərəcədə artması (SICR)

2-ci Mərhələyə təsnifləşdirilən maliyyə aktivləri üzrə ilkin tanınma vaxtından etibarən SICR baş verir. Aşağıdakı iki şərtdən biri baş verdikdə kredit riski əhəmiyyətli dərəcədə artmış hesab edilir:

- Bütün kredit məhsulları üzrə ödənişlər 30 gün gecikdirildikdə,
- Maliyyə aktivi restrukturizasiya olunduqda və ödəniş 90 gündən artıq gecikdirildikdə.

Maliyyə aktivi üzrə SICR-i qiymətləndirmək üçün Bank əldə olunması əlavə xərc tələb etməyən dəstəkləyici və əsaslandırılmış məlumatları nəzərə almışdır.

İlkin tanınma vaxtından etibarən kredit riskində əhəmiyyətli dərəcədə azalma və ya artım baş vermədikdə, maliyyə aktivləri (POCI aktivlər istisna olmaqla 1-ci Mərhələdən 2-ci Mərhələyə köçürülə bilər. Bank hesabat tarixinə maliyyə aktivi üzrə ödənişin 31 gündən az gecikdirilməsinə baxmayaraq, restrukturizasiya olunmamış kredit qalıqları üçün 6 aylıq, restrukturizasiya olunmuş kredit qalıqları üçün isə 12 aylıq sınaq müddəti tətbiq etmişdir. Bu sınaq müddəti kredit qalığı standart restrukturizasiya təsnifatına uyğun yenidən restrukturizasiya edildikdə və ya hər dəfə 30 gündən artıq gecikdirildikdə yenidən tətbiq edilir. Maliyyə aktivləri bir daha dəyərsizləşmə baş vermədiyi təqdirdə 3-cü Mərhələdən 2-ci Mərhələyə (və sonra POCI aktivlər istisna olmaqla, 1-ci Mərhələyə) köçürülə bilər. Bank hesabat tarixinə maliyyə aktivi üzrə ödənişin 91 gündən az gecikdirilməsinə baxmayaraq, dəyərsizləşmiş bütün kredit qalıqları üçün 12 aylıq sınaq müddəti tətbiq etmişdir. Bu sınaq müddəti kredit qalığı dəyərsizləşmə təsnifatına uyğun olaraq yenidən restrukturizasiya edildikdə və ya hər dəfə 90 gündən artıq gecikdirildikdə yenidən tətbiq edilir.

Restrukturizasiya olunmamış kredit qalıqları üçün əlavə olaraq borcalanlar sınaq müddəti ərzində daha aşağı Mərhələyə keçmək üçün ən az faiz ödəməli, restrukturizasiya olunmuş kreditlər üçün isə borcalanın 3-cü Mərhələ üzrə şərtləri sonuncu dəfə yerinə yetirdiyi müddətdə əsas məbləğin 10%-ni ödəməli idilər. POCI maliyyə aktivləri borcalanın gecikdirilmiş günlərindən və ya defolt vəziyyətindən asılı olmayaraq 3-cü Mərhələdən digər Mərhələyə keçə bilməz.

Kontaminasiya konsepsiyası

Bank restrukturizasiya və vaxtı keçmiş günlər üzrə kontaminasiya konsepsiyasını bütün maliyyə aktivlərinə tətbiq edir. Kontaminasiya dedikdə, borcalanın kredit qalığının hər hansı hissəsi restrukturizasiya edildiyi və/və ya gecikdirildiyi halda bütün kredit qalıqlarının restrukturizasiya edilməsi və/və ya gecikdirilməsi konsepsiyası nəzərdə tutulur. Bundan əlavə, Bank kontaminasiya konsepsiyasını ümidsiz kreditlərə (restrukturizasiya edilmiş və/və ya vaxtı keçmiş) tətbiq edir.

31 Risklərin idarə edilməsi (davamı)

Bununla yanaşı, kontaminasiya konsepsiyası aşağıdakı hallarda tətbiq edilmir:

- Texniki problemləri olan və qalığı əhəmiyyətli hesab edilməyən kredit məhsulları,
- Əhəmiyyətli hesab edilməyən kredit qalığının hər hansı hissəsi (yəni, ümumi kredit qalığının 20%-dən aşağı olan kredit).

Defoltun tərifi və defolt vəziyyətindən qayıtma

Aşağıdakı hallarda Bank defolt vəziyyətinin yarandığını hesab edir:

- Bütün kredit məhsulları üzrə ödəniş 90 gündən artıq gecikdirildikdə,
- Kredit son 12 ay ərzində restrukturizasiya edildikdə,
- Alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş aktiv olduqda.

POCI aktivlər istisna olmaqla, sonuncu defolt hadisəsindən 12 ay sonra borcalan aşağıdakı hallarda artıq defolta məruz qalmış hesab edilmir:

- Son 12 ay ərzində digər defolt hadisəsi baş vermədikdə,
- Borcalan 12 ay əvvəl əsas borcun ən azı 10%-ni ödədikdə.

Bu anlayış Bankın kapital və normativ hesabatların hazırlanmasında istifadə etdiyi defolt anlayışına uyğundur. Bundan başqa, BMHS 9-da defolt hadisəsinin əsas borc və ya faiz ödənişlərinin 90 gün gecikdirildiyi təqdirdə yaranmamasına dair təkzib oluna bilən ehtimal mövcuddur.

PD qiymətləndirmə prosesi

12 aylıq defolt ehtimalı gecikmə səbətləri, ödəmə və silinmələr arasında olan miqrasiya matrisi üsulu ilə hesablanan aylıq ortalama defolt dərəcələrinə əsasən 12-ci dərəcəyə artırılır. Bundan sonra illik ortalama defolt dərəcələri 12 aylıq miqrasiya matrisini eyni portfel qruplarının qalan bütöv müddətinə artırmaqla yaradılır. Bunlar 2-ci Mərhələ üçün bütöv müddət üzrə məcmu defolt ehtimalının hesablanması zamanı istifadə edilir. 3-cü Mərhələ və POCI maliyyə aktivləri üçün PD 100%-ə bərabərdir.

PD hesablamalarının düzgünlüyünü qiymətləndirmək üçün normal paylanma ehtimalına əsasən 95%-lik etimad səviyyəsi olan əyri altındakı sahə (AUC) formulundan istifadə edilmişdir. Bütün kredit portfeli qrupları üçün AUC 60%-dən yuxarı olmuş, etimad səviyyəsi isə 95% təşkil etmişdir. Bundan əlavə, keçid matrislərində hər bir Mərhələ üçün binomial test aparılmışdır. Bütün 6 qrup üzrə gecikmə səbətləri 95%-lik etimad səviyyəsi ilə artıq hesablanmışdır. Gecikmə səbətlərinin az hesablanması əhəmiyyətli risk sayılır. Buna baxmayaraq, 3-cü Mərhələ üçün keçid matrisinin modelləşdirilməsi ilə hesablanan PD deyil, defolt ehtimalının 100% olduğu fərz edilir.

Müştərilərin balansdankənar maliyyə aktivləri üçün aşağıdakı GKZ dərəcələri tətbiq edilir:

- borcalanın balans hesabları üzrə kredit qalıqları mövcud olduqda: Bankın kontaminasiya konsepsiyasını nəzərə alaraq borcalanın GKZ dərəcəsi;
- borcalanın balans hesabları üzrə kredit qalıqları mövcud olmadıqda: borcalanın müştəri seqmentindən (yəni, mikro kreditlər, kiçik və orta biznes kreditləri və ya istehlak kreditləri) asılı olaraq 1-ci Mərhələ üzrə restrukturizasiya olunmamış GKZ dərəcəsi.

Kollektiv şəkildə qiymətləndirilmiş bütün borcalanlar üçün LGD aşağıdakıları nəzərə alaraq diskontlaşdırılmış pul axınlarının xalis cari dəyəri kimi hesablanmışdır:

- Mülkiyyətə keçmiş girov daxil olmaqla, bütün ödənişlər;
- Hesablanmış faizlər və/və ya əsas məbləğ üzrə bütün qismən silinmələr.

Pul axınları hesabat tarixində hər bir maliyyə aktivi üzrə effektiv faiz dərəcəsindən istifadə etməklə diskontlaşdırılmışdır. BMHS 9 girovlar və kreditin keyfiyyətini artıran digər mexanizmlər üzrə gözlənilən diskontlaşdırılmış pul axınlarının istifadəsini tələb edir. Bankın borcalanlardan müxtəlif girov növlərini tələb etməsinə baxmayaraq, yalnız daşınmaz əmlak girovları üzrə gələcək ödənişlər nəzərdən keçirilmişdir və Bankın təcrübəsinə əsasən bunun həyata keçirilməsi ehtimalı daha yüksəkdir. Bank bu aktivləri müntəzəm olaraq yenidən qiymətləndirir və beləliklə, daşınmaz əmlak girovunun cari (ləğvetmə) dəyəri istifadə edilmişdir.

31 Risklərin idarə edilməsi (davamı)

2023-cü ildə Bank LGD modelinə aşağıdakı dəyişiklikləri etmişdir:

- Kreditlərin qaytarılması üçün hesablama müddəti maksimum dörd ili əhatə edir ki, bu müddətdən sonra LGD göstəricisi 100%-ə çatır.
- Fərdi qaydada qiymətləndirilən müştərilərdən bərpa olunan vəsaitlər hesablamalardan, eləcə də defolta məruz qalan dəyərdən çıxarılmışdır.
- LGD-nin hesablanması zamanı səhvə yol verməmək üçün LGD yalnız son hesabat tarixindən 18 ay və ya daha əvvəl ilk dəfə defolt etmiş borcalanlar üçün hesablanmışdır.
- Mülkiyyətə keçmiş aktivlərə ümumiləşdirilmiş yanaşma tətbiq edilmişdir. Mülkiyyətə keçmiş aktivlərin satışlarının dəyəri mülkiyyətə keçmə tarixinə orta tarixi kredit faizləri ilə diskontlaşdırıldıqdan sonra diskontlaşdırılmış dəyər mülkiyyətə keçmə tarixində həyata keçirilmiş ödəniş kimi nəzərə alınmışdır.

Mikro kreditlər, istehlak və işçilərə verilmiş kreditlər üçün Bank adətən daşınmaz əmlakı girov kimi qəbul etmir. Bank GKZ-nin hesablanması zamanı daşınmaz əmlak girovunu yalnız kiçik və orta biznes kreditləri üçün əmlakın satışından gələcək gözlənilən ödənişlər kimi əks etdirmişdir. Daşınmaz əmlakın satışı/mülkiyyətə keçməsi nəticəsində bərpa edilən gələcək məbləğlər üzrə gözlənilən pul axınları onların ilkin defolt tarixindən etibarən 4 ilə qədər yaranması ehtimalına əsasən diskontlaşdırılmışdır. Mövcud statistik məlumatlarda PD ilə daşınmaz əmlak qiymətləri arasında tam uyğunluq olmadığına görə daşınmaz əmlak üçün kreditə konvertasiya əmsalı (CCF) hesablanmamışdır.

LGD modelinə dəyişiklik GKZ-nin ümumilikdə 492 min AZN artması ilə nəticələnmişdir (Mikro kreditlər seqmentində 158 min AZN artım, istehlak kreditləri seqmentində 1,572 min AZN artım və biznes kreditləri seqmentində 1,238 min AZN azalma müşahidə olunmuşdur). 1-ci və 2-ci Mərhələ kreditləri üzrə GKZ məbləği müvafiq olaraq 585 min AZN və 176 min AZN artmış, 3-cü Mərhələ kreditlərində isə 269 min AZN azalmışdır.

Buna baxmayaraq, müştərilərin bütün kredit portfelləri üzrə LGD-nin hesablanması üçün hər bir girov növünün satışı/mülkiyyətə keçməsi nəticəsində bütün keçmiş ödənişlər nəzərə alınmış və pul axınlarının yarandığı tarixə görə diskontlaşdırılmışdır. Gələcək təxminlər 12 aylıq və bütöv müddət üzrə GKZ-yə düzəliş etmək üçün əlavə məlumat kimi daxil edilmişdir.

Fərdi şəkildə qiymətləndirilən ehtiyatlar

Fərdi qiymətləndirmə 500 min ABŞ dollarından artıq defolt olmuş kredit qalığı olan borcalanlar üzrə aparılır. Fərdi qiymətləndirmələr ehtimalla ölçülmüş ssenarilər əsasında aparılır: kreditin qaytarılması və girovun satışı/mülkiyyətə keçməsi nəticəsində gözlənilən pul axınlarının xalis cari dəyəri. Gözlənilən gələcək pul axınlarında Bank tərəfindən edilmiş müəyyən diskontlar nəzərdə tutulur və nəticədə həmin pul axınları risklə ölçülmüş hesab edilir. Həmi pul axınları hesabat tarixində hər bir maliyyə aktivi üzrə effektiv faiz dərəcəsindən istifadə etməklə diskontlaşdırılır.

Fərdi qaydada qiymətləndirilən borcalanlar üçün Bank həmin borcalanların biznesinə və onlarla aparılmış müzakirələrə və borcalanın razılığına əsasən nağd ödəniş imkanı müəyyən etmişdir. Bu qiymətləndirmələrə əsasən Bank əksər bizneslərin nağd pul axınları yarada bildiyini və yalnız həmin şirkətlərdən bəzilərinin gəlir yarada bilməyəcəyi qənaətinə gəlmişdir. Bu halda girov ən çox ehtimal olunan ödəniş mənbəyi hesab olunacaq.

Maliyyə icarəsi kreditləri spesifik xüsusiyyətlərinə və həcminin kiçik olmasına görə fərdi qaydada qiymətləndirilmişdir. Bu kreditlər aktivlərin ödəniş müddəti başa çatana qədər Bankda saxlanılmaq şərtilə, mülkiyyətə keçmiş aktivlərin satışını əhatə edir. Əvvəlcədən müəyyən edilmiş bəzi şərtlər daxilində Bank müqaviləni ləğv etmək və aktivləri geri almaq hüququna malikdir. Bununla əlaqədar olaraq, Bank əhəmiyyətli kredit riski daşımır.

Maliyyə icarəsi kreditləri üçün fərdi qaydada GKZ hesablamalarına minimum 10%-lik limit tətbiq olunmuşdur. Bu yanaşma Bankın mülkiyyətə keçmiş aktivləri 10%-dək güzəştlə reallaşdırmasına əsaslanır.

Kollektiv şəkildə qiymətləndirilən ehtiyatlar

Kollektiv şəkildə qiymətləndirmələr üçün GKZ-nin hesablanması zamanı BMHS 9-da kredit qalıqlarının kredit riskinin ümumi xüsusiyyətlərinə görə qruplaşdırılması təklif edilir. Standartda əks etdirilmiş bu meyarlara dair nümunələr aşağıda göstərilir:

- Maliyyə alətinin növü,
- Kredit riskinin reytinqləri,
- Təminatın növü,
- İlkin tanınma tarixi,

31 Risklərin idarə edilməsi (davamı)

- Ödəməyə qədər qalan müddət,
- Fəaliyyət sahəsi,
- Borcalanın coğrafi yerləşməsi.

Mikro kreditlər	Kiçik və orta biznes kreditləri	İstehlak kreditləri
Restrukturizasiya olunmuş kreditlər • 2016-cı ilə qədər verilmiş restrukturizasiya olunmamış kreditlər	Restrukturizasiya olunmuş kreditlər • 2016-cı ilə qədər verilmiş restrukturizasiya olunmamış kreditlər	Restrukturizasiya olunmuş kreditlər • 2016-cı ilə qədər verilmiş restrukturizasiya olunmamış kreditlər
2015-ci ildən sonra verilmiş restrukturizasiya olunmamış kreditlər	2015-ci ildən sonra verilmiş restrukturizasiya olunmamış kreditlər	2015-ci ildən sonra verilmiş restrukturizasiya olunmamış kreditlər

2016-cı ilə qədər verilmiş restrukturizasiya olunmuş və restrukturizasiya olunmamış kreditlər makroiqtisadi böhranın təsirinə daha çox məruz qalmışdır və bu səbəbdən Bank bu müştərilərin kredit portfellərini qruplaşdırmışdır.

Defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (LGD)

Borcalanın ödəniş qabiliyyəti olmadıqda, Bank LGD-nin hesablanması zamanı yuxarıda qeyd edilən kontaminasiya konsepsiyasını tətbiq edir. Bankın hesabladığı LGD aşağıdakılardan asılıdır:

- borcalanın defolta məruz qalan dəyəri;
- təhlil dövrü;
- təhlil dövrü ərzində kreditlərin qaytarılması, girovun satışı və ya mülkiyyətə keçiməsi.
- son defolt tarixindən sonrakı illər.

Ekspert mülahizəsinə əsasən Bank təhlil dövrünü 4 ilədək və ya borcalanın ödəniş edə bilmədiyi ilk tarixdən kreditin silinməsinə qədər olan müddət kimi qiymətləndirir. Yəni, silinmiş portfel üzrə geri qaytarılan kreditlər LGD-nin hesablanması üçün nəzərə alınmır.

Defolta məruz qalan dəyər (EAD)

Ekspert mülahizəsinə əsasən bərpa olunan maliyyə aktivləri və balansdankənar kredit öhdəlikləri üçün EAD Bank tərəfindən təsdiqlənmiş limit və/və ya öhdəlik hesab edilir. Beləliklə, EAD Bankın maliyyə hesabatlarında göstərilən kredit qalıqlarına uyğun olmur. Bu portfel ümumi kredit qalıqlarının ortalama 1%-dən az hissəsini təşkil edir və buna görə, EAD modelinin yaradılması üçün kifayət qədər statistik məlumatlar mövcud deyil. Beləliklə, Bank kredit riskinin əhəmiyyətli dərəcədə artmasına dair sübutlardan əvvəl borcalanın defolt edəcəyi halda təsdiqlənmiş kredit həddini tam istifadə edəcəyi ehtimalının yüksək olmasını fərz edərək, daha konservativ yanaşma seçmişdir. Belə portfelin həcminə görə həmin fərziyyə yekun GKZ-nin hesablanmasına əhəmiyyətli təsir göstərmir.

Bütün digər maliyyə aktivləri üçün Bank hesabat tarixinə kredit qalıqlarını (hesablanmış faizlər daxil olmaqla) nəzərə almışdır.

Proqnozlaşdırılan modelləşdirmə

GKZ modellərində Bank iqtisadi göstəricilər kimi bir sıra geniş proqnozlaşdırılan məlumatlara əsaslanır, məsələn: qeyri-neft ÜDM-nin artım tempi, Brent markalı neftin qiyməti və İstehlak Qiymətləri İndeksi (CPI). 2023-cü il ərzində bu göstəricilərə bəzi dəyişikliklər edilmişdir və həmin dəyişikliklər Qeyd 4-də göstərilir.

- Azalma və artım ssenariləri - hökumət və beynəlxalq maliyyə təşkilatlarının proqnozları nəzərə alınmaqla, Bankın ekspert rəyi əsasında yaradılmışdır.

31 Risklərin idarə edilməsi (davamı)

- Gələcək məlumatların GKZ modellərinə daxil edilməsi üçün Bank ehtimalla ölçülmüş 3 ssenarili modelə əsaslanan makro-faktor hesablayır: Baza ssenari hər iki tərəfdən risklər ilə tarazlaşdırılmış ən çox ehtimal edilən iqtisadi vəziyyəti əks etdirir. Bank AMB və Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilmiş və portfel üçün ən uyğun hesab edilən bir sıra makroiqtisadi dəyişənləri (məs: valyuta məzənnələri, kapital qoyuluşu, nominal orta əmək haqqı, Brent markalı neftin qiyməti, qeyri-neft ÜDM-nin artım tempi, İstehlak Qiymətləri İndeksi və ÜDM-nin real artım tempi) əhatə edən və bu dəyişənlər üzrə həmin təşkilatların ən çox ehtimal edilən inkişaf istiqamətlərini əks etdirən makroiqtisadi proqnozlardan istifadə etmişdir. Bu dəyişənlər üçillik müddət üçün proqnozlaşdırılır. Maliyyə aktivlərinin qalan bütöv müddətinə uyğun gələcək proqnozlaşdırılan illər olmadıqda, Bank qalan proqnozlaşdırılan illər üçün 3-cü ildən istifadə etmişdir. Alternativ ssenarilər müxtəlif iqtisadi şokları nəzərdə tutur. İqtisadi şoklar cari şəraitə uyğunluğuna görə seçilir.

Ən çox ehtimal olunan ssenari hökumət və beynəlxalq maliyyə təşkilatlarının proqnozlarına əsaslanır və buna görə bu ssenarilərin baş vermə ehtimalı 50%-dir. Digər ssenarilərin (azalma və artım ssenariləri) baş vermə şansları eynidir (25%). Əvvəlki dövrlərdə çox nadir hallarda faktiki nəticələr proqnozlaşdırılan nəticələr ilə müqayisədə 25%-lik həddən artıq olmuşdur.

Maliyyə aktivlərinin növləri üzrə kredit keyfiyyəti

Kənar reytinqlər. Kontragentlərə kənar reytinqlər S&P, Moody's və Fitch kimi müstəqil beynəlxalq reytinq agentlikləri tərəfindən təyin edilir. Bu reytinqlər ictimaiyyətə açıqdır. Həmin reytinqlər və müvafiq PD intervalları aşağıdakı maliyyə alətlərinə tətbiq edilir: AMB-dən alınacaq vəsaitlər, müxbir hesablar üzrə qalıqlar, o cümlədən overnayt depozitlər və müddətli depozitlər, borc qiymətli kağızlara investisiyalar.

Vahid şkala üzrə ödəmə qabiliyyəti dərəcələri	Kənar beynəlxalq reytinq agentliklərinin müvafiq reytinqləri (Moody's)	Müvafiq PD intervalı
Ən yüksək dərəcə	Reytinqi Aaa dan Baa3 dək	0,01% - 0,5%
Yüksək dərəcə	Reytinqi Ba1 dən B1 dək	0,51% - 3%
Orta dərəcə	Reytinqi B2, B3	3% - 10%
Xüsusi monitorinq tələb edir	Reytinqi Caa1+ dən Ca- dək	10% - 99,9%
Defolt	Reytinqi C	100%

Vahid şkala üzrə kredit riskinin hər bir səviyyəsi üçün müəyyən ödəmə qabiliyyəti dərəcələri təyin olunur:

- *Ən yüksək dərəcə* – aşağı kredit riski olan yüksək keyfiyyətli aktivlər;
- *Yüksək dərəcə* – orta kredit riski olan kifayət qədər keyfiyyətli aktivlər;
- *Orta dərəcə* – qənaətbəxş kredit riski olan orta keyfiyyətli aktivlər;
- *Xüsusi monitorinq tələb edir* – daha ətraflı monitorinq və bərpaedici idarəetmə tələb edən kreditləşdirmə mexanizmləri; və
- *Defolt* – defolt hadisəsi baş vermis kreditləşdirmə mexanizmləri.

Maliyyə aktivlərinin kredit keyfiyyəti hər bir müvafiq Qeyddə açıqlanır.

31 dekabr 2023 və 31 dekabr 2022-ci il tarixlərinə zəmanətlər və kreditlərlə bağlı öhdəliklərin Mərhələlər üzrə bölgüsü aşağıdakı kimidir. Daha ətraflı məlumat üçün Qeyd 26-ya baxın.

31 dekabr 2023-cü il tarixinə	**1-ci Mərhələ**	**Cəmi**
Maliyyə zəmanətləri	9,094	9,094
İstifadə edilməmiş kreditlər üzrə öhdəliklər	17,177	17,177
Cəmi	**26,271**	**26,271**

31 dekabr 2022-ci il tarixinə	**1-ci Mərhələ**	**Cəmi**
Maliyyə zəmanətləri	9,892	9,892
İstifadə edilməmiş kreditlər üzrə öhdəliklər	14,195	14,195
Cəmi	**24,087**	**24,087**

31 Risklərin idarə edilməsi (davamı)

Bankın maliyyə aktivləri və öhdəlikləri üzrə coğrafi konsentrasiya aşağıdakı kimidir:

	2023				2022			
	Azərbaycan	**İƏİT**	**MDB və digər ölkələr**	**Cəmi**	**Azərbaycan**	**İƏİT**	**MDB və digər ölkələr**	**Cəmi**
Maliyyə aktivləri								
Pul vəsaitləri və onların ekvivalentləri	81,769	80,933	1,824	164,526	109,677	8,925	356	118,958
Kredit təşkilatlarından alınacaq məbləğlər	65,909	2	-	65,911	32,674	586	-	33,260
İnvestisiya qiymətli kağızları	76,543	17,269	-	93,812	80,849	13,398	-	94,247
Müştərilərə verilmiş kreditlər	990,282	-	-	990,282	790,773	-	-	790,773
Digər maliyyə aktivləri	12,797	1,375	609	14,781	6,992	1,427	314	8,733
Cəmi maliyyə aktivləri	**1,227,300**	**99,579**	**2,433**	**1,329,312**	**1,020,965**	**24,336**	**670**	**1,045,971**
Maliyyə öhdəlikləri								
Kredit təşkilatları qarşısında öhdəliklər	23,541	-	-	23,541	49,910	-	-	49,910
Müştərilər qarşısında öhdəliklər	1,036,913	12,520	29,440	1,078,873	848,762	12,809	22,046	883,617
Borc öhdəlikləri	84,489	-	-	84,489	29,879	-	-	29,879
Digər maliyyə öhdəlikləri	5,869	667	3,068	9,604	4,883	42	82	5,007
Törəmə maliyyə öhdəlikləri	1,080	-	-	1,080	3,804	-	-	3,804
Buraxılmış borc qiymətli kağızları	-	-	-	-	8,543	-	-	8,543
Subordinasiyalı kreditlər	-	34,376	-	34,376	-	31,103	-	31,103
Cəmi maliyyə öhdəlikləri	**1,151,892**	**47,563**	**32,508**	**1,231,963**	**945,781**	**43,954**	**22,128**	**1,011,863**
Balans üzrə maliyyə alətlərinin xalis mövqeyi	**75,408**	**52,016**	**(30,075)**	**97,349**	**75,184**	**(19,618)**	**(21,458)**	**34,108**
Kreditlərlə bağlı öhdəliklər	**24,535**	**-**	**-**	**24,535**	**23,087**	**-**	**-**	**23,087**

31 Risklərin idarə edilməsi (davamı)

Likvidlik riski və maliyyələşdirmənin idarə edilməsi

Likvidlik riski adi və ya fövqəladə şəraitdə ödəniş tarixində Bankın ödənişlə bağlı öhdəliklərini yerinə yetirə bilməməsi riskidir. Bu riski məhdudlaşdırmaq məqsədilə rəhbərlik mövcud müştərilərin bank əmanətləri məbləğindən əlavə müxtəlif maliyyələşdirmə mənbələrini təmin etmişdir. Aktiv-passivlərin idarə edilməsi çərçivəsində Bank gözlənilən pul vəsaitlərinin hərəkəti əsasında likvidlik vəziyyətinin gündəlik monitorinqini həyata keçirir.

Bank AMB-də və İƏİT ölkələrindəki yüksək reytinqli beynəlxalq banklardakı hesablarda hər zaman pul vəsaitləri formasında kifayət edən səviyyədə likvidli vəsaitlər saxlamaq siyasətini tətbiq edir. Bundan əlavə, Bank AMB-də pul depoziti (məcburi ehtiyat) yerləşdirmiş və onun məbləği cəlb edilmiş müştəri əmanətlərinin səviyyəsindən asılıdır.

Likvidlik vəziyyəti Bank tərəfindən əsasən müstəqil şəkildə qiymətləndirilir və idarə edilir və qanunvericiliyin tələblərinə əsasən monitorinqi aparılır. Likvidlik vəziyyətini qiymətləndirmək üçün AMB tərəfindən təyin edilmiş əsas normativ yüksək likvidli aktivlərin yüksək likvidli öhdəliklərə nisbəti kimi müəyyən edilən ani likvidlik əmsalıdır. 31 dekabr 2023-cü il tarixinə bu əmsal AMB-nin müəyyən etdiyi 30% səviyyəsində minimum hədlə müqayisədə 74% (31 dekabr 2022: 64%) təşkil etmişdir.

Xəzinədarlıq departamenti maliyyə aktivləri və öhdəlikləri üzrə likvidlik profilinə dair məlumat əldə edir. Bundan sonra, Xəzinədarlıq departamenti Bankda kifayət qədər likvidliyin təmin edilməsi məqsədilə, əsasən satış üçün nəzərdə tutulan qısamüddətli likvid qiymətli kağızlardan, banklardakı depozitlərdən və digər banklararası kreditlərdən ibarət olan qısamüddətli likvid aktivlər üzrə portfelin adekvatlığını təmin edir. Likvidlik mövqeyinə hər gün nəzarət olunur və Xəzinədarlıq departamenti tərəfindən mütəmadi olaraq standart və daha əlverişsiz bazar şərtlərini əhatə edən müxtəlif ssenarilər əsasında likvidlik üzrə həssaslıq testləri apraılır.

Maliyyə aktiv və öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili

Maliyyə öhdəliklərinin müqavilə üzrə ödəmə müddətlərinə görə təhlili

Aşağıdakı cədvəldə 31 dekabr 2023-cü il tarixinə öhdəliklər müqavilə üzrə ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlər müqavilə üzrə diskontlaşdırılmamış pul axınlarını, o cümlədən maliyyə icarəsi üzrə ümumi öhdəlikləri (gələcək maliyyə məsrəflərinin çıxılmasından əvvəl), kreditlər üzrə öhdəlikləri və maliyyə zəmanətlərini əks etdirir. Belə diskontlaşdırılmamış pul axınları maliyyə vəziyyəti haqqında hesabatdakı məbləğlərdən fərqlənir, belə ki, maliyyə vəziyyəti haqqında hesabatda göstərilən məbləğlər diskontlaşdırılmış pul axınlarına əsasən hesablanır.

Törəmə maliyyə alətləri Bankın törəmə alət üzrə mövqeyini onların ödəmə tarixindən əvvəl bağlamağı gözləmədiyi təqdirdə, müqaviləyə əsasən ödəniləcək və ya alınacaq məbləğə daxil edilir. Bu halda törəmə alətlər gözlənilən pul axınlarına əsasən daxil edilir. Ödəmə müddətinin təhlili məqsədilə əlaqəli törəmə alətlər hibrid (birləşdirilmiş) maliyyə alətlərindən ayrılmır.

Ödənilməli məbləğ sabit olmadığı hallarda, cədvəldə göstərilən məbləğlər hesabat dövrünün sonuna mövcud olan şərtlərə istinadən müəyyən edilir. Xarici valyuta ilə ödənişlər hesabat dövrünün sonuna olan spot məzənnəsindən istifadə etməklə çevrilir.

Tələb əsasında ödənilməli olan öhdəliklər belə ödəniş tələbinin mümkün olan ən tez tarixdə verilmiş kimi göstərilmişdir. Azərbaycan qanunvericiliyinə uyğun olaraq Bankın əmanətçinin tələbinə əsasən əmanətin əsas məbləğlərini ödəmək öhdəliyi var. Lakin, əmanətlərin saxlanması tarixçəsinə uyğun olaraq Bank əmanətlərin orta saxlanma müddətlərinin aşağıda göstərilən müştəri əmanətlərinin müqavilə üzrə ödəmə müddətindən çox olacağını gözləyir. Fiziki şəxslərin müddətli depozitləri müqavilə üzrə ödəmə tarixlərində müştərilər qarşısında öhdəliklərə daxil edilir. Beynəlxalq kreditorlardan cəlb edilmiş borc vəsaitləri aşağıdakı cədvəldə müqavilə üzrə razılaşdırılmış ödəniş cədvəlinə əsasən verilmişdir.

31 Risklərin idarə edilməsi (davamı)

31 dekabr 2023-cü il tarixinə maliyyə öhdəliklərinin müqavilə üzrə ödəmə müddətlərinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

	1 aydan az	1 - 6 ay	6 - 12 ay	1 - 5 il	5 ildən çox	Cəmi
Maliyyə öhdəlikləri						
Kredit təşkilatları qarşısında öhdəliklər	(3,073)	(10,355)	(10,853)	-	-	(24,281)
Müştərilər qarşısında öhdəliklər	(412,555)	(167,890)	(311,130)	(241,139)	(2,700)	(1,135,414)
Borc öhdəlikləri	-	(3,190)	(10,509)	(84,663)	(5,783)	(104,145)
İcarə öhdəlikləri	(216)	(613)	(850)	(3,586)	(49)	(5,314)
Buraxılmış borc qiymətli kağızları	-	8,734	-	-	-	8,734
Subordinasiyalı kreditlər	-	(92)	(13,058)	(8,623)	(23,269)	(45,042)
Hesablaşması ümumi aparılan svoplar						
- müqavilə üzrə ödəniləcək məbləğlər	(224)	-	(28,244)	-	-	(28,468)
- müqavilə üzrə alınacaq məbləğlər	34	-	27,359	-	-	27,393
Hesablaşması xalis aparılan törəmə alətlər	-	(1,080)	-	-	-	1,080
Kreditlərlə bağlı ümumi öhdəliklər	(17,177)	-	-	-	-	(17,177)
Maliyyə zəmanətləri	(9,094)	-	-	-	-	(9,094)
Digər maliyyə öhdəlikləri	(9,604)	-	-	-	-	(9,604)
Maliyyə öhdəlikləri üzrə cəmi potensial gələcək ödənişlər	**(451,909)**	**(174,486)**	**(347,285)**	**(338,011)**	**(31,801)**	**(1,343,492)**

31 dekabr 2022-ci il tarixinə maliyyə öhdəliklərinin müqavilə üzrə ödəmə müddətlərinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

	1 aydan az	1 - 6 ay	6 - 12 ay	1 - 5 il	5 ildən çox	Cəmi
Maliyyə öhdəlikləri						
Kredit təşkilatları qarşısında öhdəliklər	(30,168)	(2,631)	(18,375)	-	-	(51,174)
Müştərilər qarşısında öhdəliklər	(314,997)	(219,554)	(269,817)	(122,684)	(2,074)	(929,126)
Borc öhdəlikləri	(24)	(121)	(2,132)	(23,807)	(4,190)	(30,274)
İcarə öhdəlikləri	(133)	(637)	(733)	(3,016)	(67)	(4,586)
Buraxılmış borc qiymətli kağızları	-	(234)	(234)	(8,734)	-	(9,202)
Subordinasiyalı kreditlər	-	(91)	(92)	(19,614)	(25,428)	(45,225)
Hesablaşması ümumi aparılan svoplar						
- müqavilə üzrə ödəniləcək məbləğlər	(1,502)	-	(54,536)	-	-	(56,038)
- müqavilə üzrə alınacaq məbləğlər	92	-	52,843	-	-	52,935
Hesablaşması xalis aparılan törəmə alətlər	-	-	(3,804)	-	-	(3,804)
Kreditlərlə bağlı ümumi öhdəliklər	(14,195)	-	-	-	-	(14,195)
Maliyyə zəmanətləri	(9,892)	-	-	-	-	(9,892)
Digər maliyyə öhdəlikləri	(5,007)	-	-	-	-	(5,007)
Maliyyə öhdəlikləri üzrə cəmi potensial gələcək ödənişlər	**(375,826)**	**(223,268)**	**(296,880)**	**(177,855)**	**(31,759)**	**(1,105,588)**

İstifadə edilməmiş hər bir kredit öhdəliyi müştərinin icra edilməsini tələb edə bildiyi ən erkən tarixin təsadüf etdiyi müddətə daxil edilir. Buraxılmış maliyyə zəmanəti haqqında müqavilələrlə bağlı zəmanətin maksimal məbləği həmin zəmanətin tələb edilə bildiyi ən erkən dövrə aid edilir. Bank bütün şərti öhdəliklərin və ya təəhhüdlərin aşağıda göstərildiyi kimi, müqavilə öhdəliklərinin müddəti bitənə qədər istifadə ediləcəyini gözləmir.

	1 aydan az	1 - 6 ay	6 - 12 ay	1 - 5 il	5 ildən çox	Cəmi
2023	5,048	11,526	5,632	4,055	10	**26,271**
2022	5,479	7,360	5,325	5,923	-	**24,087**

31 Risklərin idarə edilməsi (davamı)

Aşağıdakı cədvəllərdə diskontlaşdırma nəzərə alınmaqla öhdəliklərin müqavilədə nəzərdə tutulan ödəmə müddətləri üzrə Bankın likvidlik çatışmazlığı göstərilir. 31 dekabr 2023-cü il tarixinə maliyyə alətlərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı kimi olmuşdur:

	Tələb edilənədək və 1 aydan az	1 - 6 ay	6 - 12 ay	12 ay - 5 il	5 ildən çox	Cəmi
Aktivlər						
Pul vəsaitləri və onların ekvivalentləri	164,526	-	-	-	-	164,526
Borc qiymətli kağızlara investisiyalar	26,762	25,182	9,423	32,444	-	93,811
Kredit təşkilatlarından alınacaq məbləğlər	62,239	-	3,672	-	-	65,911
Müştərilərə verilmiş kreditlər	84,390	211,308	229,251	460,718	4,614	990,281
Digər maliyyə aktivləri	14,781	-	-	-	-	14,781
Cəmi	**352,698**	**236,490**	**242,346**	**493,162**	**4,614**	**1,329,310**
Öhdəliklər						
Kredit təşkilatları qarşısında öhdəliklər	(3,068)	(10,185)	(10,288)	-	-	(23,541)
Müştərilər qarşısında öhdəliklər	(412,122)	(161,537)	(288,060)	(214,035)	(3,119)	(1,078,873)
Borc öhdəlikləri	-	(825)	(7,186)	(70,695)	(5,783)	(84,489)
İcarə öhdəlikləri	(185)	(394)	(562)	(2,488)	(32)	(3,661)
Buraxılmış borc qiymətli kağızları	-	(8,543)	-	-	-	(8,543)
Subordinasiyalı kreditlər	-	(88)	(12,640)	(6,702)	(14,946)	(34,376)
Hesablaşması ümumi aparılan svoplar						
- daxil olan məbləğlər	34	-	27,200	-	-	27,234
- istifadə edilən məbləğlər	(224)	-	(27,200)	-	-	(27,424)
Hesablaşması xalis aparılan törəmə alətlər	-	-	-	(1,080)	-	(1,080)
Kreditlərlə bağlı ümumi öhdəliklər	(17,177)	-	-	-	-	(17,177)
Maliyyə zəmanətləri	(9,094)	-	-	-	-	(9,094)
Digər maliyyə öhdəlikləri	(9,604)	-	-	-	-	(9,604)
Maliyyə öhdəlikləri üzrə cəmi potensial gələcək ödənişlər	**(451,440)**	**(181,572)**	**(318,736)**	**(295,000)**	**(23,880)**	**(1,270,628)**
Maliyyə alətləri üzrə likvidlik kəsiri	**(98,742)**	**54,918**	**(76,390)**	**198,162**	**(19,266)**	**58,682**
Məcmu likvidlik kəsiri	**(98,742)**	**(43,824)**	**(120,214)**	**77,948**	**58,682**	

31 Risklərin idarə edilməsi (davamı)

31 dekabr 2022-ci il tarixinə maliyyə alətlərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı kimi olmuşdur:

	Tələb edilənədək və 1 aydan az	1 - 6 ay	6 - 12 ay	12 ay - 5 il	5 ildən çox	Cəmi
Aktivlər						
Pul vəsaitləri və onların ekvivalentləri	118,958	-	-	-	-	118,958
Borc qiymətli kağızlara investisiyalar	69,672	-	-	24,575	-	94,247
Kredit təşkilatlarından alınacaq məbləğlər	32,674	-	586	-	-	33,260
Müştərilərə verilmiş kreditlər	55,867	164,803	187,499	378,272	4,332	790,773
Digər maliyyə aktivləri	8,733	-	-	-	-	8,733
Cəmi	**285,904**	**164,803**	**188,085**	**402,847**	**4,332**	**1,045,971**
Öhdəliklər						
Kredit təşkilatları qarşısında öhdəliklər	(29,910)	(2,000)	(18,000)	-	-	(49,910)
Müştərilər qarşısında öhdəliklər	(314,732)	(213,154)	(248,666)	(104,991)	(2,074)	(883,617)
Borc öhdəlikləri	-	-	(2,132)	(23,557)	(4,190)	(29,879)
İcarə öhdəlikləri	(107)	(499)	(558)	(2,091)	(9)	(3,264)
Buraxılmış borc qiymətli kağızları		(228)	(222)	(8,093)	-	(8,543)
Subordinasiyalı kreditlər	-	(89)	(86)	(16,516)	(14,412)	(31,103)
Hesablaşması ümumi aparılan svoplar						
- daxil olan məbləğlər	92	-	52,700	-	-	52,792
- istifadə edilən məbləğlər	(1,502)	-	(52,700)	-	-	(54,202)
Hesablaşması xalis aparılan törəmə alətlər	-	-	(3,804)	-	-	(3,804)
Kreditlərlə bağlı ümumi öhdəliklər	(14,195)	-	-	-	-	(14,195)
Maliyyə zəmanətləri	(9,892)	-	-	-	-	(9,892)
Digər maliyyə öhdəlikləri	(5,007)	-	-	-	-	(5,007)
Maliyyə öhdəlikləri üzrə cəmi potensial gələcək ödənişlər	**(375,253)**	**(215,970)**	**(273,468)**	**(155,248)**	**(20,685)**	**(1,040,624)**
Maliyyə alətləri üzrə likvidlik kəsiri	**(89,349)**	**(51,167)**	**(85,383)**	**247,599**	**(16,353)**	**5,347**
Məcmu likvidlik kəsiri	**(89,349)**	**(140,516)**	**(225,899)**	**21,700**	**5,347**	

Bankın öhdəlikləri yerinə yetirmək qabiliyyəti müəyyən müddət ərzində aktivlərin ekvivalent məbləğini reallaşdırmaq qabiliyyətindən asılıdır. Ödəmə müddətləri üzrə fərqlərin təhlili cari hesablarda tarixi sabitliyi əks etdirmir. Onların ödənilməsi tarixən yuxarıdakı cədvəllərdə göstərilən müddətlərdən daha uzun müddətdə aparılırdı. Bu qalıqlar yuxarıdakı cədvəllərdə bir aydan az müddət ərzində ödənilməli məbləğlərə daxil edilmişdir. Rəhbərlik hesab edir ki, müştəri hesablarının böyük hissəsinin "tələb edilənədək" statusuna malik olmasına baxmayaraq, həmin depozitlərin əmanətçilərin sayına və növünə görə diversifikasiyası, eləcə də Bankın keçmiş təcrübəsi göstərir ki, belə müştəri hesabları Bankın fəaliyyəti üçün uzunmüddətli və sabit maliyyə mənbəyi yaradır.

Müştərilər qarşısında öhdəliklərə fiziki şəxslərin müddətli depozitləri daxildir. Azərbaycan qanunvericiliyinə uyğun olaraq Bank bu depozitləri əmanətçinin tələbi ilə qaytarmalıdır. Qeyd 20-yə baxın.

Qeyd 26-da göstərildiyi kimi, Bank 31 dekabr 2023-cü il tarixinə maliyyələşdirmə müqavilələrində nəzərdə tutulan xüsusi maliyyə şərtlərinə riayət etmişdir.

Bazar riski

Bazar riski maliyyə alətlərinin gələcək pul vəsaitləri hərəkətlərinin ədalətli dəyəri faiz dərəcəsi və valyuta məzənnələri kimi bazar parametrlərində dəyişikliklər nəticəsində tərəddüd etməsi riskidir. Bankın heç bir ticarət pozisiyalarını saxlamır. Qeyri-ticarət mövqeləri həssaslıq təhlilindən istifadə etməklə idarə və monitorinq edilir. Xarici valyutalarla konsentrasiyalar istisna olmaqla, Bankın əhəmiyyətli bazar riski konsentrasiyaları yoxdur.

31 Risklərin idarə edilməsi (davamı)

Faiz dərəcəsi riski

Faiz dərəcəsi riski maliyyə alətlərinin ədalətli dəyərinin və ya gələcək pul axınları üzrə faiz dərəcələrinin artması/azalması nəticəsində dəyişməsi riskidir. Aktivlərin və Passivlərin İdarəedilməsi Komitəsi müntəzəm olaraq aktiv və öhdəliklər üzrə faiz dərəcələrinin strukturunu ətraflı təhlil edərək, ümumi faiz spredini nəzərdən keçirir. Bank mütəmadi olaraq faiz kəsirini nəzarətdə saxlayır. 31 dekabr 2023 və 2022-ci il tarixl'rinə Bankın dəyişən dərəcəli maliyyə aktivi və öhdəlikləri mövcud olmamışdır.

Valyuta riski

Valyuta riski - maliyyə alətinin dəyərinin xarici valyuta dərəcələrində dəyişikliklərə görə tərəddüd etməsi riskidir. İdarə Heyəti AMB göstərişlərinə uyğun olaraq açıq valyuta mövqeləri üzrə limitlər müəyyən etmişdir. Mövqelərə gündəlik monitorinq edilir.

Aşağıdakı cədvəldə 31 dekabr tarixində Bankın qeyri-ticarət monetar aktivləri və öhdəlikləri və proqnozlaşdırılmış pul axınları üzrə əhəmiyyətli riskə məruz qaldığı valyutalar göstərilir. Təhlil bütün digər dəyişənlərin sabit qalması şərti ilə, valyuta məzənnəsinin AZN-ə qarşı məntiqi dərəcədə mümkün olan hərəkətinin mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata təsirini (valyutaya qarşı həssas olan qeyri-ticarət monetar aktivlərin və öhdəliklərin ədalətli dəyərinə görə) hesablayır. Kapitala təsir mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata təsirdən fərqlənmir. Cədvəldə mənfi məbləğ mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda və ya kapitalda potensial xalis azalmanı, müsbət məbləğ isə xalis potensial artımı əks etdirir.

	31 dekabr 2023				31 dekabr 2022			
	Monetar maliyyə aktivləri	**Monetar maliyyə öhdəlikləri**	**Törəmə alətlər**	**Xalis mövqe**	**Monetar maliyyə aktivləri**	**Monetar maliyyə öhdəlikləri**	**Törəmə alətlər**	**Xalis mövqe**
USD	131,897	(175,597)	46,232	2,532	152,207	(186,461)	51,234	16,980
EUR	12,155	(10,184)	-	1,971	13,833	(13,839)	-	(6)
GBP	147	(2,286)	-	(2,139)	5,807	(5,437)	-	370
Cəmi	**144,199**	**(188,067)**	**46,232**	**2,364**	**171,847**	**(205,737)**	**51,234**	**17,344**

Valyuta	***Məzənnədə artım* %, 2023***	***Vergidən əvvəlki mənfəətə təsir 2023***	***Məzənnədə artım* %, 2022***	***Vergidən əvvəlki mənfəətə təsir 2022***
USD/AZN	14.00	(173)	14.00	(4,796)
EUR/AZN	14.00	276	14.00	373
GBP/AZN	14.00	(299)	14.00	73

** Bu, cədvəldə göstərilən valyutaların Azərbaycan manatına qarşı bahalaşmasını göstərir (törəmə maliyyə alətləri üzrə müqavilələr nəzərə alınmaqla).*

Valyuta	***Məzənnədə azalma** %, 2023***	***Vergidən əvvəlki mənfəətə təsir 2023***	***Məzənnədə azalma** %, 2022***	***Vergidən əvvəlki mənfəətə təsir 2022***
USD/AZN	(3.00)	37	(3.00)	1,028
EUR/AZN	(3.00)	(59)	(3.00)	318
GBP/AZN	(3.00)	64	(3.00)	7

*** Bu, cədvəldə göstərilən valyutaların Azərbaycan manatına qarşı ucuzlaşmasını göstərir (törəmə maliyyə alətləri üzrə müqavilələr nəzərə alınmaqla).*

Bankın ABŞ dollarında ifadə olunan kreditləri mövqeyi "Müştərilərə verilmiş kreditlər" hissəsində tədricən azalır. Açıq valyuta mövqeyi təznimləyici orqanın hesabatlıq qaydalarına uyğun olaraq idarə olunur (hedcləşdirilir).

31 Risklərin idarə edilməsi (davamı)

Əməliyyat riski

Əməliyyat riski - sistemlərin nasazlığı, işçilərin səhvi, saxtakarlıq və ya xarici hadisələr nəticəsində yaranan riskdir. Nəzarət sistemi işləməyəndə əməliyyat riskləri nüfuza xələl gətirə, hüquqi nəticələrə və ya maliyyə zərərlərinə gətirib çıxara bilər. Bank bütün əməliyyat risklərinin aradan götürülməsini təmin edə bilməz, lakin Bankın bu riskləri idarə etmək üçün nəzarət mexanizmi var. Nəzarət mexanizmlərinə vəzifələrin səmərəli bölüşdürülməsi, sistemə giriş, avtorizasiya və üzləşdirmə prosedurları, heyətin təlimləndirilməsi və qiymətləndirilməsi prosesləri, eləcə də daxili auditdən istifadə daxildir.

Bank onun, müştərilərinin və qanunların qorunmasına xidmət edən, ciddi KYC siyasətində mərkəzləşmiş əməliyyat risklərinin idarə edilməsi üçün təfsilatlı prosedurlar qəbul etmişdir. Prosedurlar FATF və digər beynəlxalq tövsiyələrə əsasən hazırlanmışdır. T24 bank proqramı istənilən zaman rəhbərliyin təhlili üçün ən son məlumatların əlçatan olmasını təmin etməklə əməliyyat risklərinin idarəedilməsini təkmilləşdirir.

Daxili Audit Departamenti (DAD) risklərin idarəedilməsi prosesində fəal iştirak edir. DAD Bankın proseslərinin və nəzarət sisteminin effektivliyini təmin etdiyi zaman qarşılaşdığı mühüm normativ, maliyyə və əməliyyat riskləri üzərində diqqəti cəmləyir və onları təhlil edir. Daha yüksək riskli sahələrdəki proseslər üzərində diqqəti cəmləyən risk əsaslı audit yanaşması qəbul edilmişdir. Daxili nəzarət mexanizmləri onların Bankın fəaliyyətinə müvafiqliyini və uyğunluğunu yoxlamaq məqsədilə sınaqdan keçirilmişdir. Auditi aparılan bütün sahələrdə rəhbərlik fəaliyyət üzərində fəaliyyət və proseslərə xas olan risk səviyyələrinə uyğun müvafiq nəzarət vasitələrini tətbiq edir.

32 Ədalətli dəyərin ölçülməsi

Ədalətli dəyər iyerarxiyası

Maliyyə alətlərinin ədalətli dəyərini qiymətləndirmə mexanizmləri ilə müəyyən etmək və açıqlamaq üçün Bank aşağıdakı iyerarxiyadan istifadə edir:

- Səviyyə 1: oxşar aktiv və öhdəliklər üçün fəal bazarda müəyyən edilmiş (düzəliş edilməmiş) qiymətlər;
- Səviyyə 2: uçota alınmış ədalətli dəyərə əhəmiyyətli təsir göstərən, birbaşa və ya dolayı yolla bazarda müşahidə edilən ilkin məlumatlardan istifadə edən digər mexanizmlər;
- Səviyyə 3: uçota alınmış ədalətli dəyərə əhəmiyyətli təsir göstərən, müşahidə edilən bazar məlumatlarına əsaslanmayan ilkin məlumatlardan istifadə edən mexanizmlər.

Ədalətli dəyəri açıqlamaq üçün Bank aktiv və öhdəliklərin növlərini aktiv və ya öhdəliyin təbiəti, xüsusiyyətləri və riskləri, eləcə də ədalətli dəyər iyerarxiyasının səviyyələri əsasında müəyyən etmişdir:

		Ədalətli dəyərin ölçülməsi üçün istifadə edilən göstəricilər			
	Qiymətləndirmə tarixi	Fəal bazarda müəyyən edilmiş qiymətlər (Səviyyə 1)	Müşahidə edilən ilkin əhəmiyyətli məlumatlar (Səviyyə 2)	Müşahidə edilməyən ilkin əhəmiyyətli məlumatlar (Səviyyə 3)	Cəmi
Ədalətli dəyərlə ölçülən aktivlər					
İnvestisiya qiymətli kağızları	31 dekabr 2023	676	-	-	676
Ədalətli dəyəri açıqlanan aktivlər					
İnvestisiya qiymətli kağızları	31 dekabr 2023	79,370	11,971	40	91,381
Pul vəsaitləri və onların ekvivalentləri	31 dekabr 2023	44,683	119,842	-	164,525
Kredit təşkilatlarından alınacaq məbləğlər	31 dekabr 2023	-	65,911	-	65,911
Müştərilərə verilmiş kreditlər	31 dekabr 2023	-	-	989,526	989,526
Digər maliyyə aktivləri	31 dekabr 2023	-	14,781	-	14,781
Ədalətli dəyərlə ölçülən öhdəliklər					
Törəmə maliyyə öhdəlikləri	31 dekabr 2023	-	1,080	-	1,080
Ədalətli dəyəri açıqlanan öhdəliklər					
Kredit təşkilatları qarşısında öhdəliklər	31 dekabr 2023	-	23,541	-	23,541
Müştərilər qarşısında öhdəliklər	31 dekabr 2023	-	1,079,150	-	1,079,150
Borc öhdəlikləri	31 dekabr 2023	-	84,487	-	84,487
Subordinasiyalı kreditlər	31 dekabr 2023	-	34,357	-	34,357

32 Ədalətli dəyərin ölçülməsi (davamı)

	Qiymətləndirmə tarixi	Ədalətli dəyərin ölçülməsi üçün istifadə edilən göstəricilər			Cəmi
		Fəal bazarda müəyyən edilmiş qiymətlər (Səviyyə 1)	Müşahidə edilən ilkin əhəmiyyətli məlumatlar (Səviyyə 2)	Müşahidə edilməyən ilkin əhəmiyyətli məlumatlar (Səviyyə 3)	
Ədalətli dəyərlə ölçülən aktivlər					
İnvestisiya qiymətli kağızları	31 dekabr 2022	709	-	-	709
Ədalətli dəyəri açıqlanan aktivlər					
İnvestisiya qiymətli kağızları	31 dekabr 2022	90,842	3,418	40	94,300
Pul vəsaitləri və onların ekvivalentləri	31 dekabr 2022	45,103	73,855	-	118,958
Kredit təşkilatlarından alınacaq məbləğlər	31 dekabr 2022	-	33,260	-	33,260
Müştərilərə verilmiş kreditlər	31 dekabr 2022	-	-	791,736	791,736
Digər maliyyə aktivləri	31 dekabr 2022	-	8,733	-	8,733
Ədalətli dəyərlə ölçülən öhdəliklər					
Törəmə maliyyə öhdəlikləri	31 dekabr 2022	-	3,804	-	3,804
Ədalətli dəyəri açıqlanan öhdəliklər					
Kredit təşkilatları qarşısında öhdəliklər	31 dekabr 2022	-	49,910	-	49,910
Müştərilər qarşısında öhdəliklər	31 dekabr 2022	-	881,881	-	881,881
Borc öhdəlikləri	31 dekabr 2022	-	29,879	-	29,879
Subordinasiyalı kreditlər	31 dekabr 2022	-	-	29,614	29,614

Ədalətli dəyərləri balans dəyərlərinə təxmini bərabər olan aktivlər

Tez satıla bilən və ya ödəmə müddəti qısa (üç aydan az) olan maliyyə aktivləri və öhdəlikləri ilə bağlı olaraq ehtimal edilir ki, onların balans dəyərləri təxminən ədalətli dəyərlərinə bərabərdir. Bu ehtimal tələbli depozitlərə tətbiq edilir.

Ədalətli dəyərlə əks etdirilməyən maliyyə aktivləri və öhdəliklərin ədalətli dəyəri

Aşağıda Bankın maliyyə vəziyyəti haqqında hesabatında ədalətli dəyərlə əks etdirilməmiş maliyyə alətlərinin balans dəyərləri və ədalətli dəyərləri siniflər üzrə müqayisə edilir. Cədvəldə qeyri-maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərləri təqdim edilmir:

	Balans dəyəri 2023	Ədalətli dəyər 2023	Tanınmamış gəlir/(zərər) 2023	Balans dəyəri 2022	Ədalətli dəyər 2022	Tanınmamış gəlir 2022
Maliyyə aktivləri						
Müştərilərə kreditlər	990,282	989,526	(755)	790,773	791,736	963
İnvestisiya qiymətli kağızları	93,136	91,381	(1,755)	93,538	94,300	762
Maliyyə öhdəlikləri						
Müştərilər qarşısında öhdəliklər	1,078,873	1,079,150	(318)	883,617	881,881	1,736
Borc öhdəlikləri	84,489	84,489	-	29,879	29,879	-
Subordinasiyalı kreditlər	34,376	34,357	19	31,103	29,614	1,489
Buraxılmış borc qiymətli kağızları	8,543	8,543	-	8,543	8,543	-
Ədalətli dəyərlə tanınmamış cəmi dəyişiklik			**(2,809)**			**4,950**

31 dekabr 2023 və 31 dekabr 2022-ci il tarixlərinə pul vəsaitləri və onların ekvivalentləri, kredit təşkilatlarından alınacaq məbləğlər və digər cari aktiv və öhdəliklərinin dəyəri təxminən balans dəyərinə bərabərdir.

31 dekabr 2023 və 31 dekabr 2022-ci il tarixlərinə kredit təşkilatları qarşısında öhdəliklər və borc öhdəlikləri üzrə faiz dərəcələri bazar dərəcələrinə yaxın olduğuna görə bu maliyyə alətlərinin balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir.

32 Ədalətli dəyərin ölçülməsi (davamı)

Qiymətləndirmə üsulları və ehtimalları

Aşağıda maliyyə hesabatlarında ədalətli dəyərlə hələ əks etdirilməmiş maliyyə alətlərinin və maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərlə ölçülməmiş, lakin ədalətli dəyərləri açıqlanmış maddələrin ədalətli dəyərlərini müəyyən etmək üçün istifadə edilən metodologiya və fərziyyələr təsvir olunur.

Törəmə alətlər

Bazarda müşahidə olunan ilkin məlumatlar əsasında qiymətləndirmə metodlarından istifadə etməklə qiymətləndirilən törəmə alətlər əsasən faiz dərəcəsi svopları və valyuta svopu müqavilələridir. Ən çox tətbiq olunan qiymətləndirmə metodlarına cari qiymətin hesablamalarından istifadə etməklə forvard qiymətinin müəyyən edilməsi və svop modelləri daxildir. Modellər qarşı tərəflərin kredit ödəmə qabiliyyəti, valyuta spotu, forvard dərəcələri və faiz dərəcəsi əyriləri də daxil olmaqla müxtəlif ilkin verilənlərin istifadə edilməsini nəzərdə tutur.

İnvestisiya qiymətli kağızları

İnvestisiya qiymətli kağızları ilk növbədə borc qiymətli kağızlarından ibarətdir. Bu qiymətli kağızlar hesabat tarixində qiymət kvotasiyalarını istifadə etməklə qiymətləndirilir. Bazarda sərbəst surətdə alınıb satıla bilməyən qiymətli kağızlar hesabat tarixində aparılan oxşar müşahidə edilən əməliyyatlardan istifadə edərək qiymətləndirilmişdir.

Müştərilərə verilmiş kreditlər

Ədalətli dəyər gözlənilən cari dəyər üsulu ilə hesablanır. Bu üsula əsasən müqavilə üzrə pul axınlarına və ya oxşar xüsusiyyətlərə malik kredit portfelləri üçün təyin edilmiş risksiz dərəcə və risk premiyası kimi müəyyən edilmiş (kredit riskinin keyfiyyət baxımından) diskont dərəcəsinə risk premiyası və hər bir kredit seqmentinə uyğun müvafiq əməliyyat mənfəəti marjası tətbiq edilir. Bank, həmçinin diskont dərəcələrini müvafiq ödəmə müddətləri əsasında kreditlər üzrə dərc edilmiş tənzimləyici statistik məlumatlarda müşahidə oluna bilən faiz dərəcələri ilə müqayisə edir.

Müştərilərin cari hesabları və depozitləri, digər borc öhdəlikləri

Cari hesablar faiz yaratmayan qısamüddətli öhdəliklərdən ibarətdir və onların balans dəyəri təxminən ədalətli dəyərinə bərabərdir.

Müddətli depozitlər, banklar, kredit təşkilatları və dövlət fondları qarşısında öhdəliklərin ədalətli dəyəri analoji şərtlərə, kredit riskinə və ödəmə müddətinə malik olan borclar üçün mövcud olan faiz dərəcələrini tətbiq etməklə gələcək pul axınlarının diskontlaşdırılması yolu ilə hesablanır.

Dövlət fondlarından cəlb edilmiş və müşahidə oluna bilən faiz dərəcələri olmayan borcları qiymətləndirmək üçün Bank öhdəliyin icra edilməməsi riskinə (kredit riski premiyası) uyğun düzəliş edilmiş baza dərəcədən (yenidən maliyyələşdirmə və ya dövlət istiqrazları faizləri) istifadə edəcək.

Emissiya edilmiş istiqrazlar

Oxşar aktivlər üçün mövcud olan gündəlik qiymətlər 1-ci Səviyyədəki qiymətləndirmə kateqoriyasına aiddir və açıqlama məqsədləri üçün hesabat tarixinə mövcud olan qiymət əsas götürülür. İstiqrazın qiyməti fəal bazarda eyni ödəmə müddətləri, faiz dərəcələri və kredit reytinqlərinə malik olan korporativ istiqrazlar ilə müqayisə edilməklə hesablanır. Diskont dərəcəsi risksiz dərəcə + emitentin kredit riski premiyası kimi müəyyən edilir.

Ədalətli dəyəri balans dəyərinə təxmini bərabər olan aktivlər

Tez satıla bilən və ya ödəmə müddəti qısa (üç aydan az) olan maliyyə aktivləri və öhdəliklərinin balans dəyərinin təxminən onların ədalətli dəyərinə bərabər olması ehtimal edilir. Bu ehtimal tələbli depozitlərə də şamil edilir.

31 dekabr 2023-cü il tarixində başa çatmış il ərzində 2-ci Səviyyə üçün daimi ədalətli dəyər qiymətləndirmələri üzrə modellərdə dəyişiklik olmamışdır (2022: qiymətləndirmə modellərində dəyişiklik olmamışdır).

33 Əlaqəli tərəflərə dair açıqlamalar

BMS 24 *"Əlaqəli tərəflərlə bağlı məlumatların açıqlanması"* standartına uyğun olaraq tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar ümumi nəzarət altında olsun və ya tərəflərdən biri digərinə nəzarət etmək iqtidarında olsun və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlərə dair qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli dərəcədə təsir göstərə bilsin və ya ona birgə nəzarət etsin. Əlaqəli tərəflərlə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur.

Əlaqəli tərəflər əlaqəli olmayan tərəflərin həyata keçirə bilmədiyi əməliyyatlarda iştirak edə bilər və əlaqəli tərəflər arasında əməliyyatlar əlaqəli olmayan tərəflər arasında əməliyyatlarla eyni şərtlər, müddət və məbləğdə aparılmaya bilər. Bank əlaqəli tərəflərlə əməliyyatların bazar şərtləri ilə həyata keçirilməsinə nəzarət edir.

Əlaqəli tərəflərlə əməliyyatların həcmi, ilin sonuna qalıqlar və il üzrə əlaqəli xərc və gəlirlər aşağıda göstərilir:

	2023			2022		
	Səhmdarlar	**Əsas idarəedici heyət**	**Digər əlaqəli tərəflər**	**Səhmdarlar**	**Əsas idarəedici heyət**	**Digər əlaqəli tərəflər**
1 yanvar tarixinə depozitlər	**-**	**88**	**-**	**-**	**34**	**-**
İl ərzində cəlb edilmiş depozitlər	-	23	97	-	54	-
İl ərzində qaytarılmış depozitlər	-	-	-	-	-	-
31 dekabr tarixinə cəlb edilmiş depozitlər	**-**	**111**	**97**	**-**	**88**	**-**
1 yanvar tarixinə borc öhdəlikləri	**-**	**-**	**-**	**16,889**	**-**	**-**
İl ərzində cəlb edilmiş borc öhdəlikləri	-	-	-	-	-	-
İl ərzində ödənilmiş borc öhdəlikləri	-	-	-	(5,107)	-	-
Digər hərəkətlər	-	-	-	-	-	-
Tanınmamış əsas borc öhdəlikləri	-	-	-	(11,782)	-	-
31 dekabr tarixinə borc öhdəlikləri	-	-	-	-	-	-
31 dekabr tarixinə cari hesablar				**-**	**137**	
1 yanvar tarixinə subordinasiyalı kreditlər	**31,103**	**-**	**-**	**23,105**	**-**	**-**
İl ərzində cəlb edilmiş subordinasiyalı kreditlər	-	-	-	-	-	-
İl ərzində ödənilmiş subordinasiyalı kreditlər	-	-	-	(827)	-	-
Yeni subordinasiyalı kreditin tanınması	-	-	-	11,782	-	-
Səhmdarlar tərəfindən subordinasiyalı kreditlər üzrə faizlərin dayandırılması və əsas borc öhdəliyinin imtiyazlı səhmlərə çevrilməsinin nəticəsi	-	-	-	(4,769)	-	-
Faiz xərclərinin amortizasiyası	3,273	-	-	2,464	-	-
Məzənnə fərqi	-	-	-	(33)	-	-
Digər hərəkətlər	-	-	-	(619)	-	-
31 dekabr tarixinə subordinasiyalı kreditlər	**34,376**	**-**	**-**	**31,103**	**-**	**-**

33 Əlaqəli tərəflərə dair açıqlamalar (davamı)

Əlaqəli tərəflərlə əməliyyatlardan irəli gələn gəlir və xərclər aşağıdakı cədvəldə təqdim olunur:

	2023			2022		
	Səhmdarlar	Digər əlaqəli tərəflər	Əsas idarəedici heyət	Səhmdarlar	Digər əlaqəli tərəflər	Əsas idarəedici heyət
Depozitlər üzrə faiz xərci	-	-	(13)	-	-	(1)
Borc öhdəlikləri üzrə faiz xərci	-	-	-	(398)	-	-
Subordinasiyalı kreditlər üzrə faiz xərci	(3,273)	-	-	(2,464)	-	-
İdarəetmə və konsaltinq xidmətləri üzrə xərclər	(385)	(717)	-	(779)	(1,034)	-

2023-cü il ərzində əlaqəli tərəflərə verilmiş kreditlərin məbləği əhəmiyyətli olmamışdır (2022: sıfır).

2023-cü il ərzində 717 min AZN (2022: 1,034 min AZN) məbləğində xərclər Banka idarəetmə və konsaltinq xidmətləri göstərən əlaqəli tərəflə 2023-cü ilin sentyabr ayınadək bağlanmış konsaltinq müqaviləsi üzrə xərcləri əks etdirir. Bu xərclərin 535 min AZN (2022: 928 min AZN) məbləğində hissəsi həmin şirkət tərəfindən göstərilən idarəetmə xidmətinə aiddir.

Əsas idarəedici heyətə ödənişlər aşağıda göstərilir:

	2023	2022
	Xərclər	Xərclər
Qısamüddətli ödənişlər:		
- Əmək haqları	2,191	2,078
- Həyatın yığım sığortası üzrə sosial sığorta ödənişləri	65	21
Əmək fəaliyyətinin başa çatmasından sonrakı ödənişlər:		
- DSMF ayırmaları	300	302
İşçilərə verilmiş digər uzunmüddətli ödənişlər		
- Uzunmüddətli bonus planı (rəhbəliyin mükafatlandırılması planı)	1,003	-
Cəmi	**3,559**	**2,401**

34 Hesabat tarixindən sonra baş vermiş hadisələr

Hesabat tarixindən sonra maliyyə hesabatlarında düzəliş və ya açıqlanma tələb edən hər hansı əhəmiyyətli hadisə baş verməmişdir.

35 İxtisarlar

Hazırkı maliyyə hesabatlarında istifadə olunmuş ixtisarlar aşağıda göstərilir:

İxtisarlar	Tam adı
AMB	Azərbaycan Respublikasının Mərkəzi Bankı
CCF	Kreditə konvertasiya əmsalı
EAD	Defolta məruz qalan dəyər
GKZ	Gözlənilən kredit zərərləri
FVOCI	Sair məcmu gəlirdə ədalətli dəyərlə əks etdirilən
FVTPL	Mənfəət və ya zərərdə ədalətli dəyərlə əks etdirilən
BMHS Mühasibat Uçotu Standartları	BMUSŞ tərəfindən dərc edilən Beynəlxalq Maliyyə Hesabatı Standartları
LGD	Defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ
OCI	Sair məcmu gəlir
PD	Defolt ehtimalı
POCI maliyyə aktivləri	Alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri
SICR	Kredit riskinin əhəmiyyətli dərəcədə artması
SPPI	Yalnız əsas borc və faiz ödənişləri
SPPI testi	Maliyyə alətləri üzrə pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olmasının qiymətləndirilməsi